XƏZƏR XƏBƏR

№ 465
OKTYABR 2026

KHAZAR REVIEW



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

“SƏNƏT İNCİLƏRİ”: NÖVBƏTİ MÜHAZİRƏ- KONSERT XƏZƏR UNİVERSİTETİNDƏ

(*Mətn 12-ci səh-də*)













"GEMS OF ART": ANOTHER LECTURE-CONCERT ORGANIZED AT KHAZAR UNIVERSITY

(*To be continued p.12*)







İÇİNDƏKİLƏR

Xəzər Universitetinin strateji inkişafında yeni mərhələ: Hidayət Şimşək Direktorlar və Qəyyumlar Şurasının üzvü seçilib 6
Elmi Şuranın növbəti iclası 10
"Sənət inciləri": növbəti mühazirə - konsert Xəzər Universitetində 12
Xəzər Universiteti "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində əcnəbi tələbələri qəbul edəcək 17
"ADEX 2026" sərgisində tələbə mühəndislik layihələri 18
Mədəni diplomatiya, şəxsi narrativlər və süni intellekt mövzusunda ikigünlük simpozium 20
Ukraynanın Azərbaycandakı səfirinin "Xəzər"in tələbələri üçün seminarı 22
Tərlanə Yaqubqızı. **80 yaşlı çempion** 24
Nobel Mükafatı Laureatları-2026 26
Xəzər Universitetinin əməkdaşı EIFL`in Azərbaycandan Açıq Giriş (Open Access) koordinatoru kimi fəaliyyət göstərəcək 31
Departament rəhbəri "Yüksək Ehtiram" beynəlxalq mükafatına layiq görülüb 32
Doktorantların departamentdaxili müdafiəsi və yeni tədris ili ilə bağlı iclas 34
Corc Oruellin esseləri ilk dəfə Azərbaycan dilində 35
Dekan: baytarlıq sahəsində əsas problem kadr çatışmazlığıdır 36
Tələbə: heyvanlara marağım baytarlıq ixtisasını seçməyim üçün əsas oldu 37
"Məktəbəqədər Təhsildə II Refleksiv Peşəkar Emalatxana" 38
Hamlet İsaxanlı. **Yağış yağır, sevgilim (povest)** 40
İngiltərənin Southampton Universitetində təhsil alan doktorantın seminarı 62
"Almaniyada təhsil" mövzusunda informasiya sessiyası 63
Regina Dürig. **Bir anın içində var olmağın genişliyi** 64
Tarix müəllimliyi tələbələri Azərbaycan Milli Tarix Muzeyinə səfər ediblər 66
Muzey- sərgi zalında dərslər 67
Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva ADA Universitetində keçirilən simpoziumda çıxış edib 68
Departament müdiri beynəlxalq konfransda 72
Pakistanın Northern Universitetinin rektoru "Xəzər"də 74
Fransanın Azərbaycandakı Səfirliyinin Universitet və Elmi Əməkdaşlıq üzrə attaşesi ilə görüş 75
Vyetnamda keçirilən festivalda Azərbaycan mədəniyyəti təqdim olunub 76

Üz qabığında: Ukraynanın Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Yuriy Husyev və Xəzər Universiteti rektorunun müşaviri Zemfira Məmmədova (Mətn 22-ci səh-də)

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Telman Nəzərli

Məsul katib
Nazim Əlifov

Foto:
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

Redaksiya heyəti:
Əlirza Balayev
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Qəzənfər Paşayev
Knyaz Aslan

İngilis dilinə tərcümə və redaktə:
Elmira Cahangirli

Kompüter tərtibatçısı:
Günel Əkbərova

CONTENTS

New Stage in Khazar University's Strategic Development: Hidayet Simsek Elected Member of Board of Directors and Trustees 6
Next Meeting of Academic Council 10
"Gems of Art": Another Lecture-Concert Organized at Khazar University 12
Khazar University to Admit Foreign Students under the "Heydar Aliyev International Education Grant" Program 17
Student Engineering Projectsat "ADEX 2026" Exhibition 18
Two-day Symposium on Cultural Diplomacy, Personal Narratives, and Artificial Intelligence 20
Ambassador of Ukraine to Azerbaijan Holds Seminar for Khazar University Students 22
Terlane Yagubgizi. **80 Years Old Champion** 24
Nobel Prize Laureates 2026 26
Khazar University Staff Member to Serve as EIFL's Open Access Coordinator for Azerbaijan 31
Head of Department Honored with International "High Respect" Award 32
Meeting on Departmental Defense of Doctoral Candidates and New Academic Year 34
George Orwell's Essays for the First Time in Azerbaijani 35
Dean: Main Problem in Veterinary Sector is Staff Shortage 36
Student: My Interest in Animals Was the Main Reason I Chose Veterinary Medicine 37
"Second Reflective Professional Workshop in Preschool Education" 38
Hamlet Isakhanli. **It is Raining, My Dear (Novella)** 40
Seminar by PhD Student Studying at University of Southampton, England 62
Information Session on "Studying in Germany" 63
Regina Dürig. **The Vastness of Existing in a Single Moment** 64
History Teaching Students Visit Azerbaijan National History Museum 66
Classes Held in Museum-Exhibition Hall 67
Khazar University Rector Dr. Razia Isaeva Speaks at Symposium Held at ADA University 68
Head of Department at International Conference 72
Rector of Pakistan's Northern University at Khazar 74
Meeting with France's Attaché for University and Scientific Cooperation in Azerbaijan 75
Azerbaijani Culture Presented at Festival Held in Vietnam 76

On the cover: Ambassador Extraordinary and Plenipotentiary of Ukraine to Azerbaijan Yuriy Husyev and Zemfira Mammadova, Advisor to the Rector of Khazar University *(To be continued p.22)*

It has been published since January 1995

Founder: Khazar University

Editor-in-chief: Hamlet Isakhanli

Associate editor: Telman Nazarli

Executive Secretary Nazim Alifov

Photo: Multimedia Centre

Khazar University
Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000

Editorial members:
Alirza Balayev
Gazanfar Pashayev
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

Translation and editing into English: Elmira Jahangirli

Computer graphics: Gunel Akbarova

XƏZƏR UNİVERSİTETİNİN STRATEJİ İNKİŞAFINDA YENİ MƏRHƏLƏ: HİDAYƏT ŞİMŞƏK DİREKTORLAR VƏ QƏYYUMLAR ŞURASININ ÜZVÜ SEÇİLİB

Sentyabrın 16-da Xəzər Universitetinin Mərmər salonunda Hidayət Şimşəyin Direktorlar və Qəyyumlar Şurasının üzvü seçilməsi münasibətilə Şuranın açıq iclası keçirilib. Hasvet A.Ş.-nin İdarə Heyəti sədrinin Şuraya üzv seçilməsi universitetin uzunmüddətli inkişaf hədəflərinə xidmət edən, institusional tərəfdaşlığı və birgə fəaliyyət imkanlarını genişləndirən strateji addım kimi dəyərləndirilib.

İclası Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı açıb. O, universitetin yarandığı dövrdən bu




Hamlet İsaxanlı

NEW STAGE IN KHAZAR UNIVERSITY'S STRATEGIC DEVELOPMENT: HIDAYET SIMSEK ELECTED MEMBER OF BOARD OF DIRECTORS AND TRUSTEES



Hidayət Şimşək



Raziyə İsayeva

An open meeting of the Board was held on September 16, in the Marble Hall of Khazar University on the occasion of Hidayet Simsek's election as a member of the Board of Directors and Trustees. The joining of the Chairman of the Board of Hasvet A.Ş. to the Board was assessed as a strategic step serving the university's long-term development goals and expanding institutional partnership and opportunities for joint activity.

The meeting was opened by Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees. He spoke about the path of development the university has traveled since its founding, the academic traditions it has shaped, and the strategic goals ahead. The presentation, held in the context of the university's future development, carried particular significance in terms of building new part-



günədək keçdiyi inkişaf yolundan, formalaşdırdığı akademik ənənələrdən və qarşıda duran strateji məqsədlərdən danışıb. Universitetin gələcək inkişafı kontekstində keçirilən təqdimat yeni tərəfdaşlıqların qurulması və institusional məsuliyyətin paylaşılması baxımından xüsusi məna daşıyıb.

Hidayət Şimşəyin Şuraya üzv seçilməsi Xəzər

nerships and sharing institutional responsibility.

Hidayet Simsek's election to the Board signifies the transition of the existing cooperation between Khazar University and the Hasvet company onto a broader strategic level. This step creates an important foundation for the development of relations between the parties from individual projects toward long-term



Universiteti ilə Hasvet şirkəti arasında mövcud əməkdaşlığın daha geniş strateji müstəviyə keçməsini ifadə edir. Bu addım tərəflər arasında əlaqələrin ayrı-ayrı layihələrdən uzunmüddətli institusional tərəfdaşlığa doğru inkişafı, təhsil, tədqiqat və peşəkar fəaliyyətin ortaq məqsədlər ətrafında birləşdirilməsi üçün mühüm zəmin yaradır. Belə tərəfdaşlıq universitetin akademik potensialını yeni inkişaf imkanları ilə əlaqələndirməyə, birgə təşəbbüslərin davamlılığını

institutional partnership, and for uniting education, research, and professional activity around shared goals. Such a partnership serves to connect the university's academic potential with new development opportunities, ensure the sustainability of joint initiatives, and expand the scope of international cooperation.

In the continuation of the meeting, Hidayet Simsek's biography was presented. Information was pro-

(*Davamı 8-ci səh-də*)

(*To be continued p.8*)



vided about his educational and professional path, the establishment and development of Hasvet, and the initiatives he has implemented in the fields of veterinary education, technology, and clinical services. A video dedicated to Hidayet Simsek's activity was then shown.

A graduate of Ankara University's Faculty of Veterinary Medicine, Hidayet Simsek later completed a master's degree in business administration at Antalya Bilim University. He has developed the activity of Hasvet Medikal, the company he founded in 2009, in the directions of education, technology, and clinical services alongside the supply of veterinary equipment. Through the Hasvet Academy and professional training platforms, he has contributed to the continuous development of specialists and has led the creation of modern veterinary hospitals.

One of the key areas of his activity in Azerbaijan is the establishment of Hasvet Baku International Animal Hospital in Baku. This initiative has laid the groundwork for expanding cooperation between Khazar University and Hasvet in veterinary education, clinical training, and research activity. Hidayet Simsek's joining of the Board opens new opportunities for more closely linking this cooperation with the university's overall development agenda.

After the biographical presentation and the video, the floor was given to Hidayet Simsek. The presentation program continued with his speech.

The event concluded with networking among invited guests, providing an opportunity for communication, exchange of views, and building new connections. The meeting served as a platform that brought partners together around the university's

təmin etməyə və beynəlxalq əməkdaşlığın əhatəsini genişləndirməyə xidmət edir.

İclasın davamında Hidayət Şimşəyin bioqrafiyası təqdim olunub. Onun təhsil və peşəkar fəaliyyət yolu, Hasvetin yaradılması və inkişafı, baytarlıq təhsili, texnologiya və klinik xidmətlər sahələrində həyata keçirdiyi təşəbbüslər haqqında məlumat verilib. Sonra Hidayət Şimşəyin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.



Ankara Universitetinin Baytarlıq fakültəsinin məzunu olan Hidayət Şimşək sonradan Antalya Bilim Universitetində biznesin idarəedilməsi üzrə magistratura təhsili alıb. 2009-cu ildə təsis etdiyi Hasvet Medikal şirkətinin fəaliyyətini baytarlıq avadanlıqlarının təchizatı ilə yanaşı, təhsil, texnologiya və klinik xidmətlər istiqamətində inkişaf etdirib. Hasvet Akademiyası və peşəkar təlim platformaları vasitəsilə mütəxəssislərin davamlı inkişafına töhfə verib, müasir baytarlıq xəstəxanalarının yaradılmasına rəhbərlik edib.



Onun Azərbaycandakı fəaliyyətinin mühüm istiqamətlərindən biri Bakıda Hasvet Baku International Animal Hospital`ın yaradılmasıdır. Bu təşəbbüs Xəzər Universiteti ilə Hasvet arasında baytarlıq təhsili, klinik hazırlıq və elmi fəaliyyət üzrə əməkdaşlığın ge-



future development and marked the start of a new stage of cooperation.

Khazar University congratulates Hidayet Simsek on his election as a member of the Board of Directors and Trustees and believes that this strategic partnership will contribute to the university's long-term development and to new academic and scientific initiatives.

nişlənməsinə zəmin yaradıb. Hidayət Şimşəyin Şuraya üzv seçilməsi həmin əməkdaşlığın universitetin ümumi inkişaf gündəliyi ilə daha sıx əlaqələndirilməsi üçün yeni imkanlar açır.

Bioqrafik təqdimat və videoçarxın nümayişindən sonra söz Hidayət Şimşəyə verilib. Onun çıxışı ilə təqdimat proqramı davam edib.





Tədbir dəvət olunmuş qonaqlar arasında ünsiyyət, fikir mübadiləsi və yeni əlaqələrin qurulmasına imkan verən şəbəkələşmə ilə tamamlanıb. Görüş universitetin gələcək inkişafı ətrafında tərəfdaşları bir araya gətirən və əməkdaşlığın yeni mərhələsinə başlanğıc verən platforma olub.

Xəzər Universiteti Hidayət Şimşəyi Direktorlar və Qəyyumlar Şurasının üzvü seçilməsi münasibətilə təbrik edir və bu strateji tərəfdaşlığın universitetin uzunmüddətli inkişafına, yeni akademik və elmi təşəbbüslərə töhfə verəcəyinə inanır.



ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI

Oktyabrın 12-də Xəzər Universiteti Elmi Şurasının növbəti iclası keçirildi.

Xəzər Universitetinin rektoru, Dr. Razi-yə İsayeva iclasın sədri kimi, gündəlikdə duran mə-sələləri Şura üzvlərinin diqqətinə çatdırdı, Elmi Şu-ranın yeni tərkibi barədə məlumat verdi. Bildirdi ki, Elmi Şuranın yeni tərkibi təsdiq edilmiş və sənaye sahəsində fəaliyyət göstərən 3 mütəxəssis də daxil olmaqla, Şuranın üzvlərinin ümumi sayı 48 nəfər müəyyən edilmişdir.

Sonra iclasın gündəliyində yer alan birinci məsə-lənin — məzunlar haqqında məlumatın təqdim olun-ması müzakirə edildi. Tələbələrin akademik gös-təricilərini, ixtisas istiqamətlərini və müvafiq statistik məlumatları təqdim etmək üçün söz Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfən-diyevaya, həmçinin, İqtisadiyyat və menecment fa-kültəsinin dekanı Dilarə Rəsulovaya, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Milana Ab-basovaya və İqtisadiyyat və biznes yüksək təhsil fa-kültəsinin dekanı İnqilab Əhmədova verildi. Təqdim edilən məzun siyahısı Elmi Şura üzvləri tərəfindən təsdiq olundu.

Gündəliyin ikinci məsələsi fəlsəfə doktoru proq-ramı üzrə doktoranturaya qəbul olunmuş tələbələrin təhsil formalarının əyanidən qiyabiyə keçirilməsi ilə bağlı idi. Elmi Şuranın katibi Günel Bahəddinova bil-dirdi ki, cari akademik ildə Xəzər Universitetinə 18 nəfər yerli doktorant qəbul edilib. Onlardan əyani for-mada qəbul olunan 5 tələbə rəsmi ərizə ilə müraciət edərək, təhsil formalarının əyanidən qiyabiyə dəyiş-dirilməsini xahiş ediblər. Elmi Şura üzvləri tərəfindən müraciətlər müsbət qiymətləndirildi və müvafiq qərar

NEXT MEETING OF ACADEMIC COUNCIL

The next meeting of Khazar University's Aca-demic Council was held on October 12. Dr. Razia Isaeva, Rector of Khazar University, as chair of the meeting, brought the items on the agenda to the attention of Council members and provided in-formation on the new composition of the Academic Council. She stated that the new composition of the Academic Council has been approved and that the total number of Council members, including 3 spe-cialists working in industry, has been set at 48.

The first item on the agenda, the presentation of in-formation on graduates, was then discussed. The floor was given to Fakhranda Afandiyeva, Dean of the Sc-hool of Science and Engineering; Dilara Rasulova, Dean of the School of Economics and Management; Milana Abbasova, Dean of the School of Humanities, Education and Social Sciences; and Inqilab Ahmadov, Dean of the Graduate School of Economics and Busi-ness to present students' academic indicators, areas of specialization, and relevant statistical data. The list of graduates presented was approved by the members of the Academic Council.

The second item on the agenda concerned the tran-sfer of the form of study of students admitted to the PhD program from full-time to part-time. Gunel Ba-haddinova, Secretary of the Academic Council, stated that 18 local doctoral students have been admitted to Khazar University in the current academic year. Of these, 5 students admitted on a full-time basis applied with an official petition requesting that their form of study be changed from full-time to part-time. The members of the Academic Council evaluated the applications positively, and a relevant decision was adopted.



qəbul edildi.

Elmi Şuranın üçüncü məsələsi 2525.01 – "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə əyani doktorant Abdirisak Abdirahman Abdullahinin dissertasiya mövzusunun adının dəyişdirilməsi oldu. Doktorant dissertasiya mövzusunun adının dəyişdirilməsi ilə bağlı Elmi Şura üzvlərinə məlumat verdi. Təklif qəbul olundu və məsələ səsə qoyularaq təsdiq edildi.

Gündəliyin dördüncü məsələsi kimi, Elmi Şuranın illik fəaliyyət planı müzakirə olundu. Sədr Dr. Raziyə İsayeva fəaliyyət planında yer alan məsələlər barədə məlumat verərək, onları Şura üzvlərinin diqqətinə çatdırdı. Üzvlər tərəfindən irəli sürülən təkliflər nəzərə alınaraq, plan təsdiq edildi.

Elmi Şuranın beşinci məsələsində İqtisadiyyat və menecment departamentinin professoru Şəhriyar Muxtarovun müəllifi olduğu "Monetar siyasət" adlı dərs vəsaitinin çapı müzakirə edildi. Dərs vəsaiti barədə İqtisadiyyat və menecment fakültəsinin dekanı Dilarə Rəsulova ətraflı məlumat verdi. Müzakirədən sonra Elmi Şura üzvlərinin yekdil səsi ilə "Monetar siyasət" çapa tövsiyə olundu.

Şuranın altıncı məsələsi Akkreditasiya komissiyasının göstəriş və tövsiyələrinin icrasına dair 2026/27-ci tədris ili üzrə fəaliyyət planının müzakirəsi oldu. Bu məsələ haqqında Xəzər Universiteti Keyfiyyətin Təminatı Mərkəzinin rəhbəri Lyudmila Sotova məlumat verdi. Məsələ səsə qoyularaq, fəaliyyət planı təsdiq edildi.

Müzakirə olunan sonuncu, yeddinci məsələdə Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu və Kimya və kimya mühəndisliyi departamentinin müdiri Tahir Cavadzadə departamentlərin Strateji inkişaf planları üzrə ətraflı məlumat verdilər.

İclasın sonunda cari məsələlər müzakirə olundu və iclas başa çatdı.

The third item of the Academic Council was the change of the dissertation title of Abdirisak Abdirahman Abdullahi, a full-time doctoral student in the specialty 2525.01 – "Development and Operation of Oil and Gas Fields." The doctoral student informed the Council members about the change of the dissertation title. The proposal was accepted, and the matter was put to a vote and approved.

As the fourth item on the agenda, the Academic Council's annual action plan was discussed. Chair Dr. Razia Isaeva provided information on the issues included in the action plan and brought them to the attention of Council members. Taking into account the proposals put forward by the members, the plan was approved.

In the fifth item, the publication of the textbook "Monetary Policy," authored by Shahriyar Mukhtarov, Professor at the Department of Economics and Management, was discussed. Dilara Rasulova, Dean of the School of Economics and Management, provided detailed information about the textbook. Following the discussion, "Monetary Policy" was recommended for publication by the unanimous vote of the Academic Council members.

The sixth item was the discussion of the action plan for the 2026/27 academic year on the implementation of the instructions and recommendations of the Accreditation Commission. Lyudmila Sotova, Head of Khazar University's Quality Assurance Center, provided information on this matter. The matter was put to a vote, and the action plan was approved.

In the seventh and final item discussed, Telman Nusratoglu, Head of the Department of History and Archaeology, and Tahir Javadov, Head of the Department of Chemistry and Chemical Engineering, provided detailed information on their departments' Strategic Development Plans.

At the end of the meeting, current issues were discussed and the meeting concluded.



"SƏNƏT İNCİLƏRİ": NÖVBƏTİ MÜHAZİRƏ-KONSERT XƏZƏR UNİVERSİTETİNDƏ

"GEMS OF ART": ANOTHER LECTURE-CONCERT ORGANIZED AT KHAZAR UNIVERSITY

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) Üzeyir Hacıbəyli XVIII Beynəlxalq Musiqi Festivalı çərçivəsində həyata keçirdiyi "Sənət inciləri" layihəsi üzrə növbəti mühazirə-konsert Xəzər Universitetində təşkil olunub.

Another lecture-concert as part of the "Gems of Art" project, carried out by the Ministry of Culture of the Republic of Azerbaijan's Scientific-Methodical and Advanced Training Center for Culture (SMATCC) within the framework of the 18th Uzeyir Hajibeyli International Music Festival, was organized at Khazar University.





Hamlet İsaxanlı



Səadət Təhmirazqızı



Vüqar Hümbətov



Gülyaz Məmmədova

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU), Xəzər Universiteti və Beynəlxalq Muğam Mərkəzinin (BMM) dəstəyi ilə keçirilən tədbirdə təhsil ocağının müəllim və tələbələri iştirak ediblər.



Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad. Hamlet İsaxanlı çıxış edərək, Üzeyir Hacıbəyli fenomeni haqqında fikirlərini bölüşüb. O, Azərbaycanın mədəni-ictimai fikir tarixində silinməz iz qoyan Üzeyir bəyin bəstəkar, pedaqoq, musiqişünas, təhsil təşkilatçısı və ictimai xadim kimi çoxşaxəli fəaliyyətindən maraqlı məqam-

(*Davamı 14-cü səh-də*)



İradə Köçərli

The event, held with the support of the Uzeyir Hajibeyli Baku Music Academy (BMA), the Azerbaijan State University of Culture and Arts (ASUCA), Khazar University, and the International Mugham Center (IMC), was attended by faculty and students of the institution.



Zülfiyyə Sadıqova

Professor Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, spoke and shared his thoughts on the phenomenon of Uzeyir Hajibeyli. He drew attention to interesting aspects of Uzeyir bey's multifaceted activity as a composer, educator, musicologist, education organizer, and public figure who left an indelible mark on the history of Azerbaijan's cultural and social thought.

(*To be continued p.14*)



ları diqqətə çatdırıb.

MEMİM-in direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru dosent Vüqar Hümbətov "Sənət inciləri" layihəsinin Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində ötən ildən təşkil olunduğunu bildirib. Vurğulayıb ki, layihə dahi bəstəkarın musiqi mədəniyyətimizin inkişafında əvəzolunmaz xidmətlərini və onun zəngin yaradıcılıq irsini xüsusilə gənc nəslə çatdırmağa töhfə vermək məqsədi daşıyır. V.Hümbətov yaradılan şəraitə görə, universitetin rəh-





bərliyinə minnətdarlıq edib.

Əməkdar mədəniyyət işçisi, MEMİM-in əməkdaşı Səadət Təhmirazqızının moderatorluğu ilə davam edən tədbirdə daha sonra sənətşünaslıq üzrə elmlər doktoru, professor İradə Köçərlinin "Üzeyir Hacıbəylinin yaradıcılığında xalq musiqisindən istifadə məsələləri" mövzusunda mühazirəsi dinlənilib.

Tədbirin bədii hissəsində BMM-in C.Cahangirov adına Xor kollektivi (bədii rəhbər: Əməkdar müəllim, Prezident mükafatçısı Təranə Yusifova), BMA, ADMİU və Xəzər Universiteti tələbələrinin birgə iştirakı ilə "Leyli və Məcnun" operasından səhnələr təqdim olunub. Operadan parçaları Xəzər







Təranə Yusifova *Nigar Məlikova*

Universitetinin Nailəxanım İsayeva adına Kamera orkestri (bədii rəhbər: Musiqi və incəsənət departamentinin müdiri, Əməkdar müəllim Zülfiyyə Sadıqova, dirijor: Hüseyn Kərimov) müşayiət edib. Həmin orkestr və Xor kollektinin ifasında "Koroğlu" operasından da musiqi nümunələri səsləndirilib. Əsərdən Xanəndə qız obrazını Xalq artisti Gülyaz Məmmədova təqdim edib. Hər iki operadan səhnələrdə Xəzər Universitetinin qızlardan ibarət rəqs qrupu (bədii rəhbər: Səbinə İsmayılova) da yer alıb.

Proqramda Üzeyir bəyin "Arşın mal alan" operettasından duet və ariyalar, bəstəkarın "Ey Vətən" mahnısı, həmçinin, Əməkdar artist Fəridə Məlikovanın rəhbərliyi ilə kamançaçalanlar ansamblının ifasında

(*Davamı 16-cı səh-də*)

Vugar Humbatov, PhD and Associate Professor of Art Studies and Director of SMATCC, noted that the "Gems of Art" project has been organized within the framework of the Uzeyir Hajibeyli International Music Festival since last year. He emphasized that the project aims to convey the great composer's invaluable contributions to the development of our musical culture and his rich creative heritage, particularly to the younger generation. Humbatov expressed gratitude to the university's leadership for the conditions created.

Moderated by Saadat Tahmirazgizi, Honored Culture Worker and SMATCC staff member, the event continued with a lecture by Irada Kocharli, Doctor of

(*To be continued p.16*)



operettadan fraqmentlər səsləndirilib.

Görkəmli bəstəkar Müslüm Maqomayevin "Nərgiz" operasından ariya və Emil Əfrasiyabın Ü.Hacıbəylinin əsərləri mövzusunda "Parafraz" kompozisiyası da tədbirə rəng qatıb.

Bədii proqram tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Tədbir məkanında Üzeyir Hacıbəylinin zəngin yaradıcılıq irsini əks etdirən nəşrlərdən ibarət guşə də təşkil olunub.



Sciences in Art Studies and Professor, titled "Issues of the Use of Folk Music in Uzeyir Hajibeyli's Works."

In the artistic part of the event, scenes from the opera "Leyli and Majnun" were presented with the joint participation of IMC's J. Jahangirov Choir (Artistic Director: Honored Teacher and President's Laureate Tarana Yusifova) and students of BMA, ASUCA, and Khazar University. Excerpts from the opera were accompanied by Khazar University's Nailakhanim Isayeva Chamber Orchestra (Artistic Director: Zulfiyya Sadigova, Honored Teacher and Head of the Department of Music and Arts; Conductor: Huseyn Karimov). The same orchestra and choir also performed musical excerpts from the opera "Koroghlu." People's Artist Gulyaz Mammadova performed the role of the Khanande girl from the work. A girls' dance group from Khazar University (Artistic Director: Sabina Ismayilova) also took part in scenes from both operas.

The program featured duets and arias from Uzeyir bey's operetta "Arshin Mal Alan" and the composer's song "Ey Veten," as well as excerpts from the operetta performed by an ensemble of kamancha players led by Honored Artist Farida Malikova.

An aria from renowned composer Muslim Magomayev's opera "Nargiz" and Emil Afrasiyab's composition "Paraphrase," based on the works of U. Hajibeyli, also added color to the event.

The artistic program was received with applause by the event's participants.

A corner featuring publications reflecting Uzeyir Hajibeyli's rich creative heritage was also organized at the event venue.

https://www.kalibri.az/viewhr.php?z=4&ids=433402814&lng=az_az&m=1&c=MzMz

XƏZƏR UNİVERSİTETİ "HEYDƏR ƏLİYEV ADINA BEYNƏLXALQ TƏHSİL QRANTI" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ ƏCNƏBİ TƏLƏBƏLƏRİ QƏBUL EDƏCƏK

Azərbaycan Respublikası Prezidentinin 8 iyul 2023-cü il tarixli Sərəncamına uyğun olaraq, Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən birgə icra edilən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının 2026-2027-ci tədris ili üzrə namizədlərin seçimi prosesi başa çatıb.

Bu proqrama əsasən, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələr, inkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələr və xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin vətəndaşlarının 5 il ərzində Azərbaycan Respublikasının ali təhsil müəssisələrində müxtəlif təhsil səviyyələri üzrə təhsil almaları nəzərdə tutulub.

Proqramın şərtlərinə əsasən, illik əsasda 100, ümumilikdə 500 nəfər xarici ölkə vətəndaşı üçün təhsil qrantının ayrılması nəzərdə tutulur.

2026–2027-ci tədris ilində "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramına layiq görülmüş əcnəbi tələbələrin bir qismi Xəzər Universitetində təhsil alacaq. Universitetimizin proqramda iştirakı beynəlxalq tələbə icmasının genişlənməsinə və müxtəlif ölkələrdən olan gənclərin ortaq akademik mühitdə bir araya gəlməsinə töhfə verəcək.

Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyinin birgə həyata keçirdiyi proqramın builki seçimində 64 ölkədən müraciətlər qiymətləndirilib, 55 ölkəni təmsil edən 100 namizəd təhsil qrantı qazanıb. Xəzər Universiteti həmin tələbələrin müxtəlif təhsil səviyyələri üzrə təhsil alacağı 11 ali təhsil müəssisəsindən biridir.

Proqram çərçivəsində universitetimizlə yanaşı, ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Bakı Mühəndislik Universiteti, Naxçıvan Dövlət Universiteti və Milli Aviasiya Akademiyası da əcnəbi tələbələri qəbul edəcək.

Bu əməkdaşlıq Xəzər Universitetinin beynəlmiləlləşmə məqsədləri ilə səsləşir. Fərqli mədəniyyətləri və təcrübələri təmsil edən tələbələrin universitet həyatına qoşulması akademik müzakirələri zənginləşdirəcək, tələbələr arasında qarşılıqlı öyrənmə və mədəniyyətlərarası dialoq üçün yeni imkanlar yaradacaq.

KHAZAR UNIVERSITY TO ADMIT FOREIGN STUDENTS UNDER THE "HEYDAR ALIYEV INTERNATIONAL EDUCATION GRANT" PROGRAM

The selection process of candidates for the 2026–2027 academic year under the "Heydar Aliyev International Education Grant" program, jointly implemented by the Ministry of Foreign Affairs and the Ministry of Science and Education in accordance with the Order of the President of the Republic of Azerbaijan dated July 8, 2023, has been completed.

Under this program, citizens of member states of the Organization of Islamic Cooperation and the Non-Aligned Movement, countries belonging to the group of developing Small Island States, and countries inhabited by peoples and national minorities with ethnic, historical, and cultural ties to our people are to study at various levels of education at higher education institutions of the Republic of Azerbaijan for a period of 5 years.

According to the terms of the program, education grants are to be allocated annually to 100 foreign citizens, 500 in total.

In the 2026–2027 academic year, some of the foreign students awarded the "Heydar Aliyev International Education Grant" will study at Khazar University. Our university's participation in the program will contribute to the expansion of the international student community and to bringing together young people from different countries in a shared academic environment.

In this year's selection under the program, jointly implemented by the Ministry of Foreign Affairs and the Ministry of Science and Education, applications from 64 countries were evaluated, and 100 candidates representing 55 countries won education grants. Khazar University is one of 11 higher education institutions where these students will study at various levels of education.

Alongside our university, ADA University, Azerbaijan State Oil and Industry University, Azerbaijan State University of Economics, Azerbaijan University of Architecture and Construction, Azerbaijan Technical University, Baku State University, Baku Higher Oil School, Baku Engineering University, Nakhchivan State University, and the National Aviation Academy will also admit foreign students under the program.

This cooperation resonates with Khazar University's internationalization goals. The inclusion of students representing different cultures and experiences in university life will enrich academic discussions and create new opportunities for mutual learning and intercultural dialogue among students.

"ADEX 2026" SƏRGİSİNDƏ TƏLƏBƏ MÜHƏNDİSLİK LAYİHƏLƏRİ
STUDENT ENGINEERING PROJECTSAT "ADEX 2026" EXHIBITION



Vasif Əhmədov, Səyavuş Quliyev, Lyudmila Sotova, Günel Bahəddinova, Muhəmməd Əlizadə, Raziyə İsayeva, Fəxrəndə Əfəndiyeva, Milana Abbasova, Nihat Məcidov, Tural Şaban

Xəzər Universiteti 6-cı Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində – "ADEX 2026"- da tələbələrin hazırladığı innovativ mühəndislik layihələri ilə iştirak edib. Sərgidə universitetin tələbələri tərəfindən hazırlanmış Robot Tank və Pilotsuz Uçuş Aparatı (UAV Drone) nümayiş etdirilib.

Sərgidə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, universitetin rektoru Dr. Raziyə İsayeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Milana Abbasova, Xəzər Universitetinin Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Fizika və elektronika departamentinin müəllimi, layihə rəhbəri və mentor Muhəmməd Əlizadə iştirak ediblər.

Layihələr Elektrik-elektronika mühəndisliyi ixtisasının IV kurs tələbələri Tural Şaban, Vasif

Khazar University took part in the 6th Azerbaijan International Defense Exhibition, "ADEX 2026," with innovative engineering projects developed by students. A Robot Tank and an Unmanned Aerial Vehicle (UAV Drone), both developed by the university's students, were showcased at the exhibition.

The exhibition was attended by Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees; Dr. Razia Isaeva, Rector of the university; Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Art and Technology; Fakhranda Afandiyeva, Dean of the Graduate School of Science and Engineering; Milana Abbasova, Dean of the Graduate School of Humanities, Education and Social Sciences; Lyudmila Sotova, Director of Khazar University's Quality Assurance Center; and Mohammad Alizade, lecturer at the Department of Physics and Electronics, project supervisor, and mentor.

Əhmədov və Elşən Cabbarov, Mexanika mühəndisliyi ixtisasının IV kurs tələbəsi Humeyra Əskərova və Kompüter elmləri ixtisasının II kurs tələbəsi Nihat Məcidov tərəfindən hazırlanıb.

Layihələrin hazırlanmasında tələbələrin elektronika, mexanika, proqramlaşdırma və robototexnika sahələrində əldə etdikləri nəzəri biliklərin praktiki tətbiqinə xüsusi diqqət yetirilib. Müxtəlif ixtisaslar üzrə tələbələrin birgə fəaliyyəti nəticəsində hazırlanmış sistemlər elektron və mexaniki komponentlərin inteqrasiyasını, uzaqdan idarəetməni, real zamanlı görüntü və məlumat ötürülməsini özündə birləşdirir.

Robot Tank uzaqdan idarə olunan pilotsuz yerüstü platforma kimi hazırlanıb. Platforma kəşfiyyat, müşahidə və müxtəlif dəstək məqsədləri üçün nəzərdə tutulub. İnteqrasiya edilmiş kamera sistemi real zamanlı görüntünün ötürülməsinə, modul konstruksiyası isə müxtəlif funksional avadanlıqların platformaya əlavə edilməsinə imkan verir.

Pilotsuz Uçuş Aparatı (UAV Drone) isə havadan müşahidə, monitorinq, axtarış və tədqiqat məqsədləri üçün hazırlanıb. Drone çətin və əlçatmaz ərazilərdən məlumatların toplanmasına imkan yaradır. Modul konstruksiyası müxtəlif kamera, sensor və digər texniki avadanlıqların sistemə inteqrasiyasını mümkün edir.

Layihələrin əsas üstünlükləri arasında uzaqdan idarəetmə, real zamanlı görüntü və məlumat ötürülməsi, çətin ərazilərdə istifadə imkanı, modul konstruksiya və çoxməqsədli tətbiq imkanları xüsusi qeyd olunur.

Robot Tank və UAV Drone layihələrinin "ADEX 2026" sərgisində nümayiş etdirilməsi Xəzər Universitetində tələbələrin real mühəndislik layihələri üzərində işləməsinə, müxtəlif ixtisaslar arasında əməkdaşlıq etməsinə və əldə etdikləri nəzəri bilikləri praktiki həllərə çevirməsinə yaradılan imkanların göstəricisidir.

Bu layihələr, eyni zamanda, Xəzər Universitetində robototexnika, elektronika, mexanika və kompüter texnologiyaları istiqamətlərində praktiki yönümlü təhsilin inkişafına, tələbələrin innovativ düşüncə və mühəndislik bacarıqlarının formalaşmasına, eləcə də müasir texnologiyalar sahəsində yeni həllərin hazırlanmasına töhfə verir.

The projects were developed by fourth-year Electrical and Electronics Engineering students Tural Shaban, Vasif Ahmadov, and Elshan Jabbarov, fourth-year Mechanical Engineering student Humayra Askarova, and second-year Computer Science student Nihat Majidov.

In developing the projects, special attention was paid to the practical application of the theoretical knowledge students had gained in electronics, mechanics, programming, and robotics. The systems, created through the joint efforts of students from different specializations, combine the integration of electronic and mechanical components, remote control, and real-time image and data transmission.

The Robot Tank was developed as a remotely controlled unmanned ground platform. The platform is intended for reconnaissance, observation, and various support purposes. Its integrated camera system enables real-time image transmission, while its modular design allows various functional equipment to be added to the platform.

The Unmanned Aerial Vehicle (UAV Drone) was developed for aerial observation, monitoring, search, and research purposes. The drone makes it possible to collect data from difficult and inaccessible areas. Its modular design allows various cameras, sensors, and other technical equipment to be integrated into the system.

Among the projects' key advantages, remote control, real-time image and data transmission, the ability to operate in difficult terrain, modular design, and multi-purpose application capabilities are particularly noted.

The presentation of the Robot Tank and UAV Drone projects at "ADEX 2026" is an indicator of the opportunities created at Khazar University for students to work on real engineering projects, collaborate across different specializations, and turn their theoretical knowledge into practical solutions.

These projects also contribute to the development of practice-oriented education in robotics, electronics, mechanics, and computer technologies at Khazar University, to the formation of students' innovative thinking and engineering skills, and to the development of new solutions in the field of modern technologies.

MƏDƏNİ DİPLOMATİYA, ŞƏXSİ NARRATİVLƏR VƏ SÜNİ İNTELLEKT MÖVZUSUNDA İKİGÜNLÜK SİMPOZİUM

TWO-DAY SYMPOSIUM ON CULTURAL DIPLOMACY, PERSONAL NARRATIVES, AND ARTIFICIAL INTELLIGENCE



Raziyə İsayeva



Xəzər Universiteti, Gazi Universiteti, On dokuz Mayıs Universiteti, Andijan Dövlət Xarici Dillər İnstitutu, Özbəkistan Dövlət Dillər Universiteti, Sahnin Müəllim Hazırlığı Kollecinin birgə əməkdaşlığı ilə 5-6 oktyabrda simpozium təşkil edilib. Simpoziumun əsas məqsədi mədəni diplomatiya, mədəniyyətlərarası dialoq və süni intellektin bu sahələrdə tətbiqi ilə bağlı fikir və təcrübə mübadiləsi aparmaq, eləcə də gələcək əməkdaşlıq imkanlarını müzakirə etmək olub.

Proqramın praktiki hissəsində iştirakçılar müxtəlif süni intellekt alətlərindən istifadə etməklə, şəxsi və mədəni narrativlərin araşdırılması, təhlili və

A symposium was organized on October 5-6, in cooperation between Khazar University, Gazi University, Ondokuz Mayıs University, Andijan State Institute of Foreign Languages, Uzbekistan State World Languages University, and Sahnin Teacher Training College. The main purpose of the symposium was to exchange ideas and experience on cultural diplomacy, intercultural dialogue, and the application of artificial intelligence in these fields, as well as to discuss opportunities for future cooperation.

In the practical part of the program, participants took part in sessions on exploring, analyzing, and



Gülnora Nasirova



Fadia Nasser Abu Alhija, Yaser Awad



Humay Hüseynova



Gulchehrahon Rahmanova



Günay Hacızadə

yeni formalarda təqdim edilməsi istiqamətində sessiyalar olub. NotebookLM, Gemini və Storybook kimi alətlərdən istifadə etməklə, iştirakçılar mədəni narrativlərə müxtəlif perspektivlərdən yanaşma, alternativ baxışların formalaşdırılması, mədəniyyətlərarası şərh və vizual hekayələrin hazırlanması imkanlarını araşdırıblar. Eyni zamanda, mədəni diplomatiya məqsədləri üçün fərdiləşdirilmiş süni intellekt köməkçisinin, eləcə də mədəniyyətlərarası dialoqu dəstəkləyən prompt və təlimatların hazırlanması üzrə praktiki təcrübə qazanıblar.

Proqram çərçivəsində müxtəlif ölkələrin nümayəndələri mədəni diplomatiya və süni intellekt mövzusunda təqdimatlar edərək, öz ölkələrinin təcrübələrini, yanaşmalarını və perspektivlərini bölüşüblər. Təqdimatlar iştirakçılar arasında fikir mübadiləsinin aparılmasına, müxtəlif ölkələrin təcrübələrinin müqayisə edilməsinə və gələcək əməkdaşlıq imkanlarının müzakirəsinə şərait yaradıb.

Proqramın üçüncü günündə qonaqlar üçün şəhər turu təşkil edilib.

Ümumilikdə, üçgünlük proqram iştirakçılara mədəni diplomatiya və süni intellektin kəsişməsində yeni yanaşmaları öyrənmək, müxtəlif mədəni perspektivləri paylaşmaq və beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirmək üçün əlverişli platforma yaradıb. Proqramın yekununda iştirakçılar əldə etdikləri təcrübələri və proqramın nəticələrini qiymətləndirərək, gələcək birgə təşəbbüslər və əməkdaşlıq istiqamətləri üzrə növbəti addımları müzakirə ediblər.

presenting personal and cultural narratives in new forms using various artificial intelligence tools. Using tools such as NotebookLM, Gemini, and Storybook, participants explored opportunities for approaching cultural narratives from different perspectives, forming alternative viewpoints, and creating intercultural interpretations and visual stories. At the same time, they gained practical experience in developing a personalized AI assistant for cultural diplomacy purposes, as well as prompts and guidelines that support intercultural dialogue.

As part of the program, representatives of various countries gave presentations on cultural diplomacy and artificial intelligence, sharing their countries' experiences, approaches, and perspectives. The presentations created conditions for an exchange of views among participants, a comparison of the experiences of different countries, and a discussion of future cooperation opportunities.

On the third day of the program, a city tour was organized for the guests.

Overall, the three-day program created a favorable platform for participants to learn new approaches at the intersection of cultural diplomacy and artificial intelligence, share diverse cultural perspectives, and expand opportunities for international cooperation. At the conclusion of the program, participants evaluated the experiences gained and the program's outcomes, and discussed the next steps for future joint initiatives and areas of cooperation.

UKRAYNANIN AZƏRBAYCANDAKI SƏFİRİNİN "XƏZƏR"İN TƏLƏBƏLƏRİ ÜÇÜN SEMİNARI

AMBASSADOR OF UKRAINE TO AZERBAIJAN HOLDS SEMINAR FOR KHAZAR UNIVERSITY STUDENTS



Volodımır Vıslınskı *Andriy Onışenko*

Ukraynanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Yuriy Husyev, siyasi məsələlər üzrə birinci katib Andriy Onışenko və ikinci katib Volodımır Vıslınskı oktyabrın 16-da Xəzər Universitetinə səfər ediblər.

Səfər çərçivəsində universitetin rektoru Dr. Raziyə İsayeva və rektorun Beynəlxalq əlaqələr üzrə müşaviri Zemfira Məmmədovanın iştirakı ilə görüş keçirilib.

Yuriy Husyev, Ambassador Extraordinary and Plenipotentiary of Ukraine to the Republic of Azerbaijan, Andriy Onyshchenko, First Secretary for Political Affairs, and Volodymyr Vyslynskyi, Second Secretary, visited Khazar University on October 16.

As part of the visit, a meeting was held with the participation of Dr. Razia Isaeva, Rector of Khazar University, and Zemfira Mammadova, Adviser to the Rector for International Relations.

Following the meeting, Ambassador Yuriy





Zemfira Məmmədova, Raziyə İsayeva

Görüşdən sonra səfir Yuriy Husyev universitetin tələbələrinə Ukrayna-Azərbaycan münasibətlərinə həsr olunmuş seminar keçib. Seminarda Ukraynanın tarixi, siyasi və iqtisadi inkişafı, Azərbaycanla ikitərəfli münasibətləri, eləcə də, iki ölkə arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri barədə məlumat verilib.

Husyev held a seminar for the university's students on Ukraine–Azerbaijan relations. The seminar provided information on Ukraine's history, political and economic development, bilateral relations with Azerbaijan, and the current state and prospects of cooperation between the two countries.



Yuriy Husyev



Tədbir çərçivəsində Ukraynanın xarici siyasətinin əsas istiqamətləri və ölkənin beynəlxalq münasibətlər sistemindəki rolu da diqqətə çatdırılıb, tələbələri maraqlandıran suallar cavablandırılıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda səfirə Xəzər Universitetinin tələbəsinin hazırladığı əl işi təqdim edilib.

The event also highlighted the key priorities of Ukraine's foreign policy and the country's role in the international relations system. The ambassador answered students' questions, and participants exchanged views on the topics discussed.

At the end of the meeting, the ambassador was presented with a handmade item created by a Khazar University student.



80 YAŞLI ÇEMPİON

Sizə 80 yaşlı çempiondan danışmaq istəyirəm. Dostlarının, həmkarlarının, tələbələrinin sevimlisi 80 yaşlı İsmixan Yusubovdan. Onunla cəmi üç dəfə söhbətimiz oldu. Yazacağı növbəti kitab üçün material axtarışında idi. Çox böyük köməyim dəyməsə də, mənə canı - dildən təşəkkür etdi. Hər gəlişində onun qıvraq hərəkətlərini, pillələri asanlıqla düşüb-çıxmasını görəndə yaşının 80 olduğuna heç cür inanmağım gəlmirdi. Zarafatla ondan "Deyəsən, cavanlıqda çempion olmusunuz",- deyə soruşmuşdum. Demə, zənnim bu dəfə də məni aldatmayıbmış.

Bazar günü İsmixan müəllim əlində nəfis tərtibatlı, cildində dəniz mənzərəsi fonunda özünün şəkli olan kitabla yanıma gəldi. Mənə 80 illik yubileyinə həsr olunmuş "Yada düşən adam" kitabını hədiyyə edəndə çox sevindim. Kitab onsuz da mənə maraqlı olan bu gözəl insanı daha da yaxından tanımağıma səbəb oldu. Elə buna görə də kitabın ərsəyə gəlməsində böyük zəhməti olan Soltan Həmid Hilal oğlu Melikova və onun Londonda yaşayan qızı Mahirə xanıma təşəkkürümü bildirmək istəyirəm.

Kitabı vərəqlədikcə ürəyi dünyalar boyda olan bir insanın zəngin dünyasına daxil oldum.

İsmixan müəllimin elm və poeziya ilə keçən 80 illik mənalı ömrü bir kitaba sığışa bilməsə də, həyatının uşaqlıq və gənclik illərindən tutmuş bugünkü günədək yaşadıqları müəyyən qədər öz əksini tapa bilmişdir.

İsmixan Yusubov 1945-ci il sentyabrın 11-də Azərbaycanın Ağstafa rayonunun Poylu kəndində anadan olub. Bunu mənə deyəndə həmyerlisi rəhmətlik Nəriman Həsənzadənin "Nabat xalanın çörəyi" əsərini xatırladım. O da öz növbəsində gülümsünərək "Mən o Nabat xalanı görmüşdüm'",- dedi. Yeri gəlmişkən, İsmixan Yusubovun "Mənim Poylu kəndim" adlı kitabında bu kənd və onun işgüzar adamları haqqında maraqlı məlumatlar və şirin xatirələr toplanıb.

İsmixan Yusubov kimləri görməyib ki, kimlərlə dostluq etməyib ki?! Sanki bütün Azərbaycan bu adamın dostudur. Təkcə Azərbaycanda yox, qardaş Türkiyədə də, digər xarici ölkələrdə də onu tanıyıb sevənlər çoxdur. Kitabı vərəqlədikcə bunun şahidi oluram. Xəzər Universitetinin təsisçisi Prof.Akad. Hamlet İsaxanlıdan tutmuş, adi tələbələrədək onun haqqında yazdıqlarını (yazılanları) fərəh hissi ilə oxuyuram. Məni ən çox mütəəssir edən əhvalat onun yağışlı havada tələbələrini çətirsiz gördüyü zaman öz çətirini bağışlaması oldu. Bir insan nə qədər həssas, nə qədər böyük ürəyə malik olmalıdır ki, belə bir hərəkət etsin. Bəlkə də elə buna görədir ki, İsmixan müəllimi hamı sevir. Çünki həyatda hər şey qarşılıqlıdır. İsmixan müəllim insanları sevir, riyaziyyatı, poeziyanı, idmanı sevir və bu sevginin qarşılığında Allah da onu mükafatsız qoymayıb. Onun gözəl ailəsi, geniş çevrəsi var. Cəmiyyətə özü kimi elm adamı olan, adına layiq iki oğul bəxş edib. Ən əsası, Allah bu insana renessans dövrünün adamları kimi hərtərəfli

istedad verib. Ötən il nəşr olunmuş və təəssüf ki, kitabxanamızın arxivində cəmi bircə nüsxə olan "Ömrümə nur çiləyənlər" kitabını oxuduqdan sonra İsmixan müəllimi daha yaxından tanıdım. Alimin kitablara olan sevgisi bu kitaba vərəq-vərəq hopub, desəm, yəqin ki, mübaliğə olmaz. Kitab müəllifin beş yaşı olanda onun əlindən tutub özü ilə Poylu kənd kitabxanasına aparan rəhmətlik atası Məhəmməd Abdulla oğlu Allahverənlinin əziz xatirəsinə həsr olunub.

Ailə sarıdan, necə deyərlər, İsmixan müəllimin bəxti gətirib. Ailənin üçüncü oğlu olaraq onun oxumasına xüsusi diqqət ayrılıb. Bu diqqət onun taleyində böyük rol oynayıb. Özünün yazdığı kimi, ilk oxuduğu kitab M.S.Ordubadinin "Qılınc və qələm" əsəri olub. Elə çox kitab oxuduğu üçün sinif yoldaşları ona "Lenin" ləqəbi veriblər. Kitabda onun uşaq yaşlarından ahıl vaxtlarınadək oxuduğu kitablar haqqında geniş məlumat verilib. Mənə elə gəlir ki, əgər riyaziyyat elmini seçməsəydi, İsmixan müəllim həm də gözəl ədəbiyyat tənqidçisi kimi tanınardı. Onun oxuduğu kitabları şirin, sadə dildə təhlil etməsi bunu deməyə əsas verir. Ən maraqlısı isə, müəllifin bu kitabları indiyənədək göz bəbəyi kimi qorumasıdır. Onun həm Bakıdakı, həm də doğma Poylu kəndindəki evində zəngin kitabxanası var.

Vaxtilə M.F.Axundov adına kitabxananın (indiki Milli Kitabxana) biblioqrafiya şöbəsində işləmiş, sonradan universitetdə kitabxanaçılıq ixtisasından dərs deyən rəhmətlik dosent Elman Bədəlov tələbəlik illərində İsmixan müəllimə çox yaxşılıq edib, onu lazım olan kitablarla yetərli şəkildə təmin edib. Bu sözləri İsmixan müəllimdən eşitmək mənə ikiqat xoş oldu. Həm vaxtilə bizə dərs demiş Elman müəllimə, həm də kitaba və kitabxana işçilərinə verdiyi dəyərə görə ona minnətdarlığımı bildirdim.

Ötən əsrin 90-cı illərində bir çox ziyalımız- orta məktəbdə ədəbiyyat dərnəyimizin rəhbəri olmuş gözəl şairimiz Məmməd İsmayıl, universitetdə müəllimimiz olmuş Kamil Vəli Nərimanoğlu kimi (Allah hər ikisinə rəhmət eləsin!) İsmixan Yusubov da qonşu Türkiyəyə köçüb. Qardaş ölkənin universitetlərində bir əfsanə kimi şöhrət qazanıb, dərslikləri nəşr olunub. Amma həssas ürəyi qürbətə alışa bilməyib, onu yenidən doğma Azərbaycana qaytarıb. Nə yaxşı ki qayıdıb və azərbaycanlı tələbələri də ondan bəhrələnə biliblər. İsmixan müəllim onlara təkcə riyaziyyatı tədris etməyib, tələbələr ondan həyatı, həyatın sınaqlarından mərdliklə çıxmağı, humanizmi öyrəniblər. Bunları mənə ərmağan etdiyi "Yada düşən adam" kitabında tələbələrinin öz müəllimləri haqqında səmimi fikirlərinə əsaslanıb yazıram.

Etiraf edim ki, müəllifin ad günləri ilə bağlı gündəliyində olan yazıların kitaba daxil olunması da mənə çox maraqlı gəldi.

Ümumilikdə, "Füyuzat" nəşriyyatında işıq üzü görən "Yada düşən adam" kitabı mənə çox böyük təsir etdi. Nə yaxşı ki Azərbaycanımızın belə gözəl insanları var. Nə yaxşı ki mən İsmixan müəllimi tanıdım və nə xoş ki kitabını mənə bağışladı.

İsmixan Yusubov bizim dəyərimizdir və bu dəyərə dəyər vermək bizim borcumuzdur. Cəmiyyətimizdə onun kimi insanlara ehtiyac çoxdur. Məsələ təkcə alimlikdə deyil, onun şəxsiyyəti və ətrafına öz ziyasını saçması məni bu yazını yazmağa həvəsləndirdi.

Bir də onu demək istərdim ki, İsmixan Yusubov əslində yada düşən adam yox, heç vaxt yaddan çıxmayan adamdır. Var olun, İsmixan müəllim! Həmişə isminizə uyğun xan vüqarlı, xan yerişli olasınız. Gəncliyində dəfələrlə çempion olmuş bir insan üçün 80 yaş nədir ki? Ruhunuz da, canınız da həmişə sağlam və gümrah olsun! İnşallah, yeni yubiley yaşlarınızı da bu cür sağlam və enerji dolu qeyd edəsiniz.

80 illik zəngin ömür yolunuz da oxuduğunuz və yazdığınız kitablar kimi çox maraqlı və mənalıdır.

Tərlanə Yaqubqızı

https://www.kalibri.az/viewhr.php?z=4&ids=433414085&lng=az_az&m=1&c=MzMz



NOBEL MÜKAFATI LAUREATLARI - 2026



FİZİOLOGİYA VƏ TİBB ÜZRƏ







Karl Deisseroth *Peter Hegemann* *Georg Nagel*

Bu üç alim "İşıqla aktivləşən ion kanalları və optogenetika ilə bağlı kəşflərə görə" bu mükafata layiq görülüblər.

Karl Deisseroth 1971-ci ildə ABŞ-da anadan olub. Stenford Universitetinin professorudur. Optogenetikanın inkişafında rol oynamış nüfuzlu alimlərdən sayılır.

Karl Deisseroth beyin hüceyrələrinin fəaliyyətini işıq vasitəsilə idarə etməyə imkan verən optogenetika metodunun inkişafında əsas alimlərdən biridir. Görkəmli alimin tədqiqatları depressiya, autizm və digər psixi-nevroloji pozuntuların beyindəki mexanizmlərini daha yaxşı anlamağa kömək edib.

Peter Hegemann 1954-cü ildə Almaniyada anadan olub. Görkəmli biofizik işığa həssas ion kanallarının, xüsusən də kanalrodopsinin kəşfinə mühüm töhfə verib.

Berlin Humboldt Universitetinin professorunun araşdırmaları optogenetikanın əsas elmi təməllərinin formalaşmasında əhəmiyyətli rol oynayıb.

Georg Nagel 1953-cü ildə Almaniyada anadan olub. Tanınmış biofizik Vürtsburq Universitetinin professorudur. Peter Hegemann`la birlikdə kanalrodopsinlərin xüsusiyyətlərini araşdıraraq, onların işıqla idarə olunan ion kanalları olduğunu göstərib. Bu kəşf sinir hüceyrələrinin işıq vasitəsilə idarə edilməsinə əsaslanan optogenetika texnologiyasının inkişafında xüsusi əhəmiyyətə malikdir.

FİZİKA ÜZRƏ



Frensis Halzen


Frensis Halzen "Neytrino rəsədxanası IceCube`un işinə həlledici töhfəsinə və astrofizika mənşəli yüksək enerjili neytrinoların kəşfinə görə" bu mükafata layiq görülüb.

1944-cü ilin martında Belçikada anadan olan Frensis Halzen 1966-cı ildə bu ölkənin Löven Universitetini bitirib. 1972 - ci ildən ABŞ-nin Viskonsin-Madison Universitetində professor kimi çalışır və IceCube Neytrino Rəsədxanasının baş tədqiqatçısıdır.

Halzen Antarktidada yerləşən və dünyanın ən böyük neytrino detektoru hesab edilən "IceCube Neutrino Observatory" layihəsinin əsas müəllifidir. Onun rəhbərliyi ilə IceCube 2013-cü ildə qalaktikadankənar mənbələrdən gələn yüksək enerjili astrofiziki neytrinoların aşkarlanmasına nail olunub.

Alim astrohissəcik fizikası sahəsindəki töhfələrinə görə Balzan, Bruno Pontecorvo və 2026 - cı ildə Amerika Fizika Cəmiyyətinin "Exceptional Achievement in Research" medalı daxil olmaqla, bir sıra nüfuzlu mükafatlara layiq görülüb.

KİMYA ÜZRƏ





Henry Boris Kaqan *Kenso Soai*

Asimmetrik üzvi sintezdə qeyri-xətti effektlərin və avtokatalizin kəşfinə görə **Henri Boris Kaqan** 1930-cu ildə Fransada anadan olub. Paris-Sud Universitetinin fəxri professorudur. Asimmetrik kataliz sahəsinin qabaqcıllarından biri hesab edilir və tədqiqatları əczaçılıq sənayesinin inkişafına mühüm təsir göstərib. Kaqan 1986 - cı ildə asimmetrik katalizdə qeyri-xətti effektlərin ilk nümunələrini aşkar edib və bu prosesləri izah edən riyazi modellər hazırlayıb.

Kenso Soai 1950-ci ildə anadan olub. Tokio Elm Universitetində fəaliyyət göstərib. Asimmetrik və enantioselektiv sintez, asimmetrik avtokataliz və xirallığın mənşəyi üzrə tədqiqatları ilə tanınır. Alimin adını daşıyan Soai reaksiyası asimmetrik avtokatalizin ən məşhur nümunələrindən biridir.

Yapon üzvi kimyaçı potensial güzgü görüntülərindən yalnız birinin əmələ gəldiyi ilk kimyəvi reaksiyanı hazırlayıb. Soai reaksiyası indiyə qədər aparılan ən möhtəşəm kimyəvi təcrübələrdən biridir.

"Henri Kaqan və Kenso Soai bir əsrdən çox yaşı olan kimyəvi bir sirrə həll yolu təqdim etdilər: homoxirallığın necə kortəbii şəkildə ortaya çıxa biləcəyi. Onların inkişaf etdirdiyi kimyəvi reaksiyalar möhtəşəmdir", - deyə Kimya üzrə Nobel Komitəsinin sədri Heiner Linke bildirib.

ƏDƏBİYYAT ÜZRƏ



Anne Carson

Anne Carson bu mükafata klassik ənənə ilə oynaq dialoqu uyğunlaşdıraraq, müasir ədəbiyyat üçün yeni formalar yaradan cəsarətli və yenilikçi yaradıcılığına görə layiq görülüb.

Kanadalı şair, yazıçı, esseist və tərcüməçi Anne Carson 1950-ci il iyunun 21-də Toronto şəhərində anadan olub. O, həmçinin, antik ədəbiyyat tədqiqatçısı və universitet professorudur. Toronto Universitetində təhsil alan Carson 1981-ci ildə doktorluq dərəcəsi qazanıb. ABŞ və Kanadanın nüfuzlu universitetlərində, o cümlədən Prinston, Nyu-York və Miçiqan universitetlərində dərs deyib. Yaradıcılığında qədim yunan mifologiyasını müasir ədəbiyyatla birləşdirərək, poeziya, nəsr və esse janrlarını özünəməxsus şəkildə sintez edir.

SÜLH ÜZRƏ

Beynəlxalq hüququn möhkəmləndirilməsi və sülhə dəstək üzrə səylərinə görə

Cənubi Afrika Respublikasından (CAR) olan hüquqşünas və insan hüquqları müdafiəçisi **Navanethem Pillay** 1941-ci il sentyabrın 23- də Cənubi Afrika Respublikasının Durban şəhərində hind əsilli ailədə anadan olub. Natal Universitetində (indiki KwaZulu-Natal Universiteti) hüquq təhsili alıb, sonra Harvard Universitetində hüquq üzrə magistr və doktorluq dərəcələrini müdafiə edib.




Navanethem "Navi" Pillay

Pillay irqçi rejimdə böyüyüb. O, JAR Ali Məhkəməsinin ilk "ağdərili olmayan" qadın hakimi olub və Nelson Mandela da daxil olmaqla, siyasi məhbusların hüquqlarının müdafiəçisi kimi tanınıb. Ruanda üzrə Beynəlxalq Cinayət Tribunalının hakimi kimi fəaliyyət göstərərkən, o, kütləvi zorakılıq və təcavüzün soyqırımı aləti kimi tanınmasına nail olub.

"Navi" Pillay 2008-2014-cü illərdə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı vəzifəsində iki müddət fəaliyyət göstərən yeganə şəxsdir.

Qeyd edək ki, 2026-cı ildə Nobel İnstitutu sülh mükafatı üçün 287 namizəd qeydiyyata alıb ki, onlardan 208 nəfəri ayrı-ayrı şəxslər, 79-u isə təşkilatlardır.

İQTİSADİYYAT ÜZRƏ





Robert E.Hall *Michael Woodford*

"Makroiqtisadi sabitləşmənin mikroiqtisadi əsasları"na görə

Robert E.Hall 1943-cü ildə ABŞ-nin Kaliforniya ştatının Palo Alto şəhərində anadan olub. 1967-ci ildə ABŞ-nin Kembric şəhərindəki Massaçusets Texnologiya İnstitutunda doktorluq dərəcəsi alıb. ABŞ-nin Kaliforniya ştatının Stanford Universitetinin professorudur.

Michael Woodford 1955-ci ildə ABŞ-nin Massaçusets ştatının Çikopi şəhərində anadan olub. 1983-cü ildə ABŞ-nin Kembric şəhərindəki Massaçusets Texnologiya İnstitutundan doktorluq dərəcəsi alıb. ABŞ-nin Nyu-York şəhərindəki Kolumbiya Universitetinin professorudur.

Hall və Woodford`un tədqiqatları hökumətlərin və mərkəzi bankların sabitləşdirmə siyasətini həyata keçirmək qabiliyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıran yeni makroiqtisadi modellərin hazırlanmasına gətirib çıxarıb.

Onların tədqiqatlarının nəticəsi olan yeni Keyns modelləri, sabitləşdirmə siyasətinin biznes dövrlərinə necə təsir etdiyini izah etməyə və ölçməyə imkan verir . Hazırda dünyanın hər yerində mərkəzi banklar və maliyyə nazirlikləri tərəfindən istifadə olunur.

Qeyd edək ki, digər elm sahələrindən fərqli olaraq, iqtisadiyyat üzrə Nobel mükafatı Alfred Nobelin vəsiyyətində yer almayıb. Bu mükafat İsveç bankının 300 illiyi münasibətilə həmin bank tərəfindən təsis olunub və ilk dəfə 1969-cu ildə verilib.

2026-cı ildə Nobel mükafatının təsis edilməsinin 125 ili tamam olur. 1901-2025-ci illər ərzində mükafatlar 633 dəfə 1026 nəfər və təşkilata təqdim edilib. Yubiley ili ilə əlaqədar Nobel Fondu 2026-cı ildə Nobel mükafatının məbləğinin hər mükafat kateqoriyası üçün artırılmasına qərar verib. Builki Nobel mükafatı laureatları hər bir sahə üzrə 12 milyon kron (1,21 milyon dollar) alacaqlar ki, bu da 2025-ci ildəki 11 milyon krondan çoxdur.

Xatırladaq ki, mükafatın təqdimat mərasimi dekabrın 10 - da İsveçin və Norveçin paytaxtlarında Alfred Nobelin vəfatı günündə keçiriləcək.

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI EIFL`İN AZƏRBAYCANDAN AÇIQ GİRİŞ (OPEN ACCESS) KOORDİNATORU KİMİ FƏALİYYƏT GÖSTƏRƏCƏK



Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin direktoru Aytac Misgərli Azərbaycan Kitabxana-İnformasiya Konsorsiumu (AzLIC) tərəfindən EIFL (Electronic Information for Libraries) üzrə Açıq Giriş (Open Access) koordinatoru vəzifəsinə namizəd göstərilib.

Aytac Misgərli artıq EIFL-in rəsmi internet səhifəsində Azərbaycandan Açıq Giriş (Open Access) koordinatoru kimi yer alır. (https://www.eifl.net/country/azerbaijan)

EIFL kitabxanaların və informasiya xidmətlərinin inkişafını, elm və təhsil resurslarına çıxışın genişləndirilməsini, həmçinin, açıq giriş və açıq elm təşəbbüslərinin inkişafını dəstəkləyən beynəlxalq qeyri-kommersiya təşkilatıdır. Təşkilat müxtəlif ölkələrdə kitabxanalar, informasiya mütəxəssisləri və digər tərəfdaşlarla əməkdaşlıq edərək, bilik və informasiya resurslarına çıxışın genişləndirilməsinə töhfə verir.

EIFL-in Açıq Giriş koordinatorları şəbəkəsi müxtəlif ölkələrdə açıq giriş və açıq elm sahəsində fəaliyyət göstərən mütəxəssisləri bir araya gətirərək, beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi və açıq elm təşəbbüslərinin inkişafına imkan yaradır.

Yeni fəaliyyət çərçivəsində Aytac Misgərli Azərbaycanda açıq giriş və açıq elm təşəbbüslərinin təşviqi, elmi informasiyaya çıxış imkanlarının genişləndirilməsi, tədqiqat nəticələrinin daha geniş auditoriyaya çatdırılması və beynəlxalq təcrübənin paylaşılması istiqamətində fəaliyyət göstərəcək.

KHAZAR UNIVERSITY STAFF MEMBER TO SERVE AS EIFL'S OPEN ACCESS COORDINATOR FOR AZERBAIJAN

Aytaj Misgarli, Director of Khazar University's Library and Information Center, has been nominated by the Azerbaijan Library and Information Consortium (AzLIC) for the position of Open Access Coordinator for EIFL (Electronic Information for Libraries).

Aytaj Misgarli is already listed on EIFL's official website as the Open Access Coordinator for Azerbaijan. (https://www.eifl.net/country/azerbaijan)

EIFL is an international non-profit organization that supports the development of libraries and information services, the expansion of access to scientific and educational resources, and the advancement of open access and open science initiatives. The organization contributes to expanding access to knowledge and information resources by cooperating with libraries, information specialists, and other partners in various countries.

EIFL's network of Open Access Coordinators brings together specialists working in the field of open access and open science in various countries, enabling international cooperation, the exchange of experience, and the development of open science initiatives.

In her new role, Aytaj Misgarli will work on promoting open access and open science initiatives in Azerbaijan, expanding access to scientific information, bringing research results to a wider audience, and sharing international experience.

DEPARTAMENT RƏHBƏRİ "YÜKSƏK EHTİRAM" BEYNƏLXALQ MÜKAFATINA LAYİQ GÖRÜLÜB





Raziyə İsayeva

Xəzər Universitetində sentyabrın 8 - də D-r Elvin Əhmədova "Yüksək ehtiram" beynəlxalq mükafatının təqdimedilmə mərasimi keçirilib. D-r Elvin Əhmədov uzun illərdir neft-qaz sənayesi, elm və təhsil sahələrində səmərəli fəaliyyət göstərən, elmi-pedaqoji fəaliyyəti ilə gənc mütəxəssislərin yetişməsinə töhfə verən alim və mütəxəssislərdəndir. Hazırda Xəzər Universitetində departament müdiri kimi, eyni zamanda, SOCAR-da Yataqların qiymətləndirilməsi və karbohidrogen ehtiyatlarının idarə olunması istiqamətində rəhbər vəzifədə fəaliyyət göstərir. Onun tələbələr və gənc tədqiqatçılarla işi də bu fəaliyyətin mühüm is-

HEAD OF DEPARTMENT HONORED WITH INTERNATIONAL "HIGH RESPECT" AWARD

On September 8, the presentation ceremony for Dr. Elvin Ahmadov's "High Esteem" international award was held at Khazar University. Dr. Elvin Ahmadov is among the scholars and specialists who have worked effectively in the oil and gas industry, science, and education for many years, contributing to the training of young specialists through his scientific and pedagogical activities. He currently serves as Head of Department at Khazar University while also holding a leading position at SOCAR in the field of reservoir evaluation and hydrocarbon reserves management. His work with students and young researchers is also one of the important directions of this activity. His scientific work



Gültər Nəsibova



Rasim Vəliyev



Elvin Əhmədov, Sona İsmayılova



Arzu Cavadova

tiqamətlərindəndir. Elmi fəaliyyəti yalnız elmi məqalələrlə məhdudlaşmır. O, tələbələrin, gənc tədqiqatçıların elmi fəaliyyətə cəlb olunmasına, beynəlxalq konfranslarda iştirakına və onların peşəkar inkişafına dəstək verən layihələrdə də fəal iştirak edib.

Tədbirdə Xəzər Universitetinin rektoru D-r Raziyə İsayeva, SOCAR-ın vitse-prezidenti D-r Arzu Cavadova, SOCAR-ın Departament rəisi D -r Nazim Vəliyev, şöbə rəisi Rasim Vəliyev, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti Gültər Nəsibova, eləcə də universitet və SOCAR-ın nümayəndələri Elvin Əhmədovun elmi və peşəkar fəaliyyəti barədə önəmli fikirlər söyləyib və öz səmimi təbriklərini bildiriblər.

is not limited to academic articles alone. He has also actively taken part in projects supporting the engagement of students and young researchers in scientific activity, their participation in international conferences, and their professional development.

At the event, Dr. Razia Isaeva, Rector of Khazar University; Dr. Arzu Javadova, Vice-President of SOCAR; Dr. Nazim Valiyev, Head of Department at SOCAR; Rasim Valiyev, Head of Division; Gultar Nasibova, Associate Professor at Azerbaijan State Oil and Industry University; as well as numerous representatives of the university and SOCAR, spoke about Elvin Ahmadov's scientific and professional activities and offered their sincere congratulations.



DOKTORANTLARIN DEPARTAMENTDAXİLİ MÜDAFİƏSİ VƏ YENİ TƏDRİS İLİ İLƏ BAĞLI İCLAS



Rahil Dadaşlı

Sentyabrın 11-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin iclası keçirilib. İclasda əvvəlcə departamentin doktorantları Rahil Dadaşlı və Burcu Temurun departamentdaxili müdafiəsi olub. Doktorantlar tədqiqat işlərini təqdim edib, təqdimatlardan sonra departamentin professor-müəllim heyəti tərəfindən araşdırmalarla bağlı rəy və təkliflər səsləndirilib, elmi işlərin təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.



İclasın davamında Siyasi elmlər və fəlsəfə departamentinin müdiri dos. Orxan Vəliyev departamentin fəaliyyəti ilə bağlı hesabatla çıxış edib. Çıxış zamanı departament tərəfindən görülən işlər, həyata keçirilən akademik və elmi fəaliyyətlər, əldə olunan nəticələr, eləcə də qarşıdakı dövr üçün nəzərdə tutulan fəaliyyət istiqamətləri barədə məlumat verilib.

Sonra yeni tədris ili ilə bağlı məsələlər müzakirə olunub. Tədris prosesinin təşkili, yeni tədris ili üzrə əsas prioritetlər və departamentin qarşısında duran vəzifələr ətrafında fikir mübadiləsi aparılıb.

İclas qarşılıqlı müzakirə və fikir mübadiləsi şəraitində yekunlaşıb.

MEETING ON DEPARTMENTAL DEFENSE OF DOCTORAL CANDIDATES AND NEW ACADEMIC YEAR



Burcu Temur

On September 11, a meeting of the Department of Political Science and Philosophy at Khazar University was held. The meeting began with the departmental defense presentations of doctoral candidates Rahil Dadashli and Burcu Temur.

The doctoral candidates presented their research, following which members of the department's academic staff shared their comments and suggestions regarding the studies. An exchange of views was held on ways to further develop and improve the doctoral research.



During the second part of the meeting, Associate Professor Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy, delivered a report on the department's activities. He provided information on the work carried out by the department, its academic and research activities, achievements, as well as planned areas of activity for the upcoming period. The meeting continued with discussions on the new academic year. Participants exchanged views on the organization of the teaching process, key priorities for the new academic year, and the responsibilities and tasks facing the department.

The meeting concluded with a constructive exchange of views and discussions among the participants.

CORC ORUELLİN ESSELƏRİ İLK DƏFƏ AZƏRBAYCAN DİLİNDƏ

İngilis ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı və publisist Corc Oruellin esselərinin bir qismi, xüsusilə müharibə mövzusunda yazdığı esselər ilk dəfə Azərbaycan dilində oxuculara təqdim edilib.

Nəşrin tərcüməçisi Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Xanım Cəfərli, elmi redaktoru isə universitetin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Yeqzar Cəfərlidir.

Kitab "VIPpoligraf" poliqrafiya müəssisəsində çap olunub.

GEORGE ORWELL'S ESSAYS FOR THE FIRST TIME IN AZERBAIJANI

A selection of essays by George Orwell, the renowned English writer and essayist — particularly his essays on the subject of war — has been presented to readers in Azerbaijani for the first time.

The translator of the publication is Khanim Jafarli, lecturer at Khazar University's Department of English Language and Literature, and the scientific editor is Yegzar Jafarli, PhD in Philology and lecturer at the university's Department of Languages and Literatures.

The book was printed at the "VIPpoligraf" printing house.



Corc Oruellin esseləri onun bədii yaradıcılığı ilə yanaşı, ictimai-siyasi baxışlarını, dövrün mühüm hadisələrinə münasibətini və ədəbiyyat haqqında düşüncələrini anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır.

Nəşrin Azərbaycan dilində oxuculara ilk dəfə təqdim olunması Oruellin publisistik irsinin ölkəmizdə daha geniş tanınmasına və dünya ədəbiyyatının mühüm nümunələrinin ana dilimizə qazandırılmasına töhfədir.

George Orwell's essays, alongside his literary work, hold special significance for understanding his socio-political views, his attitude toward the important events of his time, and his thoughts on literature.

The first-time presentation of the publication to readers in Azerbaijani is a contribution to the wider recognition of Orwell's essayistic legacy in our country and to bringing important examples of world literature into our native language.



DEKAN: BAYTARLIQ SAHƏSİNDƏ ƏSAS PROBLEM KADR ÇATIŞMAZLIĞIDIR

Azərbaycanda müasir baytarlıq təbabəti üzrə peşəkar kadr hazırlığı və heyvan sağlamlığının qorunması istiqamətində yeni təhsil modelləri tətbiq olunur. Xəzər Universitetinin Türkiyənin Hasvet şirkəti ilə əməkdaşlığı əsasında yaradılmış Hasvet Baytarlıq təbabəti fakültəsi də bu istiqamətdə fəaliyyət göstərir. Fakültənin dekanı Çiçək Əliyeva *AZƏRTAC* -a müsahibəsində baytar həkimlərin zoonoz xəstəliklərin qarşısının alınmasında rolu və bu sahədə kadr hazırlığı məsələləri ilə bağlı məlumat verib. Müsahibəni təqdim edirik.

- Fakültənin yaradılmasında əsas məqsəd və onun digər baytarlıq fakültələrindən fərqi nədir?

- Hasvet Baytarlıq təbabəti fakültəsi otən il Xəzər Universiteti ilə Türkiyənin Hasvet şirkəti arasında imzalanmış müqavilə əsasında təsis edilib. Kampusumuz geniş auditoriyalara, müasir laboratoriyalara və klinik imkanlara malikdir. Bu fakültənin yaradılması ölkəmizdə müasir baytarlıq təbabəti təhsilinin inkişaf etdirilməsinə, eyni zamanda, dövlətimizin kənd təsərrüfatına, heyvandarlığa və ərzaq təhlükəsizliyinə yönəlmiş siyasətinə dəstək baxımından mühüm addımlardan biridir və akademik töhfə kimi qiymətləndirilməlidir.

Hasvet Baytarlıq təbabəti fakültəsinin digər fakültələrdən fərqi ondadır ki, bu qurum Azərbaycanda ilk olaraq akademik fəaliyyət göstərən bir təhsil müəssisəsi ilə sənaye sahəsində praktiki biliklərə malik böyük bir şirkətin işbirliyi nəticəsində formalaşıb. Eyni zamanda, Azərbaycan-Türkiyə qardaşlığının bariz nümunəsi kimi yaradılmış yeni tədris modelinin və təhsil proqramının inteqrasiyasını təcəssüm etdirir. Fakültəmizi fərqləndirən əsas amil akademiya ilə sənaye inteqrasiyasını özündə birləşdirən müasir təhsil modelinin tətbiqidir.

- Son illərdə heyvan xəstəliklərinin, xüsusilə zoonoz xəstəliklərinin qarşısının alınmasında baytar həkimlərin rolu necə dəyişib?

- Günümüzdə baytar həkimlərin cəmiyyətdəki məsuliyyəti və funksiyaları daha da artıb. Buna təsir edən əsas amillərdən biri Ümumdünya Səhiyyə Təşkilatının yayımladığı son statistik məlumatlardır. Hazırda insanlar arasında yayılan xəstəliklərin 65 faizindən çoxu məhz zoonoz xəstəliklərin payına düşür.

Zoonoz xəstəliklər heyvanlardan heyvanlara və heyvanlardan insanlara keçmə xüsusiyyətinə malikdir. Bu səbəbdən "Vahid sağlamlıq" konsepsiyasını göz önünə gətirərək demək olar ki, baytar həkimlərin insan sağlamlığının qorunmasındakı rolunun önəmi bir daha sübut olunur. Bu da baytar həkimlərin məsuliyyətini artıraraq, qida təhlükəsizliyinin və ictimai səhiyyənin qorunmasında, eləcə də ətraf mühit və heyvanların sağlamlığının təmin edilməsində onları əsas ixtisas sahiblərinə çevirmişdir.

- Baytarlıq sahəsində kadr hazırlığı ilə bağlı hansı problemlər var və fakültənizdə bu məsələ necə həll olunur?

- Fakültə üzrə ən çox rastlaşdığımız problem hazırda ölkə miqyasında da gündəmdə olan kadr potensialının çatışmazlığıdır. Məhz baytarlıq ixtisası üzrə pedaqoji kadrların azlığı tədris sistemində müəyyən çətinliklər yaradır.

Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafına və müasir peşəkar kadr hazırlığına göstərdiyi diqqət bizi daha da məsuliyyətli olmağa yönəldir. Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alıb ölkəyə qayıdan gənc mütəxəssislərimizi tədris prosesinə cəlb edərək, bu kadr problemini qısa zamanda aradan qaldırmağa çalışırıq.

https://www.kalibri.az/viewhr.php?z=4&ids=433420946&lng=az_az&m=1&c=MzMz

TƏLƏBƏ: HEYVANLARA MARAĞIM BAYTARLIQ İXTİSASINI SEÇMƏYİM ÜÇÜN ƏSAS OLDU



Lənkəran şəhər 8 nömrəli tam orta məktəbin məzunu Xaliq Zeynallı qəbul imtahanlarında 617 bal toplayıb. Yüksək nəticə göstərməsinə baxmayaraq, onun ixtisas seçimi diqqət çəkib. Xaliq Xəzər Universitetində tədrisi ingilis dilində olan Hasvet baytarlıq təbabəti fakültəsini seçib. Bu il baytarlıq ixtisası üzrə keçid balı 373 olub. Xaliqin topladığı 617 bal isə keçid balından çox yüksəkdir. Xaliq Zeynallı *AZƏRTAC* -ın suallarını cavablandırarkən baytarlıq sahəsinə marağından, ixtisas seçiminin səbəblərindən və planlarından danışıb.

- Xəzər Universitetində yaradılan şəraitlə əvvəlcədən - həm universitetə gələrək, həm də internet resursları vasitəsilə tanış olmuşdum. Bu məlumatları nəzərə alaraq, Xəzər Universitetində baytarlıq ixtisasında təhsil almağa qərar verdim. Bura gəldikdən sonra isə dərs otaqlarını, tədris prosesini və müəllim heyətini yaxından görərək qərarımın nə qədər doğru olduğuna bir daha əmin oldum. Universitetimizin həm yerli, həm də beynəlxalq şirkətlərlə geniş əməkdaşlıq əlaqələri var. Burada beynəlxalq standartlara cavab verən, hətta ölkədə az sayda olan unikal avadanlıq və aparatlardan istifadə olunur. Universitetimizdə mütəmadi olaraq beynəlxalq tədbirlər də təşkil edilir. Bütün bunları nəzərə alaraq, Xəzər Universitetini çox perspektivli təhsil ocağı hesab edirəm.

Demək olar ki, bütün uşaqların heyvanlara marağı olur. Lakin bu marağı düzgün istiqamətləndirmək və bütün amilləri nəzərə alaraq doğru ixtisas seçmək gənclər qarşısında duran əsas məsələlərdən biridir. Çünki ömrümüz boyu məşğul olacağımız sahəni seçərkən hər bir məqamı hərtərəfli düşünməliyik.

Mənim də heyvanlara olan marağım bu ixtisası seçməyim üçün əsas amillərdən biri oldu. Daha sonra dövlətimizin bu sahənin inkişafı üçün yaratdığı geniş imkanları nəzərə alaraq, baytarlıq üzrə təhsil almağa qərar verdim. Sevdiyim işlə məşğul olduğum üçün bu sahədə daha tez uğurlar qazanacağıma inanıram.

Əsasən kənd təsərrüfatı istiqamətində ixtisaslaşmaq istəyirəm. Bununla yanaşı, ekzotik heyvan növlərinə xüsusi marağım var və gələcəkdə onları öyrənməyi planlaşdırıram. Əsas peşəkar fəaliyyətimi kənd təsərrüfatı sahəsində görsəm də, gələcəkdə elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmaq, xüsusilə ekzotik heyvan növlərini araşdırmaq istəyirəm

"MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ II REFLEKSİV PEŞƏKAR EMALATXANA"

"SECOND REFLECTIVE PROFESSIONAL WORKSHOP IN PRESCHOOL EDUCATION"





Milana Abbasova

Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin, MÜTDA və "Ağ Yelkən-Gənclik"uşaq bağçasının əməkdaşlığı çərçivəsində sentyabrın 12- də məktəbəqədər təhsildə müasir yanaşmaların, effektiv təlim metodlarının və uşaqların fərdi inkişafının dəstəklənməsi məsələlərinin müzakirəsinə həsr olunmuş "Məktəbəqədər Təhsildə II Refleksiv Peşəkar Emalatxana" adlı tədbir keçirilib.



Viktoriya Mustafayeva

Tədbirin açılışında Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı f.ü.f.d. Milana Abbasova, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Məktəbəqədər Təhsilin Təşkili sektorunun müdiri Rəna Aslanova, "Ağ Yelkən-Gənclik" körpələr evi-uşaq bağçasının direktoru Viktoriya Mustafayeva çıxış ediblər.

Emalatxana çərçivəsində ilk olaraq, bağça yaşlı uşaqların psixoloji dəyərləndirilməsi mövzusu müzakirə edilib. Psixoloq, "Uğur İnkişaf Mərkəzi"nin direktoru və Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Nərmin Əliyeva "Məktəbəqədər yaşlı uşaqların psixoloji dəyərləndirilməsi" mövzusunda təqdimat edib.

Within the framework of cooperation between the Faculty of Humanities, Education and Social Sciences of Khazar University, MÜTDA, and the "Ağ Yelkən-Gənclik" kindergarten, an event titled "Second Reflective Professional Workshop in Preschool Education" was held on September 12, dedicated to discussing modern approaches, effective teaching methods, and issues related to supporting children's individual development in preschool education.

At the opening of the event, remarks were delivered by Milana Abbasova, PhD, Dean of the Faculty of Humanities, Education and Social Sciences at Khazar University; Rena Aslanova, Head of the Preschool Education Organization Sector of the Baku City Education Department; and Viktoria Mustafayeva, Director of the "Ağ Yelkən-Gənclik" Nursery-Kindergarten.



Rəna Aslanova

tamentinin müəllimi Kamalə Əliyeva uşaqların psixoloji xüsusiyyətlərinin qiymətləndirilməsi və onların inkişaf ehtiyaclarının müəyyənləşdirilməsi barədə məlumat verib.

Sonra "Diaqnostikadan fərdi inkişafa" mövzusunda çıxış edən Sayad Quliyeva, 347 nömrəli körpələr evi-uşaq bağçasının müdiri kimi, diaqnostik qiymətləndirmənin uşağın fərdi inkişafının planlaşdırılmasında rolunu diqqətə çatdırıb.

Növbəti təqdimatda "Qiymətləndirmə – izləmədən nəticəyə" mövzusu üzrə Yazgül Abbasova qiymətləndirmə prosesinin yalnız müşahidə və izləmə ilə məhdudlaşmamalı, əldə olunan nəticələrin uşağın sonrakı inkişafına istiqamət verməli olduğunu vurğulayıb.



Natavan Əlili

Xəzər Universitetinin Təhsil departamentinin baş müəllimi, korreksiyaedici pedaqoq və inklüziv qrupların sədr müavini Aynur Abdullayeva uşaqların məktəbə hazırlığı və məktəbəqədər təhsildən ibtidai təhsilə uğurlu keçidinin əsas məqamları barədə çıxış edib.

Tədbirin sonrakı hissəsində uşaq bağçalarında perspektiv və cari planların hazırlanması məsələsi müzakirə olunub. "Bənövşə" uşaq bağçasının müdiri Sevinc Məmmədova planlaşdırmanın təhsil prosesinin sistemli və məqsədyönlü təşkilində əhəmiyyətini izah edib.

Emalatxananın yekun mövzusu isə "Planlaşdırmada çeviklik" olub. Məktəbəqədər təhsil eksperti, "Göyərçin" uşaq bağçasının müdiri Svetlana Mustafayeva planlaşdırma prosesində çevik yanaşmanın, dəyişən ehtiyaclara uyğunlaşmanın və təlim prosesinin uşaqların fərdi xüsusiyyətlərinə əsasən təşkil edilməsinin vacibliyindən danışıb.

Ümumilikdə, tədbir zamanı qiymətləndirmə, diaqnostika, fərdi inkişaf, psixoloji yanaşma, məktəbə keçid və çevik planlaşdırma kimi bir-biri ilə əlaqəli istiqamətlər müzakirə olunub.

Within the framework of the workshop, the topic of psychological assessment of preschool-age children was discussed first. Kamala Aliyeva, psychologist, Director of the "Uğur İnkişaf Mərkəzi", and lecturer at the Department of Psychology of Khazar University, provided information on assessing children's psychological characteristics and identifying their developmental needs.

Next, speaking on the topic "From Diagnosis to Individual Development," Sayad Guliyeva, Head of Nursery-Kindergarten No. 347, drew attention to the role of diagnostic assessment in planning a child's individual development.

In the following presentation, on the topic "Assessment - From Monitoring to Outcome," Yazgul Abbasova emphasized that the assessment process should not be limited to observation and monitoring alone, but that the results obtained should give direction to the child's subsequent development.

Aynur Abdullayeva, Senior Lecturer at the Department of Education of Khazar University, correctional pedagogue, and Deputy Chair of inclusive groups, spoke about the key points of children's school readiness and the successful transition from preschool to primary education.

In the following part of the event, the issue of preparing prospective and current plans in kindergartens was discussed. Sevinj Mammadova, Head of the "Bənövşə" Kindergarten, explained the importance of planning in the systematic and purposeful organization of the educational process.

The final topic of the workshop was "Flexibility in Planning." Svetlana Mustafayeva, preschool education expert and Head of the "Göyərçin" Kindergarten, spoke about the importance of a flexible approach in the planning process, adapting to changing needs, and organizing the teaching process based on children's individual characteristics.

Overall, the event addressed interrelated areas such as assessment, diagnosis, individual development, psychological approach, transition to school, and flexible planning.



Hamlet İsaxanlı

YAĞIŞ YAĞIR, SEVGİLİM

(POVEST)

1

Yağış səhər tezdən, alaqaranlıqda başladı - seyrək, xırda damcılarla, sakit-sakit, hay-küysüz, küləksiz, boransız. Yağış damlaları evlərin dam, divar və pəncərələrini döyəcləyərək təbii, ritmik səs çıxarır, çalıb-oxuyurdular. Yağış güclənməsə də, davamlı oldu, get-gedə üzdə olan hər şey - yol, küçə, ev, ot, ağac və insanlar suya qərq oldu. Pəncərələr yağışdan tərlədi, dumana büründü. Rənglər sönükləşdi, mavi səma boz rəng aldı. Çimib təmizlənən yarpaqlar rəng verib rəng aldılar, solğun yaşıldan tünd yaşıl rəngə döndülər. Göydən gələn su ilə şəhərdəki toz-torpaq qarşılaşıb bir-birinin canına hopdu. Havanı təravətli torpaq qoxusu bürüdü.

Aslan yolboyu fikirli-fikirli, dalğın halda maşının aynasından yağışın islatdığı ətrafı seyr edirdi. Yağış dəqiq xətləri tumarlayıb hamarlamış, hər şey yumşalmış kimi görünürdü. Niyə belədir?! Aranda, dağda, yolda, şəhərdə - hər yerdə, bu çox maraqlı təbiət hadisəsini izləyən Aslan arasıkəsilməyən bu asta yağışın yaratdığı intim ortamda düşüncələrə dalmışdı.

...Yağışlı hava tək məkana deyil, insanın duyğu halına da təsir edir, dünya elə bil ki, daha içdən hiss olunur. Yağış sanki iç dünya ilə ətraf dünyanı bir-birinə yaxınlaşdırır, istək və bağlantını gücləndirir. Yağış yenilikçidir, mühafizəkarlığı zəiflədir, dəyişiklik yaradır. Yağış yağanda həyatın tempi yavaşıyır, insan daha yavaş gəzir, daha sakit, daha dalğın, daha düşüncəli olur. Yağış duyğuların açılması üçün münbit mühit yaradır. Yağan yağış, elə bil ki, insanlar arasındakı maneələri aradan qaldırır, tərəddüdü, ehtiyatı, ifrat həssaslığı "gizlədir"...

Aslan maşından düşüb iş otağına tərəf addımladı. Yağış səngiməmişdi. O, heç vaxt yağışdan qorunmaq üçün özü ilə çətir götürmürdü. İndi də narın yağışa məhəl qoymadan, tələsmədən, ətrafa boylana-boylana binanın içinə doğru irəlilədi. İş otağına daxil olub bir az pəncərə qarşısında dayandı, həyətə baxdı. Sonra hər gün olduğu kimi yazı masasının yan tərəfindəki kompüteri açıb elektron poçtunu yoxladı. Əvvəlcə çoxsaylı "artıq və ya lazımsız" məktubları sildi, qalanlara ötəri baxıb sonradan oxumaq və ya cavablandırmaq istədiklərini işarələdi. Bu anda masanın yan tərəfində xüsusi dayaq üstünə qoyduğu mobil telefona məktub gəldi. Aslan yaradıcı iş və məlumat axını baxımından kompüteri telefondan üstün tuturdu. Məktub göndərməyi əsasən kompüter vasitəsilə edirdi. Elektron poçtu telefonuna

da gəlirdi, lakin nisbətən uzun olan məktubları kompüterdə oxuyur və cavabı da oradan yazırdı. Telefonun ekranı kiçik olduğuna görə, barmaqları lazım olan hərf əvəzinə qonşu hərflərə dəyib yazını korlaya bilirdi. Lakin adamların əksəriyyəti, bildiyinə və eşitdiyinə görə, telefonla yazışmağı daha çox xoşlayırlar.

Yaxşı, bəs bu nə məktubdur? "Salam, Aslan müəllim! Sizi böyük bacım Tovuzla bağlı bir məsələyə görə narahat edirəm. Dünyasını dəyişəndən sonra onun əlyazmaları - şeirləri, hekayələri və məqalələri qalıb. Onun arxivində sizin vizit kartınızı gördük. Anam sizinlə görüşmək, qızı Tovuzdan qalan əlyazmalarla nə edəcəyimizi, onları hara və kimə təqdim edə biləcəyimizi məsləhətləşmək, sizin bu barədə fikrinizi öyrənmək istəyir. Aslan müəllim, ümid edirik ki, xahişimizi nəzərə alıb bizə vaxt ayırarsınız". Məktubun sonunda sadəcə ad yazılmışdı: Durna.

Tanımadığı xanımdan gələn bu məktub Aslanı xəyalən keçmişə - Tovuz xanımla tanış olduğu və bir yerdə çalışdıqları günlərə apardı.

...Tovuz ədəbiyyatçı idi, Azərbaycan-Avropa ədəbi əlaqələri ilə, həmçinin Azərbaycan və türk xalqlarının folkloru ilə maraqlanır, araşdırma aparır, ara-sıra şeir yazırdı. Aslan onun hekayə də yazdığını bilmirdi. O, mədəni, gözəl, söhbətcil və xoş insan idi. Aslanın Tovuzla tanışlığı cəmi bir neçə il sürsə də, onlar dostlaşmış, məmnuniyyətlə ədəbiyyatdan, dünyanın gözəlliklərindən və həyatın qəribə işlərindən söhbət edir, rəsmi və qeyri-rəsmi məclislərdə qarşılaşır, görüşürdülər. Hər ikisinin zarafatcıl və musiqisevər olması onları bir-birinə daha da yaxınlaşdırmışdı. Gözlənilmədən Tovuzun ağır xəstəliyə düçar olduğu bilindi.

...Ailə həyatında da müəyyən çətinlikləri varmış Tovuzun, bu barədə özü danışmazdı, Aslan ordan-burdan eşitmişdi. Deyilənə görə əri Tovuzdan xeyli yaşlı, vəzifəli və zəhmli bir adam olmuş, onu nəzarət altında saxlayırmış. Aslan bu dövrdə Tovuza yaxınlaşmağa, ona necəsə kömək etməyə çalışsa da, bir şey əldə etməmişdi, Tovuz özünə qapanmışdı. Sonralar Aslan iş yerini dəyişdi və Tovuzla əlaqələri zəiflədi, get-gedə tamam kəsildi.

...Tovuz vaxtında müalicə olunmadı və ya yaxşı həkimə düşmədi, allah bilir. Uzun çəkən xəstəliyi şiddətləndi, Azərbaycanın qərb bölgəsində göz açdığı dünyaya onun şərqində, Bakıda "eh, vəfasız dünya" deyib gözlərini həmişəlik yumdu.

Aslan fikirdən ayılıb Durnaya qısa cavab yazdı:

--Durna xanım, mərhum dostum Tovuz xanımın xatirəsi mənə çox əzizdir. Buyurun, istəsəniz, sabah günortadan sonra, saat 4-5 radələrində, 5-ə doğru gəlin. Əgər bu vaxt sizə uyğun deyilsə, onda başqa bir gündə görüşə bilərik.

Durna xanımın, belə görünür ki, gözü telefonda imiş, Aslanın cavabını alan kimi yazdı:

--Aslan müəllim, geri dönüş etdiyiniz üçün təşəkkür edirəm. Sabah saat 5-in yarısında sizin yanınıza gələ bilərik. Etiraz etmirsinizsə.

Aslan razılığını bildirdi.

2

Yağış iki gün idi ki, ara vermədən yağırdı. Təyin olunmuş vaxtda iki xanım – ana və bala Aslanın iş yerinə gəldilər. Maşından düşüb binaya daxil olana kimi bir az islandılar. Aslanın köməkçisi onları gülərüzlə qarşılayıb əyləşmək üçün yer göstərdi. Nurani sifəti və kübar görkəmi ilə rəğbət doğuran ana:

--Qızım, Aslan müəllimlə görüşəcəkdik, - dedi.

--İndicə gələr, görünür yağış yolları keçilməz edib yenə, ona görə bir az gecikir.

Aslan içəri girəndə iki xanıma eyni zamanda nəzər salsa da, gənc olan ona kimisə xatırlatsa da, diqqətini hənalı saçları ortadan ikiyə ayrılıb səliqə ilə daranmış və elə ilk baxışdan nəsə bir doğmalıq hiss etdiyi, amma adını bilmədiyi ana üzərində cəmlədi.

- Xoş gəlibsiniz! Bağışlayın, bir az gecikdim. İslanıbsınız, keçin əyləşin, bir çay içək", - de-

yə qonaqları otağına dəvət etdi.

--Aslan müəllim, sizə zəhmət verdik, - deyə üzrxahlıq və təşəkkür ifadə edən sözlərlə əvvəlcə ana, ardınca gənc xanım otağa daxil oldular.

Aslan:

--Nə zəhmət, sizinlə görüşmək çox xoşdur. Əyləşin, - deyə qonaqları oturmağa dəvət etdi.

Əyləşdilər, çox keçmədən çay və şirniyyat gəldi. Ana Aslana doğma olan ləhcədə, həlim səslə söhbətə başladı:

--Aslan müəllim, mənim adım Nabatdır, sizin tanışınız, rəhmətlik Tovuzun anasıyam. O sizi çox böyük hörmət və məhəbbətlə anırdı. Uzaqdan olsa da, sizi mən də tanıyıram.

--Nabat xanım, Tovuz xanımla dost idik. Söhbətimiz tuturdu. Onun həmkarları arasında gözəl, mehriban, dürüst və istedadlı insan kimi hörməti vardı.

-- Qızım Durnaya, Tovuzun kiçik bacısına "gör Aslan müəllimlə əlaqə yarada bilərsənmi?" dedim.

Nabat xanım bu sözləri deyərkən qızına tərəf baxdı, məhəbbət dolu gözləri ilə onu süzdü, sonra Aslana tərəf döndü:

--O, gecikmədən sizinlə əlaqə qura bildi. Siz də sağ olun ki, onun məktubuna cavab verdiniz və bizi qəbul etdiniz.

Aslan baxışlarını Durnaya doğru yönəltdi. Ürəyində "Ay Allah, nə gözəl xanımdı!" - dedi, içindən gələn və açıq iltifat bildirən bir fikir səsləndirməkdən - "kompliment" deməkdən özünü saxladı. Aslan indicə gördüyü, hələ tam tanımadığı Durna ilə onun bacısı, çoxdan tanıdığı Tovuz arasında bir bənzərlik gördü. Tovuz gözəl, dilli-dilavər, cəsarətli xanım idi, yenicə gördüyü Durna isə... Aslanın gözündə daha mülayim, məlahətli, daha çox gözəl göründü. Onlar gözaltı baxışdılar. Cazibəli sifəti, insanı məst edən gözləri, al yanaqları və xoş təbəssümü ilə könül oxşayan bu xanım Aslanın nüfuzedici baxışları altında utanıb qızardı. Bu, onun xoş üz cizgilərini daha da cazibədar etdi. Durna, içəri girən andan bəri Nabat xanımla danışmağa başı qarışmış Aslana göz altından maneəsiz baxmaqda idi. Aslan bunun fərqində idi. İndi isə Durna Aslanın sınayıcı baxışları altında bir anlığa ona baxıb



Rəssam: *Nigar Əliyeva*

gözlərini aşağı endirdi. Utancaq olduğu görünürdü, üzündə parlayan damla onu isladan yağışın qurumamış izi idi ya utancaqlığın gətirdiyi tər?!

Aslan nəzərlərini Durna üstündə çox saxlamayıb başını istər-istəməz yenidən Nabat xanım tərəfə çevirdi.

Söhbət əsasən Tovuzun əlyazmaları və onlarla nə etmək üzərində davam etsə də, Nabat xanımla Aslan söhbəti genişləndirib bəzədilər, ona cürbəcür rəng qatdılar. Hər ikisi Azərbaycanın qonşu qərb bölgələrindən idi, eyni ləhcə, eyni adət-ənənə onları yaxınlaşdırırdı. Məmnun halda xeyli ortaq mövzulardan, ortaq keçmişdən söhbət açdılar, xəyalən kəndə, rayona, şəhərə getdilər, adət-ənənələrdən danışdılar, hər ikisinə yaxşı tanış olan fəsəli və qatdama (qatlama)[1] kimi kənd şirniyyatlarını, bağlarında bitən tut, gilas, alma, üzüm kimi sevimli meyvələri yada saldılar. Nabat xanım "bağımızda yaxşı tut ağaclarımız var, gəlin özünüz dərin yeyin" deyə Aslanı dəvət etdi. Aslan dönüb Durnaya baxdı, onun göz qamaşdıran ala gözləri ilə qarşılaşıb ürəyində "offf" dedi və fürsəti dəyərləndirdi:

--Nabat xanım, sizinlə görüşdən çox məmnunam. Durna xanım da sağ olsun, bizi görüşdürdü. Məmnuniyyətlə gələrəm, yəqin Durna xanım bələdçilik edər.

Durna üzündən heç əksik olmayan zərif təbəssümlə "baş üstə" dedi. O, gözlərində açıq rəğbət, hörmət və gizlədilməsi mümkün olmayan heyranlıqla Aslana baxdı. Bu elə-belə baxış deyildi...

3

İlk görüşdən sonra Aslan Durna haqqında düşünür, onu unuda bilmirdi. Bu xanımın göz oxşayan iri gözləri, yaraşıqlı sifəti onu məftun etmişdi. Durnanın utancaqlığı, utanarkən qızarması, yanaqlarının allanması atəşə dönüb Aslanın qəlbini isidir, yandırıb-yaxırdı. Qəflətən ortaya çıxan, Ay kimi zərif işıq saçan bu xanım özündən asılı olmadan Aslanın qəlbini fəth etmişdi. Aslan onu görmək, qəlbini ona açmaq, onunla qəlb yoldaşı olmaq barədə xəyal qursa da, ürəyini çalan bu xanımı axtarıb tapmaq fikrinə düşmədi, ona "dur" deyən soyuq və quru məntiqə boyun əydi, cövlan edən xəyalın qanadlarını qırdı. İlk dəfə görmüşdü o qadını, onu tanımırdı, onun gerçək dünyasından, istək və arzularından xəbərsizdi. Bircə dəfə gördüyü, azca söhbət etdiyi bir xanıma adam birdən-birə qəlbən bağlana bilərmi?! Bəlkə onunla bir daha görüşməyəcək?! Məgər həyat bu cür təsadüflərlə, ötəri, ilk baxışdan vurğunluqlarla dolu deyilmi?! Bir maral, bir ceyran bərədən, ovçunun qarşısından süzüb keçir, bir daha gözə dəymir, gedib başqa biri tərəfindən ovlanır, başqasının payı olur. Dünya belə deyilmi?! Məgər hər qığılcım alışıb oda-alova çevrilirmi? Yox, əksəriyyəti sönür. Aslan "Deyəsən birdən-birə çox qızışdım, başımda ağlım varsa, bir az soyutsun məni, göydən yerə endirsin" deyə gözlərini yumub fikirləşdi. "Bəlkə evlidir, əri var, uşaqları var?! Lap xəyalpərvər olmuşam, bu yaşımda bir baxış məni atəşə salıb. Ağlım balaca uşağınkı qədərdi. Ya şirin xəyala dalmış yeniyetməyəm, nəy əm?!".

Amma xatırlamaq ən insani keyfiyyətlərdən biridir. Xatirə özü gəlir, dəvət gözləmədən. Durnanı tamam unutmaq mümkün deyildi, bu qədər xoşa gələn gözəli necə unutmaq olar?! Kişinin ətrafı qadınlarla dolu olsa da, o, gözəlliyi, nəcabəti, sözü-söhbəti xoş olan xanımlarla rastlaşsa da, hər xanımın atdığı ox onun ürəyinə dəymir. Kiminki dəyir, kiminki dəymir? Bu suala tam cavab vermək olmur. Xoşa gəlmək hadisəsi ağla, məntiqə bağlı olsaydı, yəqin ki, bir cavab tapmaq mümkün olardı. Amma duyğu ağlın törəməsi deyil, ayrı, müstəqil bir xilqətdir, öz təbiəti var. Duyğunu ürəyə bağlayırlar, bir şey, bir şəxs ürəyi dindirməsə, ox-

1. Qatdama (qatlama). Xəmiri qat-qat yayılaraq hazırlanan ənənəvi bir un məmulatı – şirniyyatdır. Azərbaycanın qərb tərəfində və Gürcüstan azərbaycanlıları arasında hazırlanır və sevilir

şamasa, onu görəndə ürək gup-gup etməsə, qızınmasa, çırpınmasa, o şeyi, o şəxsi sevmək, ürəkdən sevmək olmur...

Aslan bir şeyə ümid bağlamışdı, səmimi keçən ilk və unudulmaz görüşdə Nabat xanım Aslanı bağa, tut yeməyə dəvət etmişdi. Nabat xanım xoş və etibarlı insan təsiri bağışlamışdı. Söz deyibsə, sözlə dəvət edibsə bir gün gələcək ki, Aslan Durnanın iştirakı və bələdçiliyi ilə o bağa gedəcək, onlarla, əlbəttə hamıdan əvvəl Durna ilə daha yaxından tanış olacaq. Sonrasını... kim bilir?! Ya ancaq sadə, səmimi tanışlıq, dostluqla rastlaşacaq və kifayətlənməli olacaq ya da sevə-sevə zümzümə edəcək: "Yenə o bağ olaydı"[2].

Digər yandan "ağlabatan bir fantaziya" Aslanın qəlbini isidir, ümid alovunu üfürür, sönməyə qoymurdu – "Axı o gözəl xanımın gözaltı xumar baxışlarında nəsə oxudum mən, bir həvəs gördüm o gözlərdə. Durduğu yerdə, daha doğrusu oturduğu yerdə o niyə utanırdı, qızıl gül kimi qızarırdı?!" Gözümə inanmayımmı?! Göz ağlın işığı, duyğuların güzgüsü deyilmi?!

4

Aradan xeyli vaxt keçdi. Günlərin bir günü Durna gözlənilmədən Aslanın iş yerinə gəldi. Qəbul otağında əyləşən köməkçisinə "Anam Aslan müəllimə qatdama göndərib" deyib, qatdamanı Aslanın köməkçisinə təhvil verib getmək istədi. Fərasətli köməkçi çevik hərəkətlə "Bir an gözləyin" deyib Aslanın otağına daxil oldu və vəziyyəti olduğu kimi çatdırdı. Aslan həmən "Ayıbdır, içəri gəlsin, təşəkkür etməliyəm" dedi.

--Aslan müəllim gözləyir sizi, buyurun özünüz təqdim edin,- deyə gülərüz köməkçi Durnanı içəri dəvət etdi.

...Aslan ürəyinin tellərini əsdirən gözəli görəcək indi. Zarafat deyil, nə vaxtdır sorağında, əslində intizarında olduğu bir xanım indi gözlənilmədən, qəflətən, xəbərsiz-müjdəsiz öz mübarək ayağı ilə gəlib çıxıb. Köməkçi, Aslanın düşüncə və arzularından xəbəri olsaydı, bəlkə "muştuluğumu ver" deyərdi.

Dünyanın bu qarışıq zamanında nə yaxşı ki, xoş təsadüflərə də rast gəlinir! Təsadüfə bel bağlamaq olmur, amma o, səxavətlidir, sürprizlərlə, gözlənilməz hadisələrlə doludur!

Durna içəri daxil olanda Aslana elə gəldi ki, otaq işıqlandı. Necə deyərlər, "Aslanın gözünə işıq gəldi". Görmə nəzəriyyəsinə görə bir nəsnəni, cismi görmək hadisəsi o nəsnədən çıxan şüaların gözə gəlib çatmasından ibarətdir. Gələn şüalar gözdən keçib beyinə çatır, üzərində iş gedir, nəticədə o cisim dərk olunur, görünür [3].

Aslan Durnanı, bu cazibədar gülərüz xanımı gülərüzlə qarşıladı. Onu sirli bir məmnuniyyətlə başdan ayağadək süzdü. Bu açıq baxış Durnanı utandırdı, qızartdı və bu vəziyyət öz növbəsində Aslanı daxilən coşdurdu, üzdə hiss olunmasa da. Aslan "xoş gəldin" deyib Durnanı oturmağa dəvət etdi. Durnanın bir az tərəddüd etdiyini görüb gülümsədi və əli ilə kreslonu göstərdi, bu, yəqin ki, "tərəddüd keçmir, oturmalısan" anlamına gəlirdi. Durna əyləşdi. Aslan söhbətə qəlibdən çıxmış, yayğın ifadə ilə başladı:

--Nabat xanıma mənim ehtiram və təşəkkürümü çatdırın lütfən. Heç ağlıma gəzməzdi ki, Bakıda kimsə mənə qatdama göndərə bilər. Özümü bişirib?

Durna anasına kömək edə-edə qatdama və digər kənd yeməklərini bişirməyi yaxşı öyrənmişdi. İndi hər yeməyi özü sərbəst bişirə bilirdi. Aslana gətirdiyi qatdamanı da özü bişirmişdi, hərçənd ki, Aslana vəd edən anası idi. Amma, Aslanla bu görüşə gəlmə səbəbini - Aslanı görmək istəyini ört-basdır etmək, özünü kənara çəkmək, sanki ancaq anasının səyi

2. Mikayıl Müşfiqin məşhur "Yenə o bağ olaydı" şeirinə işarə edilir

3. Görmə nəzəriyyəsi üçün bax: Hamlet İsaxanlı. Əsərləri. 1-ci cild. Bilik və Hikmət İşığında. Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2001. səh. 162-182 ("İşıq və rəng")

və istəyi ilə gəldiyini göstərmək istədi:

--Hə, mən də bir az kömək etmişəm.

--Ay nə yaxşı! Onda, lütfən mənə də kömək et ki, sizi yaxşı tanıyım. Nabat xanımın qızısınız, vəssalam, bildiyim budur. Əlavə edə bilərəm: utancaqsınız. Gözəl şeydir utancaqlıq.

Durna əməlli-başlı utandı, qaydası üzrə yanaqları allandı, başını aşağı salıb sonra qaldırdı, çətinlik çəkdiyini etiraf etdi:

--Elə qarşılayıb elə danışdınız ki, vallah, bilmirəm nə deyim, dilim tutulur, cavab verə bilmirəm.

Aslan bu xanımın doğrudan da utandığını, daxili həyəcan keçirdiyini, bir az da sıxıldığını gördü, mülayim hava yaratmağa çalışdı:

-- Durna xanım, Mən Tovuz xanımla dost idim, anan Nabat xanım gəldi, öz mehribanlığı və söhbəti ilə məni məftun etdi. Sizi də onun qızı və Tovuz xanımın kiçik bacısı kimi özümə dost saymaq istəyirəm, əlbəttə, etirazınız yoxdursa. Lütfən, rahat olun.

Bu məqamda çay gətirdilər. Aslan davam etdi:

--Çayımızı içək. İcazə ver mən sizin gətirdiyiniz və çox sevdiyim qatdama ilə içim çayımı. Siz də baxın, şirniyyatlardan hansını istəyirsinizsə çayı onunla için.

Çay içə-içə Aslan Durnaya baxır, sonra gözünü ondan çəkirdi ki, o, sıxılmasın. Düşündü ki, "Bu qəşəng xanımla daha yaxından tanış olmaq üçün mən gərək utanmayım, hər halda kiçik bir sorğu-sual etmək lazım olacaq":

-- Durna xanım, ananızla, o mehriban insanla və sizinlə tanış oldum, ailənizlə də tanış olum, əgər ailənizi təqdim etsəniz.

Durna bir az tutuldu. Amma özünü topladı, cavab tələb olunurdu:

--İki qızım var.

Aslan müdafiə xəttini keçməkdəydi, daha geri çəkilmək olmazdı:

--Həyat yoldaşınız kimdir, nəçidir?

Durna gözlərini aşağı dikdi, sonra başını qaldırdı:

--Boşanmışam, uşaqlarımla yaşayıram.

Aslan daxilən sevindi, ürəyi köksünə sığmadı, quş kimi çırpındı, "Arşın mal alan" yadına düşdü – "çox əcəb, indi bəs nə eləyək?"[4]. Təhlükədən sovuşub çıxmış adam kimi rahatlandı. Ətrafına sevinc, işıq və istilik yayan bir xanım vardı yanında. Qadın üçün yaxşı tanış olmadığı və hörmət etdiyi bir adama "boşanmışam" demək asan məsələ deyil. Bu səbəbdən Aslan bilmədi Durnaya nə desin, amma bu vəziyyəti uzatmaq da yaxşı deyildi. Başını tərpədə-tərpədə ümumi, tərəfsiz bir fikir söyləməklə kifayətləndi və bu zaman özü də hiss etmədən "siz"dən "sən"ə keçdi:

--Həyat çətindi, mürəkkəbdi. İşləyirsənmi, sənətin, işin varmı?

--Hə...

Durna gedəndən sonra Aslan ürəyində özünü yüngülcə qınadı və ya filosofluq etdi: "Durna boşanmışam deyəndə niyə sevindim, sevindiyimi də deyəsən ondan gizlədə bilmədim. Qəribə məxluqdur insan, eqoistdir, başqasının düşdüyü çətin vəziyyətə görə sevinə bilir - bu vəziyyət onun arzularına uyğun gəldiyi üçün".

5

Aslanın Durnanı görmək istəyi öz-özünə həll olundu. Son görüşdən sonra o, Durnanı, çox yaxından olmasa da, bir qədər tanıdı, üstəlik "ağlabatan fantaziya"nın onu aldatmadığını,

4. Üzeyir bəy Hacıbəyovun məşhur "Arşın mal alan"əsərində Soltan bəy Cahan`ın dul olduğunu biləndə sevinir və "Çox əcəb, indi bəs nə eləyək?" deyir

Durnanın da ona qarşı biganə olmadığını hiss etdi, gördü. Aralarında mobil telefonla zamanın ruhuna uyğun WhatsApp yazışması başlandı. Qatdamadan sonra təşəkkür məktubunu Aslan "çox" sözünü uzatmaqla, "Durna xanım, çooox sağ olun" sözləri ilə bitirdi. Bu uzatma aranı açmaq, aradakı məsafəni azaltmaq istəyini nümayiş etdirmirdimi?! Durna, bir qədər formal olsa da, yaxşı cavab verdi: "Siz çox dəyərli və əziz insansınız bizə. Nə vaxt könlünüzdən hər hansı kənd yeməyi keçsə, deyin, gətirim və ya buyurun bizə gəlin, anam belə istəyir".

Növbəti təşəbbüs Durnadan gəldi - Aslanı Yeni il münasibətilə təbrik etdi. Aslan Durnanın bu addımını, özü də fərq etmədən, uşaqlıqda əzbərlədiyi şeiri dəyişdirib səsləndirməklə bəzədi - "Aha, Durna heç də bizi qoyub qaçmayıb"[5]. Nəzakətli cavabında "Yeni" sözü ilə oynayan Aslan yazının sonunda gələcəyə sözdən sərmayə qoydu - "Yeni görüşlər arzusu ilə". Durnanın "böyük məmnuniyyətlə" deyən cavabını oxuyan kimi Aslanın sevinci bədən dili ilə ifadə olundu - ilk olaraq gülümsədi, bir fikrə gələndə və ya bir fikri təsdiq edəndə olduğu kimi sonra başını "hə" mənasında aşağı-yuxarı yırğaladı. Sözə böyük ehtiyac yoxdu, "aha" demək kifayət etdi. Kefi əməlli-başlı kökəldi.

8 Mart Qadınlar bayramında Aslan Durnanı və onun vasitəsilə Nabat xanımı təbrik etdi. Durnanın təşəkkür məktubuna cəld cavab yazdı: "Durna xanım, sağ ol! Bayram günləri mən şəhərdə olacam. Sən harada?" Bu dəfə də bilə-bilə Durnaya müraciətdə "siz" deyil, "sən" yazdı. Durna dəqiq cavab verdi: "İki günlük rayona gedirik. Sonra mən də şəhərdə olacam". Aslan tam açıldı: "Şəhərə gələndə görüşək". Durna yenə sadə və aydın cavab verdi: "Yaxşı. Gələndə xəbər verərəm". Beləliklə, tanışlığın möhkəmlənməsi üçün zəruri addım atıldı – görüş istəyi təsdiq olundu. Görüşə razı olmaq bir maraq olduğunu göstərir, eyni zamanda "maraq davam edəcəkmi?" sualı da ortaya çıxacaq, etibar sınağa çəkiləcək. Bir və ya bir neçə dəfə görüşmək çətin iş deyil, görüşlərin davamlı olması mühümdür. Meyvə kal vaxtı yeyilmir, acı olur, yetişəndə dada gəlir, şirinləşir. İki insan arasındakı görüş də belədir, vaxt keçməlidir, vaxtı yetişməmiş şirinləşmir, yaxşı dad vermir.

Durna Aslanı uzaqdan yaxşı tanıyırdı, Aslanın isə bundan xəbəri yox idi. Aslan Durnanın keçmişindən, indiki həyatından xəbərdar olmasa da, Durnanın ona müəyyən rəğbəti olduğunu deyən "ağlabatan fantaziya", bu sezgi gücü əsassız deyilmiş. Durna ilk dəfə böyük bacısı Tovuzun dilindən Aslan barədə tərifli sözlər eşitmişdi. Aslanın ağlı, dürüstlüyü, davranışı, səmimiliyi barədə danışan Tovuz "yaraşıqlı kişi" sözünü xüsusi bir əda ilə, hərarətlə ifadə etmiş, sözünü qismən də olsa təsdiq etmək üçün Aslanın müəllim yoldaşları ilə birlikdə çəkilmiş bir neçə şəklini də göstərmişdi.

6

...Durna əri Behbud ilə, özü demişkən, Leyli-Məcnun olmamışdılar, uzaq qohumluqları vardı, tanış etmişdilər. Oğlan ali təhsilli mühəndis idi, lakin qohumlar onu "asan" işə düzəltmişdilər - rayon həmkarlar ittifaqında əməyin mühafizəsi və texniki təhlükəsizlik şöbəsində baş mütəxəssis. Durnanın ailəsi oğlanın yaxın gələcəkdə yaxşı işlə məşğul olması üçün əsas hazırladı və o, ingilis dili öyrənmək, həmçinin, müəyyən texnoloji yenilikləri mənimsəmək və təşkilati ünsiyyət qabiliyyətini inkişaf etdirmək üçün təlimlərə baş vurdu. Evləndikdən sonra gənc ailə daha çox Hollandiya adı ilə tanıdığı Niderland`a getdi. Birinci uşaq orda doğuldu. İkinci dəfə hamilə olan Durna müəyyən çətinliklərlə üzləşdikləri üçün Bakıya qayıtmalı oldu. Bir müddət sonra əri də qayıtdı.

Təbiətcə çox həssas olan Durna ərində gözəçarpan dəyişmələr müşahidə etdi, göz bəbək-

5. Rəşid bəy Əfəndiyevin "Durna" şeirinin ilk beytinə işarədir: "Ay havada uçan durna / Bizi qoyub qaçan durna"

ləri kiçilmiş kimi görünürdü, gözləri qızarır, halı dəyişir, birdən çox xoşəhval olur, sonra tez kefi pozulur, əsəbiləşir, yorğun və həvəssiz olurdu. Diqqətsiz olmuş, yaddaşı zəifləmişdi. Durna şübhələndi. Tezliklə Behbud məhəllədə narkotik maddələr alverçisi kimi tanınmış kişi ilə bir yerdə göründü. Məsələ aydınlaşdı.

Durna "məndən, ailəsindən uzaqda yaşadı, tək qaldı, pis adamlarla tanış oldu, pis vərdişlərə qurşandı" deyə düşündü, təhlil etdi. O, çox çətin olsa da, qüruru möhkəm yaralansa da, uşaqlar atasız qalmasın dedi, gözlədi, ərinin peşmançılıq etirafını sınağa çəkdi. Həyat bir müddət romantikasız ola bilər, susa bilmək, dözmək və bağışlamaq da həyatın bir parçasıdır.

Durna üzdə özünü bir şey olmamış kimi apardı, iki uşağının qayğısına qaldı, onların tərbiyəsi ilə məşğil oldu, bədii kitab oxumaq ehtirası da ona bir qədər kömək etdi. Get-gedə ər-arvad münasibəti hər mənada pozulmağa başladı. Durna ərinə "yalan danışma, olanı de, birlikdə səhvləri düzəldək" desə də, əri ümumilikdə özünü Durna ilə ədəbli aparsa da, təəssüf ki, peşmançılıq sınağından üzüağ çıxmadı.

Hər şeyin ölçüsü var, ailə bir birlikdir, bağlılıqdır, ailə nə xaosu sevir, nə mütləq azadlığı. Durna düşündü: "Bu halla davam etsək, uşaqlar bir az böyüyüb hər şeyi başa düşəndə xəcalət içindəmi yaşasınlar? Atamız narkomandı sözünü necə udsunlar, mən onlara necə cavab verəcəm? Qonum-qonşu nə deyəcək, mənim özümə münasibət necə olacaq? Bizim cəmiyyət kişini çox qınamır, böyük səhvini də bağışlayır, qadını isə qınayır və bağışlamır". Durna uzun-uzadı düşündü, ağlayıb-sızlamadı, məzəmmət etmədi, münasibəti ləyaqətlə bitirdi. Hörmət etdiyi qayınanasının yalvarışlarını dinləsə də, geriyə yol qoymadı, sakitcə boşandı.

Belə məsələlərdə "belə gözəl qadının əri və iki gül kimi uşağın atası niyə narkoman oldu?" kimi suala birqiymətli sadə cavab vermək olmur, "belə gözəl qadının əri gör kiminlə kimə xəyanət etdi?!" sualında olduğu kimi. Adətən ailə daxilində pozulma tək bir səbəbə bağlı olmur. Kişidəki özünübəyənmişlik, həyəcan və macəra ehtirası, orta yaş böhranı, insani və qadın-kişi münasibətlərindəki soyuqluq kimi amillər də öz rolunu oynayır...

7

İnsan həyatı boyu həyəcan arayır, məmnunluq hissi keçirmək istəyir. Bunu əldə etmək üçün həyatda çox yol, çox üsul var: musiqi, incəsənət, dağa çıxmaq, səyahət etmək, oxumaq, öyrənmək, idmanla məşğul olmaq, başqalarına kömək etmək, kəşf etmək, sevgi və dostluq kimi xoş, yaradıcı həyat sürmək... Eyni zamanda həm həyəcan, həm fayda verən məşğuliyyət bəyənilir, təqdir olunur. Bəs nədən bəzi adamlar həyatdan zövq almaq üçün spirtli içki, qumarbazlıq və narkotik kimi dağıdıcı, yıxıcı yola baş vurur, oğurluğa, fırıldağa, zorakılığa qurşanır, yaltaqlıq edir, rüşvətxor olur, pis yollara düşür? Çünki hamı, hər kəs məmnuniyyət, məna və həyəcan axtarışında olduğu halda, məqsədə doğru aparan yollar fərqlidir. Seçim şəxsiyyət, tərbiyə, mədəniyyət, biogenetika, imkanlar və sosial mühit kimi amillərlə müəyyən olunur. Risk həyəcanı, güclü duyğular dağa dırmanmaq və ya paraşütlə tullanmaqla da əldə edilə bilir, cinayətkar fəaliyyətlə də.

Özünə və başqalarına zərər verən vərdişlər niyə cəlbedicidir? Onlardan asılılıq necə yaranır? Bu çox mühüm sualların cavabı sadə deyil...[6]. Yaradıcı, qurucu zövqlər adətən ciddi səy, zəhmət tələb edir: dil öyrənmək və ya musiqiçi olmaq illər çəkir, dağa dırmanmaq üçün təlim

6.Təkamül nəticəsində beyin vacib saydığı işlərə qiymət və mükafat verən bir sistem inkişaf etdirdi. Bu sistemin mühüm bir iştirakçısı həvəs, öyrənmə, hərəkət, diqqət və yaddaşı tənzimləməyə kömək edən dopamin adlı kimyəvi daşıyıcıdır. Potensial bir həzz siqnalı (məsələn, sevilən yeməyin qoxusu) gələndə beyin dopamin ifraz edir və bu həzzi yaşamaq istəyi artır. Kitab oxumaq, dadlı yemək və ya musiqi alətində çalmaq kimi gündəlik işlərlə müqayisədə narkotik, qumar, alkoqol və bəzi riskli işlər daha çox dopamin vücuda gətirir və güclü həyəcan hissi yaradırlar. Ani, dərhal baş verən məmnunluq sevilir, neyləmək olar?! Bu təsir qısaömürlü olduğundan, insan onu təkrarlamaq istəyir. Zamanla beyin yüksək dopamin artımına uyğunlaşır, nəticədə eyni maddə və ya davranış daha az təsir yaradır və insan əvvəlki təsiri yaşamaq üçün daha böyük dozaya ehtiyac duyur. Beləliklə insanın təbii həyat tərzi dəyişir, həzzi anında artıran maddə və davranışdan asılılıq əmələ gəlir

və fiziki güc lazımdır, sevgi dolu bir münasibət qurmaq səbr istəyir, nüfuzlu bir alim olmaq onilliklər tələb edir. Sağlam məşğuliyyət və yaradıcı iş (məsələn, yaxşı bir roman oxumaq) tez, anında zövq verə bilir, lakin daha davamlı bir məmnuniyyət və xoşbəxtlik hissi üçün uzun zaman sərf etmək və böyük zəhmət çəkmək tələb olunur. Zərərli vərdişlər isə sürətli həyəcan, nəşə, asan pul, qayğılardan ani qaçış kimi xoş vədlər verir, lakin uzunmüddətli və dağıdıcı, məhvedici zərərə aparır. Az zəhmətlə və ya zəhmət çəkmədən sürətli sərvət, sosial mövqe, təsir gücü əldə etmək, hakimiyyətə çatmaq fikri, təbii olaraq, cazibədar görünür.

Digər tərəfdən, qumara qurşanmağın, spirtli içki və ya narkotik maddələrdən istifadə etməyin səbəbi çox vaxt onları sevməklə deyil, tənhalıq, qayğı, narahatlıq, ruhi sıxıntı (depressiya), darıxma, ümidsizlik kimi duyğulardan qaçmaq cəhdi ilə bağlıdır.

Yol seçmək məsələsində sosial mühitin rolu danılmazdır. İnsan ətrafındakıları təqlid edir. Əgər bir gənc kitabın sevə-sevə oxunduğu, musiqinin qiymətləndirildiyi, idmanın təşviq edildiyi bir yerdə böyüyürsə, o, çox güman ki, həmin sahələrdən həzz alacaq. Əksinə, korrupsiyanın adi hal olduğu, zorakılığın təqdir edildiyi, alkoqol və ya narkotiklərin yayıldığı bir yerdə böyüyürsə, bu cür davranışlar ona adi, hətta arzu olunan kimi görünə bilər.

8

Boşananda Durnanın 32 yaşı vardı. O, özünü iki körpəsini böyütməyə həsr etdi, nikbin təbiəti onun köməkçisi oldu. Əlbəttə, anası və qardaşının diqqət və qayğısı hər mənada mühüm idi. İş həyatına başladı, özünü ələ aldı - "uşaqlarımın xoşbəxt və sevgi dolu evdə böyüməsi üçün ağlamağı tam dayandırdım, əslində ağlağan deyiləm".

Qadının gözəlliyi onun iş həyatında əngəl törədə bilir. Durnanın xüsusi təlimlərdən keçib əlverişli işə başlamaq niyyəti baş tutmadı, idarənin direktoru ona göz kəsildi. Durna nə etdisə direktor gözünü çəkmək istəmədi. Kimə şikayət etsin? Etsə də adı çıxacaq, dedi-qodu yaranacaq. Abrını qorumaq üçün bu namussuz adamdan aralanmaq lazımdır; yeganə aralanmaq yolu işi tərk etməkdən ibarət oldu. Həm zəhməti hədər getdi, həm psixoloji sarsıntı keçirdi.

Mehdi adlı bir uzaq qohum arvadından ayrılmışdı, iki övladı vardı. Evlənməmişdən əvvəl Durnanın bacısı ilə evlənmək istəmiş, bir müddət gəlib-getmiş, evlilik baş tutmamışdı. İndi qohumluqdan istifadə edib Nabat xanımın yanına gəlir, ona hədiyyələr gətirir, Durnanı, yaşca ondan xeyli kiçik olan bu gözəl qadını ələ almağa çalışırdı. Maddi vəziyyəti xeyli yaxşı olduğuna və qohumluğuna güvənir, "dörd uşağımız var, biri də olar, beş uşağa atalıq edərəm" deyə gah Nabata, gah da Durnanın özünə girişir, vədlər verirdi. Durna onu yaxın buraxmırdı, ondan heç xoşu gəlmirdi, "nə istəyir bu yekəqarın, bacımı ala bilmədi, utanmaz-utanmaz indi də mənə göz dikib". Nabat:

--Qızım, son sözünü de, ya hə, ya yox, axır biz də rahat olaq, o da. Qohumdur, ayıbdır, gəlib-gedir, özü də avara olur, bizi də əldən salır,- deyəndə Durna gülə-gülə cavab vermişdi:

--Ay ana, de əl çəksin bizdən. İki uşağı zorla böyüdürəm, birdən-birə dörd uşaq anasımı olum deyirsən? Hələ beşincini də istəyir. Onunla ortaq bir marağım da yoxdur, onun öz dünyası, mənim fərqli öz dünyam var. Həm də, ay ana, düzü balaca boy, yekəqarın kişilərdən heç xoşum gəlmir. Öldür məni, beləyəm, neyləyim?!.

Bir müddət keçdi, uşaqlar məktəbə getdilər. Durna onlarla məşğul olur, dil, ədəbiyyat, tarix dərslərini özü izləyir, riyaziyyat və fizika dərslərinə qardaşı Araz kömək edirdi. Yuxarı siniflərdə kimya, biologiya və ingilis dili üzrə uşaqları dərsdən əlavə müəllim yanına göndərirdi. İşə də düzəlmişdi, böyük bir idarənin mətbuat şöbəsində çalışırdı, maaşı çox olmasa da, işindən xoşu gəlirdi.

Durnanı bir ad günü məclisində Elvin adlı bir mədəni gənc kişi ilə tanış etdilər. Elvin cərrah idi, heç evlənməmişdi, Durnadan iki yaş kiçik idi. Xasiyyəti və davranışı yaxşı idi.

Amma Elvinin bir nöqsanı vardı – dərdə qalan, qayğıkeş deyildi. Bəlkə elə bu səbəbdən gec qalmış, evlənməmişdi. Elvində uşaqlara qarşı maraq və rəğbət görməyən Durna məyus oldu. Sevə-sevə iki uşaq böyüdən ana övladları ilə uyuşmayan heç kimi yaxın qoya bilməzdi. Söhbətləri tutsa da, fikir ayrılığı üstün gəldi.

9

Durnanın Aslanla uzaqdan tanışlığı isə davam etdi. Aslan haqqında bacısından eşitdikləri, sosial mediada rast gəlinən məlumat, müsahibə, şəkil və videolar onun ağıllı və ləyaqətli adam olduğunu göstərirdi. Durna özündən asılı olmadan maraqla Aslanı izləməyə, onun xəyalı ilə yaşamağa başladı. Amma xəyalının bir gün gerçəyə dönə biləcəyi barədə düşünmür, buna bir əsas görmürdü. Bir gənc qadın uzaqdan tanıdığı, haqqında gözəl şeylər eşitdiyi, internetdə tapa biləcəyi hər şeyi oxuduğu, baxdığı və görünüşünə, danışığına, davranışına heyran olduğu bir kişi haqqında hansı fantaziyalara sahib ola bilər? Tovuz ona Aslanın evli olduğunu da, arvadının bir rus xanım olduğunu da danışmışdı. Durna o qadının zaman-zaman vətəni Rusiyaya qayıtdığını, bir müddət orada qaldığını da eşitmiş, öz-özünə "bu necə ər-arvadlıqdır" - deyə düşünmüşdü.

Durna Aslanın kimlik simasını – görkəmini, səsini, zəkasını, davranışlarını, uğurlarını bilir, lakin adi şəxsi həyatda, evdə, işdə, məclisdə onun necə olduğunu bilmirdi. Biliklərin olmadığı boşluqları adətən fantaziya doldurur. Nəticə etibarilə, Durnanın illər boyu pərvazlanan heyranlıq və xəyal gücü Aslan adlı bir ideal yaratmağa yönəlmişdi...

...Hər ikimiz evliyik. Bu gerçəklik xəyalımı qudurmağa, həddini aşmağa qoymur, məhdudlaşdırır, çərçivəyə salır. Amma... Nə olardı təsadüfən onunla görüşüb uzun söhbət edəydim; o çox ağıllıdır, mən də yaxşıyam və ona pərəstiş edirəm, deməli, bir-birimizi yaxşı başa düşərdik. Mənim onda gördüyüm müstəsna sifətləri görəsən arvadı onda görə bilirmi? Bu insan məni həqiqətən tanısaydı necə olardı? Görəsən o, məni maraqlı və cəlbedici hesab edərmi?! Mənim vəziyyətimi anlayar, ərimdən fərqli olaraq məni dinləyərdi yəqin... Evliliyimə sadiqəm, onun heyranı olsam da, xüsusi yaxın münasibət arzusunda deyiləm. Amma... Əstəğfürullah, Allah məni bağışlasın. Yuxumu, axı, özüm idarə etmirəm, yuxuma qeyri-mümkün xəyali yaxınlıqlar girir. Bəzi ehtirasları boğmaq lazımdır. Yuxudan bir suç duyğusu ilə oyanıram.

...Mən boşandım, o hələ də evlidir. Simmetriya pozulub. Tənasüb pozulub. Mən yeni münasibət üçün sanki müsaidəm, o, yox. Əlçatmazdır. Amma o kişidir, mənə yaxınlaşıb "müsaidənizlə" deyəydi. Məyusluq və tənhalığıma həsrət də əlavə olundu. Əgər şərait fərqli olsaydı... Əgər əvvəllər tanış olsaydıq, görüşsəydik... Əgər bir gün o da azad olsaydı... Diqqətini çəksəydim, birlikdə vaxt keçirsəydik, hörmət və... sevgi görsəydim... Ümid və sevgi hər şəraitdə yaşaya bilir. Eh! Xəyalım qanad açsa da, gerçəklik onun qanadlarını sındırır. Şair demişkən "Xəyal ilə gerçək həyat tutuşaydı əl-ələ"[7].

...Boşandı! Nəhayət! Hər ikimiz subay, hər ikimiz azad! Onu çox xəyal etmişəm, indi onu görmək, onunla görüşmək mümkündür, zamanı çatıb. Yenə şair demişkən, "Xəyalımı tərk et, yavrum, vüsal həsrətindəyəm"[8]. Görəsən görüşsək bir-birimizi istərdikmi, bəyənərdikmi? Nədən danışardıq? Dost olardıq, yaxşı dost! Sevgi, birlik, evlilik?! Onun yanında xəyalən özümü əsl qadın kimi görürəm - gözəl, ağıllı, üzüyola, eyni zamanda başa düşülən, bir az

7. "Xəyal ilə gerçək həyat tutuşaydı əl-ələ". Hamlet İsaxanlı. Təzadlar. Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2001. "Fələyin işi" qəzəlindən, səh. 96

8. "Xəyalımı tərk et, yavrum, vüsal həsrətindəyəm". Hamlet İsaxanlı. Təzadlar. Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2001. "Vüsal həsrətindəyəm" qəzəlindən, səh. 95

macəraçı. Amma... hər ikimiz evli olanda da və mən subay o evli olanda da xəyalım qarşısında heç bir maneə, heç bir qorxu dayana bilmirdi. Çünki o gerçək olsa da, uzaqdaydı, əlçatmazdı, qeyri-mümkün idi, xəyal idi. O məni rədd etmirdi, rədd edə bilməzdi, məni tanımırdı ki, rədd etsin! İndi? İndiki mövcud kişi, mən ona məftun olsam da, birdən məni rədd etdi?! Ay Allah, deyəsən əvvəlkindən daha qorxulu vəziyyətə düşdüm...

Onunla necəsə, nə vaxtsa görüşsəm, yəqin ki, çıxışlardan, fotoşəkillərdən, internetdən, müsahibələrdən və yazılardan qurulmuş möhtəşəm bir fiqurla öz vərdişləri, əhval-ruhiyyəsi, cürbəcür tərcihləri və bəzi zəif cəhətləri olan bir insan arasında qalacam. Necə olacaq?! Münasibət mümkün olmayanda mükəmməl fantaziya ilə yaşayırdım, münasibət imkanı yarananda isə gerçəklik fantaziyanın belini qırır, gözünü aç, ətrafa bax deyir.

Mən onunla görüşməsəm də, onu yaxından tanıdığımı düşünürəm, çünki onun haqqında geniş məlumata malikəm. O isə mənim haqqımda heç nə bilmir. Böyük qeyri-bərabərlik. Hansı qarşılıqlı yaxınlıqdan söhbət gedə bilər?!

10

Boşandıqdan sonra tək qaldığını "evlənmək istəmirəm", "evlənə bilmirəm", "sevə bilmirəm", "bir dəfə sevdim, bəs elədi" kimi sözlərlə əsaslandıran insan, yəqin ki, bir şeyi unudur: qarşına ürəyinə tam yatan və səni istəyən adam çıxsa, evlənəcəksən və ya onunla birləşəcəksən - nə mənadasa.

Sevgi aclığı, sevimli təmas qıtlığı insanı dramatik şəkildə məhv etməsə də, açıq şəkildə yandırmasa da, daha səssiz bir acıya yol açа bilir - insanı tənhalıq, məyusluq, davamlı bir kədər, əsəbilik və ya duyğulardan əksik qalan həyatın doğurduğu yarımçıqlıq hissi bürüyür. İnsanların fərqli olduğunu da qəbul etmək lazımdır - bəziləri yeni sevgi münasibəti arzusunda ikən, digərləri ailədə, dostluqda, işdə, yaradıcılıqda, inanc və ya tənhalıqda məmnunluq tapırlar.

Orta yaşlı gözəl bir qadın heç evlənməmişsə ya boşanmışsa və ya əri vəfat etmişsə, ənənəvi şərq mühitində o, çətin vəziyyətdədir. Belə qadın nə "gənc və evlilik gözləyən" hesab olunur, nə də cəmiyyətin qəbul etdiyi güvənli "ərli arvad" kimliyinə malikdir. Ona yaxınlaşan kişilərin niyyətləri fərqli ola bilər. Biri səmimi olaraq evlilik və yoldaşlıq axtarır. O biri qadına qarşı qeyri-müəyyən hiss bəsləyir, maraq göstərir. Biri gizli, öhdəliksiz bir münasibət istəyir. O biri qadının tənhalığından istifadə edir, onun yalnızlığını istismar edir - bunun bədəlini özünün deyil, qadının çəkəcəyini yaxşı bilərək.

Qadının gözəlliyi ona göstərilən diqqəti artırır, amma əsas məsələ gözəllik deyil. Əsas məsələ yetkin bir qadının şəxsi həyatı ilə cəmiyyətdəki "abırlı qadın" anlayışı arasındakı ziddiyyətdir.

Dul qadından ölən ərinə əbədi olaraq sadiq qalması gözlənilə bilər. Boşanmış qadına ədalətsiz yanaşıla bilər, sanki boşanma onun xarakterində bir qüsur olduğunu sübut edir. Heç vaxt evlənməmiş bir qadın isə maraq və ya şübhə ilə izlənilir. Vəziyyətlər fərqli olsa da, cəmiyyət hər üç qadını eyni narahatedici sinfə yerləşdirir: əri olmayan, münasibətləri kişi və ya ailə nəzarəti altında olmayan bir qadın. Bənzər vəziyyətdə olan kişilərin istəklərinə etiraz etməyən cəmiyyət bu qadınların istəklərini xoş qarşılamır. Ədalətsizlik bu asimmetriyadadır. Cəmiyyət yetkin qadının vəzifələrini müəyyən edir, amma onun istəklərini, arzularını çox tanımır; qadının ana, dul qadın, bacı və ya hörmətli qohum olmasını bəyənir, lakin onun şəfqətə, sevgiyə və kiminləsə paylaşılan bir həyata ehtiyacı olduğunu tanımaqdan çəkinir. Qadının yalnızlığını ləyaqət və ya sədaqət sayanlar bir kişi ilə dostluq etmək, münasibət qurmaq barədə seçim hüququna şübhə ilə yanaşırlar.

Kişi qadının yanına gələ bilir, eşqbazlıq edə bilir, vədlər verə bilir və nüfuzuna çox xə-

ləl gəlmədən geri çəkilə bilir. Qadın isə sadəcə kişi ilə dost ünsiyyətindən başlamış hər hərəkətinə görə qınana bilir. Dedi-qodu, şayiə- sübut tələb etmir; bir neçə görüş, telefon danışığı və ya kiminsə onları birlikdə görməsi kifayət edə bilir.

Qohumların narahatlığı da mürəkkəb və eyni zamanda anlaşılandır. Valideyn, bacı-qardaş və digər yaxınlar əzizləri qadının aldadılacağından və ya alçaldılacağından həqiqətən qorxa bilərlər. Lakin bu qayğı asanlıqla nəzarətə çevrilə bilir. Onlar tək qadının özünü deyil, bəlkə daha çox ailənin adını, nüfuzunu qoruyurlar ("adımızı batırma"). Bu vəziyyətdə qadının istəkləri "xalq nə deyər?" sualı yanında ikinci plana atılır. Adətən qadının kişi ilə tanışlığına sevinməyən qohumlar, ona yenidən evlənmək üçün məqbul bir yol da təklif etmirlər və ya edə bilmirlər. Bu qayda xüsusilə dul qadın üçün də sərtdir. Sadiq dul kimi yaşayan bir çox qadın, hətta tənhalıqla barışmış kimi görünən də, ölmüş ərinin xatirəsinə səmimi qəlbdən sadiq qalmaqla birlikdə yeni kişi, bir həyat yoldaşı arzulaya bilər. Belə duyğunun varlığı ölən ərə xəyanət deyil; xatirə və yeni sevgi bir arada var ola bilir, bir-birini istisna etmir, yeni olan keçmişi, xatirələri silmir.

11

Xəfif yağış yağır, çisələyirdi. Durna şəhərə qayıtmışdı və bu barədə Aslana xəbər verməli olduğu yadında idi. Lakin düşünürdü ki, "Özümü bir az ağır, səbirli aparsam pis olmaz. Görüş arzusunda olsam da, tələsməyim, tələsən təndirə düşər. Qoy təşəbbüs Aslandan gəlsin, onun görüş istəyində olması, şükür allaha, şübhə doğurmur". Aslan telefonda Durnaya sual göndərdi:

--Bu yağışlı havada nə edirsən?

Durna rahat cavab verdi:

--Rayondan qayıtdıq. Evdə oturub pəncərədən yağışı izləyirəm. Sizə yazmadım ki, narahat edərəm birdən.

--Ay Durna xanım, sənin yazın məni necə narahat edə bilər?! Əksinə, sevindirər. Havaya gəldikdə isə... Sənlə ünsiyyət hər havada xoşdur - boran, tufan qopsa belə.

Durna sevinc nidası ilə cavab verdi:

--Oy! Nə gözəl dediniz!

Aslan məqsədyönlü şəkildə təzyiqi artırdı - Durnanın bundan ancaq xoşlanacağını düşünərək; amma vaxt məsələsini Durnanın öhdəsinə buraxdı, qoy o seçsin, o həll etsin, onun dediyi olsun:

--Nə vaxt mənimlə şəhərdə gəzmək istəsən – gündüz olsun ya gecə, yağış olsun ya qar, ya günəşli hava – mənə xoşdur. Sadəcə de – nə vaxt, harada?

Və sual işarəsindən sonra gül işarəsi qoydu. Durna xoşallandı, lakin özünü saxladı, Aslan kimi zilə qalxmadı:

--Yaxın günlərdə gəzə bilərik.

Cavab gözləmədən arxasınca yazdı:

--Yağışlı günləri yola verək, sonra gəzinti üçün uyğun vaxt və məkan seçərik.

Aslan söhbəti xoş atmaca ilə bitirdi:

--Yağma yağış!

Yağış iki gün dalbadal dayanmaq bilmədi. Şəhəri su basdı. İkinci gün

Aslan özündən biixtiyar olaraq zarafatyana

--Küçələrə su səpmişəm, yar gələndə toz olmasın. [9]

Yazıb dalınca əlavə etdi:

--Bağışla su bir az çox olub.

9. "Küçələrə su səpmişəm, yar gələndə toz olmasın." Məşhur xalq mahnısının ilk beyti

Durnanın cavabı da bu ruh halına uyğun oldu:
--Həm də lap çox.

12

Yağış Bakıda həmişə xüsusi, gözlənilməyən, istisna bir təbiət hadisəsi sayılıb. Bakı və onun yerləşdiyi Abşeron yarımadası Qafqazda ən az yağış düşən yerdir. İri Sovet şəhərləri arasında Bakı ən quraq şəhər kimi tanınırdı. Bu səbəbdən Bakıda yağış yağanda sevinirdilər. İndi vəziyyət dəyişib. Bakıda tez-tez yağış yağır. Yağır, özü də necə yağır! Şəhəri batırır.

Suda iz qalmır deyirlər, amma su iz salır, bəzən istəniləndən çox böyük iz...

Yağış davamlı və ya şiddətli olanda şəhər su ilə dolur, küçə, məhəllə və yolları sel bürüyür, hərəkət gücə düşür. Bakı göydən gələn suları - Bakıda bu digər yerlərlə müqayisədə az olsa da - həzm edə bilmir. Bakının havadan, göydən, daha doğrusu yağan yağışdan müdafiə sistemi zəifdir. Burada sanki yerlə göy arasındakı əvvəlki tarazlıq pozulub. Güclü ya davamlı yağış Bakını iflic edir, sel suları, göllər, gölməçələr şəhəri ağuşuna alır, hətta bazar və qəbristanlıqlardan da su altında qalanlar olur. Bir çox evlərin damı yağışa davam gətirmir, yağış tavanı isladıb əvvəlcə damlalarla, sonra şırıltı ilə yerə, döşəməyə tökülür. Ümumilikdə gecəsi - gündüzü təhlükəsiz olan bu yaraşıqlı şəhərdə sel təhlükə yaradır, çox təəssüf ki, nadir hallarda olsa da, həyatını itirənlər də olur. Xoşbəxtlikdən (burda bu söz yerinə düşürsə), Xəzər dənizinin səviyyəsi qalxmır, əks halda - Xəzər yağışla ittifaq qursa, bəlkə Bakı Venetsiya kimi su içində bir şəhərə dönərdi.

Bakının əvvəlki ləqəbini dəyişdirmək zamanı çatıb; Bakıda deyəsən külək azalır, yağış artır, onu Badi-Kubə, yəni "Küləklər şəhəri" deyil, Barani-Kubə, yəni "Yağışlar şəhəri" adlandırmaq lazımdır, bəlkə də Küləklər və Yağışlar Şəhəri?!

Bakıda yerin, hətta dənizin dərinliklərindən neft və qaz çıxarmağı bacarırlar. Yəni burada yerin də, suyun da tək üstünü deyil, altını da yaxşı bilirlər. Lakin Bakının yerüstü təbii suları və sulu tullantıları öz içinə alan, onları aramla lazımi yerlərə axıtmalı olan yeraltı şəbəkə, yəni kanalizasiya sistemi çox köhnədir, zəifdir, yan-yana sıx dayanan yeni yüksək mərtəbəli evlər qarşısında aciz qalır.

Şəhərin yağışa qarşı zəif müqaviməti təbii olaraq "səbəb nədir?" və "günah kimdədir?", "kimdir müqəssir?" kimi suallar doğurur. Cavab axtaranların təmkinli qismi iqlim dəyişmələrini əsas kimi göstərir. Dillərdə isə "günah buludlardadır", "yağış ona qoyulmuş normanı aşır, normadan artıq yağır", "rüşvət alan məmurlardır şəhəri bu günə salan", "eybi yoxdur, su aydınlıqdır" kimi ifadələr, atmaca və zarafatlar dolaşır. Millətin dərdinə yananlardan biri sel zamanı qadınlar arasında daha çox tələfat olduğunu böyük həssaslıqla müşahidə etmiş, bunun səbəbini də dəqiq göstərə bilmişdi: qadınlar ağaca yaxşı dırmaşa bilmədikləri üçün onları sel daha çox aparır. Bəs nə etməli, millətimizin zərif qismini sel-sulardan necə qorumalı? Görünür ki, bu həyati vacib məsələnin yeganə həll yolu var: qadınlara ağaca dırmaşmaq təlimi vermək lazımdır!

13

Görüş intizarında qovrulan Aslanın səbri tükəndi, Durnaya yazdı: "Gəl elə yağışlı havada gəzək bir az. Yağışdan niyə qorxaq ki?!". Durna da səbrsizliklə görüşə getməyə tələsirdi, Aslanın dediyi ilə razılaşsa da, vaxt istədi: "Bu gün səhər diş həkimində idim, bərk-bərk tapşırıb ki, ən azı bir gün evdə ol, soyuğa vermək olmaz. Bəlkə sabah?". Aslan oynaq, duzlu cavab verdi: "Səhhətimizi qorumaq borcumuzdur".

Razılaşdılar. Aslan adəti üzrə vəziyyətə uyğun işvəli bir ifadə yazdı – "Bu gecə sabahı gözləməklə məşğul olacam", bu da bəs etmədi və Polad Bülbüloğlunun "Gəl, ey səhər"

mahnısını göndərdi. O, bu yolla görüşə hazırlıq mərhələsini mükəmməl şəkildə keçir, Durna ilə özü arasındakı məsafəni azaldırdı. Səhər yuxudan oyanan kimi Durnaya Yalçın Rzayev və Flora Kərimova duetinin ifasında "Bakı, sabahın xeyir" mahnısını göndərdi. Söz və musiqinin vəhdəti insanı duyğulandırmaq, həyəcanlandırmaq üçün ən yaxşı vasitədir. Mobil telefonu çox da sevməyən, onu bir müddət rahatca unuda bilən Aslan özündən asılı olmadan tez-tez telefona baxmağa, uzun gecə yazışmalarına başladı.

İşdən sonra, axşam üstü görüşməyi şərtləşdilər. Aslan soruşdu: "Sənə hara rahatdır?" Durna lətif üzüyolalıq nümayiş etdirdi: "Sizin seçəcəyiniz hər hansı yer!" Aslanın "İçərişəhər" metrosunun qarşısında olarmı?" fikrinə Durna "əla!" nidası ilə cavab verdi.

Aslan öz-özünə düşündü: "Tələbə vaxtım ya sonrakı gənclik dövrüm olsaydı, qız-qadınla tanışlığı qətiyyən belə cəsarətlə başlayıb, belə templə, sürətli addımlarla irəli apara bilməzdim. İndi yaşım əlliyə yaxınlaşır, artıq təcrübəliyəm deyə bilərəm. Durna məndən kiçikdir, yaşını dəqiq bilmirəm, yəqin 40-ın bir az üstündədir. Durna ilə, heyranı olduğum bu xanımla, çox cəsur rəftar edirəm - lazım gəldiyindən artıq, bəlkə də ifrata varıram. Ayıb olsun mənə?! Amma mənə cəsarət verən tək vurğunluğum və ondan doğan çılğınlıq deyil. Həm də Durnanın çox xoşqılıqlı xanım olması, şirinliyi, bir məlahət dəryası olmasıdır. Mənim söz və davranışlarıma hörmətlə yanaşır desəm az olar – yox sözünü işlətməməyə çalışır, buyurun deyir, yanındakını eşidir, sözləşmə və görüşə həvəs göstərir, gülərüzdür". Aslan gülümsədi: "Günah həm məndədir, həm də Durnada. Onda daha çoxdur – belə gözəl olasan və az naz edəsən."

Fikir Aslanı gənclik illərinə apardı.

14

1990-cı illər Azərbaycan xalqı üçün həm azadlıq, həm də qeyri-müəyyənlik dövrü idi. Sovet İttifaqının süqutu müstəqilliyə və ümidə qapı açdı, lakin müstəqillik iqtisadi böhran, qıtlıq, siyasi qeyri-sabitlik, şəxsi təhlükəsizliyin zəifləməsi, mütəşəkkil cinayətkarlığın artması, müharibə və köçkünlük kimi ağrılarla birlikdə gəldi. Eyni hadisəni biri faciə, digəri azadlıq kimi qiymətləndirirdi. Sabit Sovet dövrü üçün həsrət çəkənlər də az deyildi. Yeni, cəmiyyətin görünməmiş utancverici, ağrılı mənzərələri üzə çıxdı - qapı-qapı gəzən, yalvarıb-yapışan elm və sənət adamları əmələ gəldi, aparıcı misrası "Dilən, professor, utanma, dilən..." olan şeir yazıldı[10].

Bakıda qış axşamları tək günəşin batması ilə deyil, həm də elektrik enerjisinin hər an sönə biləcəyi gözləntisi ilə gəlirdi. İşıqlar sönüncə televizorlar verilişlərin ortasında qaralır, Bakı da qaranlığa bürünür, şəhərin pəncərələri isə tədricən şam və kerosin lampalarının işığı ilə dolurdu. Şamlar və kibrit üzdə, əl çatan yerdə hazır saxlanılırdı. Uşaqlar titrəyən sarı alovlar altında, şam işığında ev tapşırıqlarını yerinə yetirməyi öyrəndilər. Soyuq qış gecələrində ailələr qızınmaq üçün tək bir otaqda toplaşırdılar. Nənə və babalar əvvəl keçdikləri çətinlikləri xatırlayaraq, gənc nəsli çətin günlərin keçəcəyinə inandırmağa çalışırdılar. O ağır dövrün uşaqları uzun və məsum uşaqlıq həyatı yaşamadılar, o illərdə uşaqlıq tez başa çatırdı.

İnflyasiyaya görə dəyərini itirən maaşlar, sürətlə dəyişən qiymətlər, işsizlik və qıtlıq, mənzil çatışmazlığı valideynləri narahat edirdi; oğul və qızlarını necə bir gələcək gözləyirdi?! Lakin bu qayğıları uşaqların yanında açıq şəkildə büruzə verməməyə çalışırdılar. Analar əldə edilən kiçik nemət üzərində qeyri-adi ixtiraçılıq qabiliyyəti nümayiş etdirir, gündəlik möcüzə göstərir, qıtlığı bolluğa çevirməyi bacarırdılar. Geriyə baxanda, o illəri yaşayan bir çox insan təkcə çətinlikləri deyil, o zaman yaranan yaxınlığı da xatırlayır - qaranlığın ailələri

10. Aparıcı misrası "Dilən, professor, utanma, dilən..." olan şeir şair və ədəbiyyatçı alim Famil Mehdi tərəfindən 1990-cı illərin əvvəllərində yazılıb

şam işığı ətrafında eyni otağa toplaması, qıtlıq içindəki səxavət və qonaqpərvərlik, nələri varsa onları bölüşən mehriban qonşular, masaya qoyulan çay stəkanlarının səsi, daha yaxşı günlərin gələcəyinə bəslənən dərin inam…

1990-cı illər həm də həvəs, macəra, enerji və kəşf illəri oldu. Gənclər azadlığı daddılar, "ağlına və ağzına nə gəlir – de, danış, nə istəyirsən oxu, yaz" dövrü başlandı. Ölkənin dünyaya açılmasını yaşadılar, Qərbi daha yaxından tanıdılar, xarici dillərə, xüsusilə ingilis dilinə maraq kəskin surətdə artdı, yaxın-uzaq səfərlər və xaricdə təhsil almaq imkanları yarandı. Get-gedə kompüter, internet, mobil telefon və digər yeni texnologiyalarla qarşılaşdılar və valideynlərin həyatından fərqli həyat yaşamaq fikri möhkəmləndi. Qabiliyyəti və zəhməti ilə iş quranlarla yanaşı, "Xandəmirov kimi mahalı çalıb-çapan qurumsaq"lar[11] artdı, xalqa, dövlətə aid olanı mənimsəyib varlananlar çoxaldı. Cəmiyyətdə qütbləşmə kəskinləşdi - çox zənginlər və çox kasıblar, mühafizəkarlar və inqilabçılar meydana çıxdı.

1990-cı illər gənclər və ümumiyyətlə xalq üçün həm də dözümlülük, uyğunlaşma, sınaq və ümid məktəbi oldu. Qeyri-müəyyənlik də vardı, həyəcan da. İnsan həyatın qəfil və kökündən dəyişə biləcəyini dərk etdi. Anlaşıldı ki, əzmkarlıq insanın sahib ola biləcəyi ən vacib qabiliyyətdir. İnam yarandı ki, çətin dövr, nə qədər davam etsə də, əbədi olmayacaq, bir gün bitəcək. Bolluğun öyrədə bilməyəcəyi bəzi dərslər də mənimsənildi: qeyri-müəyyənlikdə səbir, çətinlikdə ləyaqət mühümdür, həyatda ailə bağlarının davam etməsi həlledici gücdür.

Dövrün çətinliyinə baxmayaraq, ailələr öz istiliyini, qonaqpərvərlik və nikbinliyini qoruyub saxladılar. Toylar oldu, uşaqlar dünyaya gəldi, şagird və tələbələr məzun oldu və dostluqlar davam etdi. Gənclər hələ də Xəzər dənizinin kənarındakı Bulvarda gəzirdilər. Dostlar hələ də gecəyə qədər çay süfrəsində toplaşaraq siyasət, futbol, ədəbiyyat, musiqi və qeyri-müəyyən gələcək haqqında mübahisə edir, fikir yürüdürdülər.

Keçid dövrünün ağır yükünü daşıyanlar eyni zamanda gələcəyin təməllərini qoydular.

15

İqtisadi çətinliklərlə üzləşən valideynlər övladlarının işlə təmin olunması, xüsusilə təhsillərini davam etdirmələri üçün fədakarlıq edirdilər. Aslanın böyük qardaşı Ruslan Rusiyada oxumuş, dissertasiya müdafiə etmişdi. Özü çox imkanlı olmasa da, ailəyə, o cümlədən Aslana maddi və mənəvi köməyini əsirgəmirdi. Ataları vəfat etdiyi üçün ailənin qayğıları hamıdan əvvəl Ruslanın üzərinə düşmüşdü. Ruslan 1990-cı illərin çətinliklərini aşmaq üçün Türkiyəyə yola düşdü. Aslan təhsil aldığı ədəbiyyat fakültəsinin son ilində Ruslanın yaxşı tanışı olan Qara kişinin inşaat şirkətində işə girdi. Qara kişi mehriban və dünyagörmüş şəxs idi, Aslanın qabiliyyətini və dürüstlüyünü görüb onu kağız-kuğuz işlərində çalışdırır, eyni zamanda inşaat işini daxildən hərtərəfli anlaması üçün ona əlavə tapşırıqlar verirdi.

Zəmanətli məşğulluq dövrü, yəni hər insanı işlə təmin edən Sovet dünyası geridə qalmışdı. Biriləri "Sovet İttifaqı birdən-birə, bir gecədə yox oldu" deyərkən, digərləri "bu dövlətin uzun illərdir yox olmağa getdiyini görmürdünüzmü?" deyə uzaqgörənlik iddiası nümayiş etdirirdilər. Təhsilini çətin şəraitdə davam etdirən bir çox gənc özünü dolandırmaq, bəlkə ailəsinə də kömək etmək üçün təhsillə yanaşı, bir iş tapmağa çalışırdı. Çoxları dövrün meydana atdığı ticarət, kiçik biznes və ya qeyri-rəsmi məşğulluğa baş vurdu. Aslanın yoldaşları arasında mağaza və restoranlarda iş tapanlar oldu. Onlar Aslanı "burda iş var, çətin deyil, gəl" deyə çağırsalar da, Aslan "o işi bacarmaram" cavabı verib hələlik inşaatda işləməyi seçdi. İşlə yanaşı, təhsilini uğurla davam etdirdi. Zamana xas olan bütün çətinliklərə baxma-

11. "Xandəmirov kimi mahalı çalıb-çapan qurumsaq"lar: Qasım bəy Zakirin "Xandəmirov çaldı-çapdı mahalı / O ki var tutub özün keçəl qurumsaq" beytinə işarədir. Xandəmirov Şuşa şəhərinin komendantı idi

yaraq, ölkədə bilik istəyi azalmırdı; təhsil yaxşı gələcəyə aparan etibarlı yol, dəyəri itməyən sərvət sayılmaqda davam edirdi.

Ali təhsilini uğurla başa vurduqdan sonra Aslan sevdiyi sənətinə uyğun iş tapmaq arzusu ilə yaşayır, lakin mövcud işini də səliqə ilə görməyə çalışırdı. Orta məktəbdə və ali məktəb dövründə çox mütaliə etsə də, dünya ədəbiyyatı bitməz-tükənməz bir dərya olduğundan əldə qələm-dəftər hələ oxumadığı əsərləri oxuyur, bunu xoşbəxtliyi dadmaq, həyatdan zövq almaq yolu sayırdı.

Anası Sima xanım Aslanın da iştirak etdiyi ailə məclislərində ortaya söz atmaqdan yorulmurdu: "Oğlum, maşallah, ağıllıdır, yaraşıqlıdır, hər şeyimiz var, nəyimiz əksikdir ki?! Bir əksikliyimiz varsa, o da gəlindir. Bir gəlin istəyirəm, varı-dövləti maraqlandırmır məni, yaxşı ailədən olsun, abırlı-həyalı olsun, mənim balamı sevsə bəsimdir". Aslan çox zaman susur, tək-tük hallarda bir-iki söz deməklə canını qurtarırdı. Axırıncı dəfə isə daha açıq danışdı:

--Ay ana, canım ana, sənin qardaşlar və bacımız qarşısında çəkdiyin zəhmət o qədər böyükdür ki, biz nə etsək də, səni qızıla bürüsək də, əvəzini çıxa bilmərik. Hələlik səni çox sevməklə kifayətlənirik. Gələcəkdə imkanımız artanda da baxarıq sənə necə qulluq edə biləcəyik?! Amma məni evləndirmək fikrindən, xahiş edirəm ki, əl çək. Mənim nə yaşım, nə işim, nə vəziyyətim evlənməyə uyğun deyil. Saqqal qoymaq dəb olub, amma mən onu da bacarmıram. Hə, vacib bir şeyi də deyim: indi, hazırda çox sevdiyim bir qız yoxdur. Bir də, ay ana, sən demiş, bir abırlı-həyalı qızın məni sevməsi kifayətdirmi evlənmək üçün? Mən də onu sevməli deyiləmmi?!

Dövrün iqtisadi və sosial şəraiti evlilik və ailə həyatına da təsir edirdi. Mənzil çatışmazlığı, işsizlik və maliyyə qıtlığı üzündən evliliyi təxirə salırdılar. Müstəqil yaşamaq fəlsəfəsini seçənlər evlənmək məsələsində "özü-özünü saxlaya bilmək" gücünə malik olmağı əsas sayırdılar. Yeni ailə həyatına başlayanlar isə əsasən valideyn və qohumlarının dəstəyinə güvənirdilər.

16

Bir çox gənclər həyatlarını daha yaxşı qurmaq üçün yaşadıqları doğma yerdən digər bir yerə köçmək fikrinə düşürdülər. Təhsil və iş sorağında kəndləri tərk edərək, Bakıya köçənlər çox idi. Qarabağ münaqişəsi səbəbindən məcburi köçkünlər ölkəni bürüdü. Bir çox ailələrin yaşlı və ya gənc üzvləri iş ümidi ilə Rusiya, Türkiyə və digər ölkələrə getdilər. Könüllü və ya məcburi köç bütöv bir nəslin tərcümeyi-halında xüsusi yer tutdu. Bəlkə də o dövrün, o nəslin ən yaddaqalan və ağrılı təcrübəsi ayrılıq zülmünü, "aman, yaman ayrılıq"[12] hissini yaşamaq oldu.

Ruslanı yola salanda kiçik qardaş və bacısı böyük qardaşın onları tərk etməsini kədərlə izləmişdilər. Deyəsən, Aslanın növbəsi çatmışdı. Onun çalışdığı inşaat şirkəti güclü rəqabət və tenderlərin ədalətli aparılmaması üzündən get-gedə daha az sifariş aldı, zəiflədi və bəzi işçilərini ixtisar etməli oldu. Aslan ixtisar olunanlar sırasında olmasa da, yaxşı işçi sayılsa da, şirkətin sahibi Qara kişi ilə münasibəti çox yaxşı olsa da, vəziyyəti qiymətləndirib yeni iş axtarmağı qərara aldı. Elə bu zaman ali məktəb yoldaşı Allahverdi ona zəng etdi, Rusiyada, bu yaxınlarda adı köhnədəki kimi Sankt-Peterburq olmuş Leninqrad şəhərində ticarət şirkətində işləyirmiş, "İstəyirsən, gəl, burda iş imkanı çoxdur, mən işlədiyim yerdə də, başqa yerlərdə də uyğun bir iş tapmaq mümkündür. Gəlsən yaşayış yeri problem deyil, mənimlə qala bilərsən", - dedi. Dostunun sözləri Aslanı ciddi şəkildə düşündürdü.

12. "Aman, yaman ayrılıq". Ayrılıq mahnısının "Ayrılıq, ayrılıq - aman ayrılıq / Hər bir dərddən olar, yaman ayrılıq" beytinə işarədir

Sima xanım bir ana kimi, tam bacarmasa da, göz yaşlarını gizlətməyə çalışırdı. Vidalaşarkən qısa məsləhət verilirdi: "isti geyin", "diqqətli ol", "canına-başına yaxşı bax", "özünü qoru", "tez-tez yaz", "mümkün olan kimi zəng et". Aslan da borclu qalmır, vəd edirdi: "tezliklə qayıdacam","işlər yaxşılaşan kimi", "lap uzağı bir-iki il".

Gedənlərin çoxu belə deyir və illər keçir, vədlərin çoxu yerinə yetirilmirdi.

Kağız parçalarına yazılmış ünvanlarla və yaxşı gün görmək arzusu ilə, varlanmaq, çox varlanmaq xəyalı ilə Azərbaycandan Rusiyaya köçən insanlar iş olan hər yerdə, mərkəzdəki və ucqarlardakı şəhər və qəsəbələrdə məskən saldılar. Bəziləri tikinti, fabrik və ya nəqliyyatda, digərləri ticarət, bazar və restoranlarda işə girdilər. Bir çoxu ixtisas və təcrübəsindən aşağı işlərdə çalışmağa məcbur oldu. Rusiyadan Azərbaycandakı ailəyə göndərilən pul təhsil, toy, evin təmiri, müalicə və gündəlik ehtiyacların ödənməsinə sərf olunurdu.

Vətəndən uzaq düşən hər kəs kimi Aslan da iki dünya arasında yaşamağı öyrəndi: geridə buraxdığı doğma dünya ilə hələ tam alışa bilmədiyi yeni, yad dünya arasında. Aslankimilər yeni dil, adət-ənənə və peşələr öyrənməklə yanaşı, hara getsələr də, qəlblərində bir nisgil daşıyır, yer-yurd, dogma ev, ailə, qohum, tanış və dost xatirələri ilə yaşayırdılar. Vətəndəki ailə və dostlar da uzaqdakı yaxınlarının həsrətini çəkirdilər. Rusiyadan zəng gələndə telefonun ətrafına toplaşan ailə üzvləri danışıqdan daha çox uzaqdan gələn doğma səsi eşitməklə təskinlik tapırdılar.

Allahverdi Aslanı dostcasına qarşıladı, işə girmək üçün tələsməməyi məsləhət gördü: "Qardaşının yanında, öz evindəsən". Aslanı şəhərlə, öz azərbaycanlı, rus, tatar yaxınları ilə tanış etməyə başladı. Allahverdi evlənməmişdi, tək yaşayırdı. O, bazar-ticarət işi ilə məşğul olur, özünü də dolandırır, az da olsa, Bakıdakı valideynlərinə də kömək edirdi.

17

Aslanın istiqanlılığı, rus dilini və rus ədəbiyyatını yaxşı bilməsi, yeri gəldikcə ədəbiyyatdan, xüsusilə poeziyadan maraqlı nümunələr söyləməsi, alkohollu içkilərdən uzaq durması, bunlarla yanaşı, utancaqlığı və bir qədər çəkincənliyi Allahverdinin tanışları, o cümlədən qızlar arasında gündən-günə onun hörmətini artırırdı. Qısaca Sveta dedikləri Svetlana - görünüşü, şirinliyi və sakitliyi ilə seçilən qız ətrafdakı gənclərdən fərqli görünən Aslana çox maraq yetirdi. O da öz növbəsində Aslanın diqqətini cəlb etdi. Qısa zamanda bir-birinə isinişdilər. Evdən gətirdiyi pulu qənaətlə xərcləmək, iş tapana qədər onunla kiyayətlənmək fikrində olan Aslan Svetaya çox yaxınlaşmır, onunla ancaq bir dəstə yar-yoldaşın toplaşdığı yerlərdə görüşür, gəzməyə və yeyib-içməyə getməkdən qaçır, Svetanın sevdiyi kinoteatrlara üz tutmaqdan mümkün qədər çəkinirdi: "Özüm qazanmadığım, evdəkilərin boğazlarından kəsib göndərdikləri pulu kefə sərf edə bilmərəm". Azərbaycandan gələn bu oğlanın qabiliyyəti, təvazökarlığı və təmizliyi Svetanı valeh etmiş, qız Aslana o dərəcədə bağlanmışdı ki, gözünə ondan başqa heç nə görünmürdü.

Bu arada Aslan Bakıdan, vaxtilə işlədiyi inşaat şirkətinin sahibi - "Qara dayı" dediyi Qara kişidən məktub aldı. Aslanın xeyirxahı olan, onu oğlu kimi sevən Qara kişi yazırdı ki, Sankt-Peterburqdakı bir türk inşaat şirkəti inşaat işinə həvəs göstərən, rusca danışıb-yazmağı bacaran və sənədləşmə işlərini bilən adam axtarır. Qara dayı Aslanı yada salıb onu şirkətə tərifləmiş, Aslanın özünə də "oğul, istəyirsənsə gedib orda işləyə bilərsən" deyə bir yol açmışdı.

Aslan ədəbiyyatçı olsa da, ədəbiyyatı çox sevsə də, Qara kişinin yanında inşaat işinin də çox maraqlı olduğunu anlamışdı; bu işlə məşğul olmaq ona xoş gəlirdi. Şirkət rəhbəri onu qəbul etdi, söhbətləşdilər, nəticədə Aslanı işə götürdülər. Şirkət onu iş yerinə yaxın bir yerdə bir otaqlı sadə mənzillə təmin etdi. İndi Aslan özünü "adam kimi" hiss etdi, ilk maa-

şından az da olsa anasına göndərdi. O, tarix kitablarında haqqında çox oxuduğu, eləcə də Puşkin, Qoqol, Dostoyevskiy, Axmatova kimi məşhurların əsərlərində uzaqdan tanıdığı, ruhunu duyduğu bu mədəniyyət və inqilablar şəhərini daha yaxından öyrənməyə başladı. Buludlu, yağışlı havasını sevməsə də ("hayıf deyil Günəşli Bakı?!"), bu şəhərin Fin körfəzi, Neva çayı, Neva prospekti, məşhur Ermitaj muzeyi və yaşıl, ağ, sarı-qırmızı dəmir rəngləri ilə bəzənmiş Qış sarayı, Rus muzeyi, açılıb-örtülən metal Saray (Dvortsovıy) körpüsü kimi yerləri, abidələri öyrənir, müşahidə edirdi. İsakiyev kilsə-muzeyi və onun qarşısındakı Böyük Pyotrun (və ya 1-ci Pyotrun) tunc heykəli (Puşkin bunu "mednıy vsadnik", yəni "mis atlı" kimi ifadə etmişdi[13]) önündə dayanır, fikrə dalırdı. Sonra şəhərdən qərbdə, Fin körfəzinin cənub sahilində yerləşən sarı-ağ bina, fəvvarələr və qızılı heykəl-fiqurlarla süslənmiş Peterqofu görməyə getdi. Boş vaxtını Sveta ilə keçirir, bir çox yerləri Sveta ilə birlikdə gəzirdi.

Aslanın ədəbiyyat və incəsənət, tarix və mədəniyyət üzrə geniş biliyi və danışıq qabiliyyəti Svetanı heyran etmişdi, bərabər gəzərkən Aslanın qoluna girib ona sıxılırdı. Aslan bəyaz gecələrə o dərəcədə vurulmuşdu ki, həmin vaxtlar Sveta ilə birlikdə şəhərdə, xoşuna gələn yerlərdə gəzməkdən həzz alır, bəzən evə səhərə yaxın qayıdırdılar. Aralarında isti münasibət yaranmış, bir-biri üçün darıxır, bir-birindən uzaqda dura bilmir, bəzən Aslanın mənzilində bərabər gecələyirdilər. Sveta Aslanı öz anası ilə tanış etdi. Sveta 11 yaşında olanda anası atasından ayrılmış, Svetanı anası böyütmüş, oxutmuşdu. Sveta bir dəfə Aslana "Dünyada ən çox sevdiyim iki insan var – anam və sən" demişdi.

Bir bəyaz gecədən sonrakı bazar günü günortaya yaxın Sveta rəngi qaçmış halda Aslanın yanına gəldi. Svetanın yazıq görkəmi Aslanın diqqətindən yayınmadı, onu qucaqlayıb öpdü, "Nə olub, elə bil kefin yoxdur" dedi. Sveta doluxsundu, Aslanın nəvazişi onu daha da kövrəltdi. Başını aşağı dikdi, sonra dikəlib bir az da qorxa-qorxa nəmli gözlərlə Aslanın üzünə baxdı: "Hamiləyəm", - dedi.

Evli olmayan bir qızın öz rus millətindən deyil, uzaq Azərbaycandan, fərqli adət-ənənəsi olan müsəlman ölkədən gəlmiş bir oğlanla yaxınlığı və bu yaxınlıqdan doğan hamiləlik... Bu işin axırı nə olacaq? Bu sual, bu qeyri-müəyyənlik qızı əldən salmışdı. Anasının nə deyəcəyi onu çox maraqlandırmırdı, nə deyəcək ki?! Bəs oğlan, Aslan buna nə deyəcək? Ondan da çətin olan sual - oğlanın ailəsi, tez-tez yada saldığı anası nə deyəcək?...

18

Durna ilə görüşə hazırlaşarkən öz gənclik illərini, Sankt-Peterburqun yağışlı, çənli-çiskinli havasında keçirdiyi günləri xatırlayan Aslan köksünü ötürdü. Bu köksötürmə bir tərəfdən indiki təkliyi ilə, digər yandan isə İstanbulda yaşayan qızı Sara ilə bağlı idi.

...Bəs Sveta? Ona nə oldu? Sveta "hamiləyəm" deyəndə Aslan çaşdı. Bu necə oldu? Niyə? Belə olacağını heç düşünməmişdi. Xoşuna gələn qız ilə yaşadığı şəhvani hisslər, qızın da heç müqavimət göstərməməsi onun gözünü bağlamış, ehtiraslı gənc kimi hərəkət etmiş, uşaq sadəlövhlüyü ilə nəticə barədə düşünməmişdi. Sveta Aslanın çaşdığını, fikrə getdiyini görüb qorxdu. Aslan sual verdi:

--İndi nə etməliyik?

Sveta gözü yaşlı halda:

--Nə edə bilərik ki? Heç nə. Hamiləyəm.

Aslan hamiləliyi yarımçıq kəsmək, xalq dilində deyilsə, "uşağı saldırmaq" barədə eşit-

13.A. S. Puşkinin 1833-cü ildə yazdığı və "Peterburq povesti" kimi təqdim etdiyi "Mednıy vsadnik", yəni "Mis atlı" poeması

mişdi, bunun o qədər yaxşı şey sayılmadığını da bilirdi:

--Anan bilirmi?

--Hə.

--Nə dedi?

--Dedi get Aslana de. Evlənməlisiniz.

Aslan dillənmədi, başı ilə razılıq işarəsi verdi. Sveta Aslanın düşündüyünü, açıq deməsə də, bir az tərəddüd etdiyini hiss etdi:

--Aslan, mənim xalam hamiləliyini cərrahiyyə yolu ilə dayandırıbmış. Nəsə yaxşı olmayıbmış. Daha hamilə ola bilmədi, övladsız qaldı. Mən qorxuram. Sən valideynlərdən utanıb çəkinirsən, başa düşürəm. Amma nə edə bilərik?!

Aslan onu qucaqlayıb öpdü:

--Bağışla, Sveta! Hamiləyəm deyən qadını həmən qucaqlayıb öpmək lazımdır. Sadəcə, bu mənim üçün gözlənilməz oldu. Evli olanda adətən hər şey qayda ilə, ardıcıl baş verir. Nişan-toy olur, ortaq ər-arvad həyatı başlanılır. Bir evdə yaşanılır. Və bir gün arvad hamilə olduğunu duyur və ərinə xəbər verir. Əri çox sevinir, sevincindən "uşağım olacaq" deyə qışqırır. Ailədə hamı sevinir, gəlinə diqqət və qayğı artır. Mən belə görmüşəm, belə eşitmişəm. Bizim bir mühüm fərqimiz var : evli deyilik. Səndən nə gizlədim, biz tərəflərdə belə iş – evlənməmiş uşağı olmaq qınanır. Amma qəti ürəyinə qara fikir gəlməsin. Mən evimizə, anama xəbər verəcəm. Əvvəl gedək yaxındakı anamızla, sənin ananla görüşək.

Aslan Svetanın anasına "qızınla evlənmək istəyirəm" deyə müraciət etdi. Sonra Bakıya, anası Sima xanıma zəng etdi, evlənmək istədiyini və qızın kim olduğunu bildirdi. Sima xanım əvvəl susdu, heç nə deyə bilmədi, nəhayət, "Ay oğul, mən tanımıram, nə deyim, dilini də bilmirəm, necə danışım onunla?!" - deyə kəskin etiraz etməsə də, sevinmədiyini biruzə verdi, - " Qardaşınla danış, gör o nə deyir?" Əhvalatı duyan Ruslan Türkiyədən zəng etdi, Aslan Svetanı tərifləməklə yanaşı, hamiləlik məsələsini deyib vəziyyəti tam açıqlığı ilə qardaşına başa saldı.

Qızları doğuldu. Rusiyada da, Azərbaycanda da anlaşılan bir ad olsun deyə adını Sara qoydular. Sankt-Peterburqla Bakı arasında gediş-gəliş başladı. Azərbaycanda vəziyyət stabilləşməkdə idi, Aslan nəhayət, vətənə qayıtmaq qərarına gəldi. Üstəlik, o, şimalda oxuyub-yazıb ipə-sapa düzdüyü elmi maraqlarını da Bakıda davam etdirmək fikrində idi. Bu fikri Sveta yaxşı qarşılamadı, "Mən anamı necə tək qoyum?" deyə müqavimət göstərdi. İki il gediş-gəlişdə oldular, Sveta get-gedə daha çox anasının yanında qalmağı üstün tutdu. Onu Bakıda Aslanın ailəsi yaxşı qarşılamışdı, şərait də pis deyildi, lakin get-gedə artan cismani uzaqlıq ər və arvadı bir-birinə bağlayan telləri zəiflətdi, gözəgörünməz etdi. Sveta qızı Sara və anası ilə birlikdə Sankt-Peterburqda yaşamağa davam etdi. Aslan gedib-gəlir, Saranı zəruri olan hər şeylə təmin edir, ona Azərbaycan türkcəsini öyrətməyə çalışırdı. Get-gedə gediş-gəliş də azaldı. Aslan Svetadan, sanki əziyyət çəkmədən, daha sürətlə aralandı. Ər-arvadlıq beləcə öz-özünə, açıq inciklik ifadə etmədən, davasız-şavasız sona çatdı.

Sara orta məktəbi bitirəndə Aslan onu ali təhsil almaq üçün Türkiyəyə apardı; bu işdə Ruslanın köməyi həlledici oldu. Sara ingilis dili və ədəbiyyatı ixtisası üzrə ali təhsilə başladı, Türkcəni yaxşı öyrəndi. Özünün dediyinə görə, ibtidai səviyyədə olsa da, Azərbaycanca bilməsi ona İstanbul türkcəsini daha tez qavramağa kömək etdi, sonralar isə, özünün dediyi kimi, bu dəfə xeyli öyrəndiyi İstanbul türkcəsi Azərbaycancanı daha yaxşı anlamasına yardım etdi. Aslan Sara ilə sıx əlaqə saxlayır, İstanbula, onun yanına gedir, ona maddi və mənəvi kömək göstərməyə çalışırdı. Tətil zamanı gah anasının, gah atasının yanına gedən Sara get-gedə Türkiyə-Azərbaycan mühitinə daha çox bağlandı...

Aslan gəncliyində indi Durnaya bəslədiyi kimi qızğın, yandırıb-yaxan sevgi yaşamamışdı. O, belə görünür ki, gənclik ehtirasını içində qoruyub saxlamışdı və indi bu ehtiras qəfil vulkan kimi püskürürdü.

Uğursuz sevgi yaşamış və ya evliliyi nə səbəbdənsə pozulmuş kişi olsun ya qadın, bil və agah ol ki, "həyat davam edir, hələ heç nə bitməyib".

19

Dumanlı, çiskinli hava idi. Elə bil ki, havadan xırda damcılar asılmışdı. Sonra çisələmə, narın yağış başladı. Yüngül, incə yağış gücləndi, gurultusu artdı və davamlı oldu. Yağışın yuduğu və parıldatdığı küçələr nazik su axınları və gölməçələrlə doldu. Aslan avtobus dayanacağının dar örtüyü altında dayanıb yağışın nazik gümüşü cizgilər şəklində yağmasını izləyirdi. Quru qalmağa çalışmamışdı, damcılar saç tellərinə hopmuş, başlıqlı gödəkçəsi islanıb qaralmışdı. Yağış onu narahat etmir, əksinə düşüncələrinə yoldaş olur, sanki onları yüngülləşdirir və yavaşladırdı. Baxışları uzağa, qeyri-müəyyənliyə zillənmişdi. O, gözləyirdi. Damlalar saat tıqqıltısı kimi vaxtı sayırdı. Axşam işıqlarının parıltısı daş və asfalt döşəmələrdən əks olunub ətrafa paylanır, çökək yerlərə dolmuş sularda titrəyirdi.

Durna küçənin o biri tərəfindən, yağış və maşın işıqları arasından onu, xəyallarına hakim kəsilmiş kişini yarı qaraltı şəkildə gördü. Evdə bu anı uzun-uzadı xəyal etmişdi.

Aslan da Durnanı, yağışın içində hərəkət edən tanış bədəni gördü. Xoşuna gələn bu xanımı sözlərdən hördüyü tora salan, özünü təcrübəli sayan, buna haqqı olan kişi arzu etdiyi qadını görəndə nədənsə bir anlığa çaşdı, donub qaldı, bilmədi nə etsin, sonra gülümsədi.

Onlar, ikisi üçün də gözlənilməz bir təsadüf nəticəsində, kövrək tellərlə bir-birinə bağlanmışdılar. Nə vaxta qədər? Məlum deyil. Kövrək olan şey qopub qırıla da bilər, bərkiyə də bilər. Onlar axşam üstü, yağış altında əvvəlcədən planlanmış ilk görüşə gəlmişdilər. Qədərin cilvəsi görəsən onlarla oyunmu oynayır, yoxsa onları ciddi bir sınağamı çəkir?

Aradakı küçədən maşınlar keçir, təkərlər yaş asfaltda səs salırdı. Durna yolu tələsmədən keçib bir qədər tərəddüdlə yaxınlaşdı, sanki addımları ilə yağan yağışın səs ahəngini poza biləcəyindən qorxurdu. Aslan ona doğru hərəkət etdi, iki əli ilə Durnanın əllərinə toxundu, başının hərəkəti və yüngül təbəssümlə salam verdi. Durna salamı alıb "Çətir götürməyibsiniz, islanıb, allah eləməmiş xəstələnərsiniz" deyib çətirini yüngülcə ona tərəf yaxınlaşdırdı. Aslan "Çətiri sevmirəm, şıdırğı yağış yağsın ya Günəş göydən alov yağdırsın, çətir götürmürəm" dedi. Durna yaxın durdu ki, onlar çətir altında yanaşı dayansınlar, çiyinləri bir-birinə toxundu. Bir qədər susdular. Uzaqdan, ismarışlar vasitəsilə bir-birinə çox yaxınlaşmış, indi isə üz-üzə görüşə gəlmiş qadın və kişiyə nə olub, niyə belə sakit dayanıblar? Bəlkə ətrafdakı bulanıqlıq onları tutub?! Onların əvəzinə aram-aram yağan yağış danışırdı. Yağış bir az mülayimləşdi, sanki sözü onlara vermək, onlara qulaq asmaq istəyirdi. Sükutu Durna pozdu:

--Bu yağışda necə gəzmək olar? İndi nə edək?

Aslan özünə gəlmişdi, dili açıldı:

--Mən yağışı sevirəm, bu qəribə görünsə də. Bax, biz yağışda görüşdük, yağış bizə mane oldumu? Yox. Əksinə, yağış aramızda cismani və ruhi yaxınlıq yaratdı, eyni vaxtda islandıq, bir çətir altında birləşdik, çiyinlərimiz, əl-qolumuz bir-birinə toxundu...

Durna diqqətlə qulaq assa da, səssiz qalmadı, mülayim, eyni zamanda atmacalı sual qoydu:

-Mən də sizin kimi çətir götürməsəydim? Bəs onda? Bizi nə birləşdirəcəkdi?!

Aslan gülümsədi, Durnanın fəallığı xoşuna gəldi, söz güləşdirmir, sözlə oynayır:

--Bir ağac altında birləşə bilərdik. Çətir paylaşmaq da, birlikdə islanmaq da, elə birlikdə sığınacaq yeri axtarmağın özü də birləşmək, yaxın olmaq deyilmi?!

Durna başını qaldırıb Aslana baxdı:

--Gözəl sözlərdir, adam duyğulanır.

Aslan yağışa himn oxumağını davam etdirdi:

--Yağış yağmasa sənlə görüşün mənə necə xoş olduğunu bəlkə belə rahat deyə bilməyəcəkdim...

Durna söhbətin ruhunu tutdu:

--Sağ olsun yağış! Düz deyirsiniz. Amma yağış bəzən elə bil ki, qırılğanlıq, tənhalıq, yalnızlıq duyğularına da yol açır, xüsusən də yağışı tək, yalnız başına seyr edərkən, aydın bir səbəb olmadan adamı bir kədər bürüyür...

Aslan bunu gözləmirdi, Durnanın belə incə müşahidə qabiliyyətinə malik olduğu onda bir qədər təəccüb doğurdu və əlbəttə, çox xoş oldu. O, öz yağış fəlsəfəsini (bir qədər mücərrəd olsa da) və hisslərini söyləməyə daha da həvəsləndi, yaxşı həmsöhbəti vardı:

--İndi bizim daha azad insan olduğumuzu hiss edirsənmi?

-Necə yəni?

--Yağışda, insan görünüşə daha az əhəmiyyət verir. Nəzarət ortadan qalxır, insan daha azad olur. Bax, mən bu gün, bu görüşdə, bu yağışda sənə bağlandığımı daha yaxşı hiss etdim.

Durna qaşlarını qaldırdı:

--Necə yəni?

Aslan ürəkdən güldü. Hər ikisinin içində bir rahatlıq qərar tutmuşdu.

-Gəl gəzək, - dedi Aslan.

--Harada?

--Harada olur- olsun.

Çətir hələ də onların üstündə idi, amma əyilmişdi, öz işini tam görmürdü. Çətir kişi və qadın birliyini, bu nəfis həqiqəti tam örtməkdə aciz qalmışdı. Yağış kəsənə oxşamırdı, lakin bu onları rahatsız etmirdi. Yağış onlar arasında sakit, səssiz bir anlayış yaratmışdı. Aslan əvvəlcə tərəddüdlə, sonra qəti şəkildə Durnanın əlindən, sonra qolundan tutdu. Aydın bir istiqamət seçmədən, plan qurmadan, tələsmədən, yavaş addımlarla yeridilər, əl və qolları bir şəkildə bir-birinə qarışmışdı. Birlikdə yağışın içinə doğru getdilər, sığınacaq axtarmadılar, əksinə yağışı qəbul etdilər; yağış tək-tük sözlərin və sözə çevrilməyən duyğuların şahidi oldu. Ətraf onlara uzaq, demək olar ki, əhəmiyyətsiz görünürdü. Səma daha yaxın, daha ağır, daha səmimi hiss olunurdu. Maşınlar keçir, insanlar tələsir, Yer kürəsi öz oxu ətrafında fırlanır, amma bu çətirin altında zaman dayanmış kimi görünürdü.

20

Durna və Aslan arasında "Qatdama" əməliyyatı ilə müəyyənləşib cazibə gücü qazanan qarşılıqlı istək uzun telefon yazışmaları ilə qarşısıalınmaz bir sevda axınına döndü.

Mobil telefon bəlli məkanda üz-üzə oturub danışmağa imkanı olmayanlara uzaqdan, məsafədən - hərə öz yerində, öz məkanında olmaqla üz-üzə oturmağa, danışmağa, ünsiyyəti görünməmiş dərəcədə gücləndirməyə imkan verdi.

Durna və Aslan mobil telefonun yaratdığı bütün vasitələrdən – sözlü və səsli məlumat ötürmək, keçirdikləri hisslərə və sözlü ifadələrə uyğun gələn mahnı və şəkillər göndərməklə tanışlığı qadın-kişi dostluğuna döndərdilər, rəğbətdən, istək və arzudan məhəbbətə doğru hərəkət etdilər. Yağışlı gündə baş tutan görüş isə onları birləşdirdi, sevgi telləri ilə bir-birinə bağladı. Yağış duyğulara qanad verdi, hər şey daha canlı, daha sürətlə hiss olundu. Yağış bir-birinə meyl edən kişi və qadını yaxınlaşdırdı, "buyurun, yaxşı-yaxşı tanış olun, deyin, danışın, gülün" - dedi. Yağış uzandıqca sanki yağışda gəzən sevgililər arasında körpüyə çevrilir.

Aslan yağışdan sonra taksi ilə yola saldığı Durnaya yazdı:

--Çatdınmı evə?

Durna çatdığını deyib sual verdi:

--Sizi yağış yenə islatdımı? Mən taksidən düşüb evə çatana qədər, az da olsa, yağışa düşdüm.

Aslan görüşə hazırlıq zamanı və yağışlı görüş vaxtı başladığı yarı üstüörtülü eşq elanının üstünü açmağa başladı, hər halda bunu yazışma vasitəsilə etmək üz-üzə söyləməkdən bir qədər asan idi, "üz üzdən utanar" deyiblər. O, "sevgi" sözünü işlətməkdən çəkinmədi:

--Mən içimdəki sevgi yağışından başqa heç bir şey hiss etmədim.

Durna daha təmkinli və ya daha həyalı münasibət bildirdi:

--Yağışı sevdirdiniz mənə. Elə bil bu dünyadan qopub başqa bir dünyaya səyahət etdim.

Aslan qızğınlığı azaltmadı:

--Sənin əvəzin yoxdur.

--Bu nə deməkdir?

--Bu birmənalıdır, sən bənzərsizsən.

Durnanın etirazı möhkəm olmadı:

--Mən elə düşünmürəm, amma danışıq tərziniz elədir ki, nə desəniz adamın inanmağı gəlir, eyni zamanda adam utanır öz-özündən.

Aslan dayanmadı:

--Sənin utanıb-qızarmağın, təbii utancaqlığın ilk görüşümüzdə məni valeh etdi, üstəgəl təbəssüm, gözəllik, həm də soyuq, quru, ölü gözəllik deyil, həyat dolu, şux gözəllik! Bunu sənə demişdim. Adamlar indi çox az hallarda utanırlar, utanmazlıq aləmi bürüyüb. Dediyim "Sənin əvəzin yoxdur" sözünə inan, bunu tam ürəkdən deyirəm, düşündüyümü deyirəm. Bəsdir, yordum səni.

İçi sevgi ilə dolu olan Durna bu yerdə insafa gəldi:

--Əksinə, sizinlə söhbət çox xoşdur, adamın ruhu dincəlir.

Aslan əməlli-başlı coşmuş, gözləri, davranış və danışığı ilə eşqini bəyan edir, soyumaq bilmirdi. Ürəyində, telefon yazışmalarında və üz-üzə görüşlərdə Durnaya vurğunluğunu sözlə zinətləndirir, bunu qədərindən artıq etdiyini də görür, lakin özünü saxlaya bilmir, davam edirdi.

Durnanın həmən xoş cavab verməsi, aradakı bağlılığı təsdiq edən sözləri də Aslana qol-qanad verirdi:

--Durna xanım, səni görəndə həyəcan bürüyür məni, bağışla belə açıq danışdığıma görə.

Durna da az aşın duzu deyildi:

--Qarşılıqlıdır. Mən də görüşümüzün təsiri altındayam.

--Sən daha incə, daha mədəni, üz qızartmayan deyiliş tapdın. Sağ ol! Nə olaydı qonşu olaydıq, sevdiyim "qonşu qız" mahnısını[14] oxuyardım. Hayıf ki, aramızda böyük məsafə var, kilometrləri deyirəm.

Durnanın ruh oxşayan etirazı və oynaqlığı aradakı məsafəni yox etdi:

--Məsafə niyə problem olarmış?! Üstəlik, eyni şəhərdə!

Bu gözəl fikir Aslanı zilə qaldırdı:

--Bax bu yerdə, bu cür sözlərə görə "sənin əvəzin yoxdur" demək tam yerinə düşür! Bu şəhərə xoş gəlmisən! Bu şəhərə mən səndən də əvvəl gəlmişəm. Nə yaxşı ki, ikimiz də bir dünyada, bir planetdə, hətta bir şəhərdəyik!

(Davamı növbəti nömrədə)

14. "Qonşu qız" mahnısı. Söz: Hüseyn Arif (Hüseynzadə), musiqi: Ələkbər Tağıyev

İNGİLTƏRƏNİN SOUTHAMPTON UNİVERSİTETİNDƏ TƏHSİL ALAN DOKTORANTIN SEMİNARI

Xəzər Universitetinin Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi və Təhsil departamentinin təşkilatçılığı ilə sentyabrın 28-də doktorant Fatimə Vəliyevanın "Ali təhsildə beynəlmiləlləşmə: maraqlı tərəflərin baxışları və Azərbaycan konteksti" mövzusunda seminarı keçirilib.

Fatimə Vəliyeva "2022–2028-ci illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında İngiltərənin Southampton Universitetində Təhsil ixtisası üzrə doktorantura təhsili alır.

Seminar zamanı ali təhsildə beynəlmiləlləşmənin əsas istiqamətləri, bu prosesdə müxtəlif maraqlı tərəflərin rolu və yanaşmaları, eləcə də beynəlmiləlləşmənin Azərbaycan ali təhsil sistemi kontekstində xüsusiyyətləri müzakirə olunub. Məruzədə tələbə və müəllim mobilliyi, beynəlxalq akademik əməkdaşlıq, tədris proqramlarının beynəlxalq məzmunla zənginləşdirilməsi, elmi-tədqiqat tərəfdaşlıqlarının genişləndirilməsi və ali təhsil müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətinin artırılması kimi məsələlərə toxunulub.

Təqdimat zamanı beynəlmiləlləşmə prosesinin uğurlu həyata keçirilməsində universitet rəhbərliyi, akademik heyət, tələbələr və digər maraqlı tərəflər arasında əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Eyni zamanda, beynəlxalq təcrübənin yerli institusional və sosial-mədəni kontekstə uyğunlaşdırılmasının vacibliyi qeyd olunub.

Seminar iştirakçıların sualları və mövzu ətrafında fikir mübadiləsi ilə davam edib.

SEMINAR BY PHD STUDENT STUDYING AT UNIVERSITY OF SOUTHAMPTON, ENGLAND

A seminar by PhD student Fatima Valiyeva, titled "Internationalization in Higher Education: Stakeholder Perspectives and the Azerbaijani Context," was held on September 28, organized by Khazar University's Graduate School of Science, Art and Technology and the Department of Education.

Fatima Valiyeva is pursuing doctoral studies in Education at the University of Southampton, England, based on a tripartite agreement between the Ministry of Science and Education of the Republic of Azerbaijan and Khazar University, within the framework of the "State Program on Increasing the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2022–2028."

During the seminar, the main directions of internationalization in higher education, the roles and approaches of various stakeholders in this process, as well as the features of internationalization in the context of Azerbaijan's higher education system, were discussed. The presentation touched on issues such as student and staff mobility, international academic cooperation, enriching curricula with international content, expanding research partnerships, and increasing the international competitiveness of higher education institutions.

During the presentation, the importance of cooperation among university leadership, academic staff, students, and other stakeholders in the successful implementation of the internationalization process was emphasized. At the same time, the importance of adapting international experience to the local institutional and sociocultural context was noted.

The seminar continued with questions from participants and an exchange of views on the topic.

"ALMANİYADA TƏHSİL" MÖVZUSUNDA İNFORMASİYA SESSİYASI

INFORMATION SESSION ON "STUDYING IN GERMANY"





Dilbər Zeynalova

Xəzər Universitetində İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə sentyabrın 21-də Alman Akademik Mübadilə Xidmətinin (DAAD) Azərbaycandakı nümayəndəsi

A seminar titled "Studying in Germany" was organized at Khazar University on September 21, by the German Academic Exchange Service's (DAAD) representative in Azerbaijan,





Klaudio Kasper

Klaudio Kasper tərəfindən "Almaniyada təhsil" mövzusunda seminar təşkil olunub.

Seminar çərçivəsində tələbələrə Almaniya universitetlərinə müraciət qaydaları, bakalavr və magistratura səviyyələri üzrə təhsil imkanları, həmçinin, DAAD-nin təqdim etdiyi təqaüd proqramları və müraciət şərtləri haqqında ətraflı məlumat verilib. K. Kasper tələbələrin suallarını cavablandıraraq, gələcək akademik planları üçün faydalı tövsiyələrini bölüşüb.

Claudio Kasper, under the organization of the Faculty of Economics and Management.

As part of the seminar, students were provided with detailed information on application procedures for German universities, educational opportunities at the bachelor's and master's levels, as well as the scholarship programs offered by DAAD and the conditions for applying. K. Kasper answered students' questions and shared useful recommendations for their future academic plans.



Regina Dürig *Qardaşxan Əzizxanlı*

BİR ANIN İÇİNDƏ VAR OLMAĞIN GENİŞLİYİ

(Regina Dürig Qardaşxan Əzizxanlı poeziyası haqqında yazır)

Azərbaycanda yayımlanmış "Qadınlar və daşlar" (Frauen und Steine) kitabının müəllifi alman əsilli isveçrəli yazıçı Regina Dürig vətənə qayıtdıqdan sonra Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Qardaşxan Əzizxanlıya məktub yazıb. Xatırladaq ki, o bu ilin aprel ayında İsveçrə səfirliyinin xətti ilə ölkəmizə gələrək, bir sıra görüşlər keçirib, eyni zamanda, Xəzər Universitetində olub. Fikirlərinin fəlsəfilik və obrazlılıq yönümündən maraq doğura biləcəyini düşünərək, Reginanın məktubunu dərc edirik.

Bil (Biel), 3 iyun 2026- cı il

Əziz Qardaşxan,

Bakı haqqında çox danışdığım, hadisələrlə və məşğuliyyətlə dolu bir neçə həftədən sonra, nəhayət, bu gün fürsət tapıb sənin kitabındakı tərcümə olunmuş şeirləri oxudum. Kitab mayın əvvəlində artıq Frankfurtda bacımın və balaca bacım qızının yanında idi, amma orada o qədər çox oynamaq, tapmaca həll etmək və əl işləri ilə məşğul olmaq lazım gəldi ki, diqqətimi cəmləyib oxumağa vaxt olmadı. Bu həftəsonu Kristianla birlikdə Vallée de Joux-dayıq – İsveçrə ilə Fransa sərhədində yerləşən, gölü olan, həqiqətən ecazkar, sakit və füsunkar bir vadidə. Kristian burada yaşayan bir dostu ilə birlikdə artıq bir neçə ildir eksperimental musiqiyə həsr olunmuş üçgünlük festival təşkil edir.

Dünən mən improvizasiya edən musiqiçilərdən ibarət bir ansamblla çıxış etdim, yəni musiqinin müşayiəti ilə mətnlər oxudum və bu mənə böyük zövq verdi. Bu səhər gəzintiyə çıxdıq və yolboyu dağ keçiləri bizi dönə-dönə maraqla süzürdülər; mən indiyədək vəhşi təbiətdə bir belə dağ keçisini bu qədər yaxından görməmişdim. Elə bil biz insanlar onlar üçün heç bir təhlükə deyildik; bəlkə də əksinə, ehtiyatlı olmalı olan tərəf elə biz idik.

Qədim buzlaq gölünün sakitliyi, artıq demək olar ki, yayı xatırladan parlaq bahar, dinc heyvanlar – bütün bunlar sənin şeirlərinin ovqatı üçün tam uyğun bir mühit idi! Mən o şeir-

lərdə güclü bir işıq həsrəti duyuram. Yüngüllük, aydınlanma və nicat mənasında bir işıq. Son vaxtlar demək olar ki, hər gün öz-özümə sual verirəm: insan laqeyd və ya sadəlövh olmadan dünyanın bu qaranlığı ilə necə üz-üzə qala bilər? Güclülərin dünyasında baş verən hər şeyin son nəticədə istismar və zülmdən ibarət olduğu halda, həqiqi birliyə, bəlkə də sevgiyə (hazırda bell hooks`u* oxuyuram) olan inamı haradan tapmalı? Əlbəttə, bilirəm ki, ümidsizliyə qapılıb hər şeydən əl üzmək də çıxış yolu deyil. Amma bu, bəzən insana başqa bir dünyanın mümkün və hətta zəruri olduğuna inanmaqdan daha real görünür.

Ən çox bəyəndiyim şeir "Gözəl ayrılıq"dır. Mən onu kədərli, əldən verilmiş bir fürsət kimi deyil, əksinə, bağlılığın bir tərənnümü kimi oxuyuram. Çünki o bağlılıq mümkün ola bilərdi və məhz buna görə də mövcuddur. Həm də orada belə bir etibar var: hər şeyi deməyə ehtiyac yoxdur; bəzən o böyük, bütöv olan tək bir anın içində cəmlənə bilər. Sadəcə, onu duymaq, ayıq olmaq, oyaq olmaq lazımdır. Bir insanı həqiqətən tanımaq və dərk etmək həmişə mümkündür. Və bəlkə də ən saf gözəllik, həmin insana heç nə əlavə etmək istəməmək, ondan heç nə tələb etməməkdir. bell hooks sevgini izah edərkən Peck`ə**, Peck isə öz növbəsində Fromm`a*** istinad edir: "Sevgi insanın həm özünün, həm də başqa bir insanın mənəvi inkişafını dəstəkləmək üçün öz mənliyini genişləndirmək iradəsidir". Mən Peck`i oxumamışam, Freyd`i isə çoxdandır vərəqləmirəm. Ona görə də onların bu "genişlənmə" dedikdə nəyi nəzərdə tutduqlarından tam əmin deyiləm. Yəqin ki, bunu ehtiyatlı və hörmət dolu bir mənada deyirlər. Amma mən bu sözün üzərində ilişib qalıram, çünki istər-istəməz ağlıma elə siyasətçilər gəlir ki, özlərini o qədər genişləndirirlər ki, az qala, qaz kimi hər yerə yayılırlar – hər yerə, hər diskursa nüfuz edirlər. Mən həm də insanın təbiətə və onun sərvətlərinə doğru genişlənməsini, bitib -tükənməyən "daha çox" istəyini düşünürəm. Buna görə də sevgi naminə belə, "genişlənmə" arzulamağa ehtiyatla yanaşıram. Mənə görə, bu, daha çox heç bir həddi aşma və heç bir şaxələnmə olmadan mahiyyətə yönəlməkdir. Görüşün, qarşılaşmanın bu keyfiyyəti mənə "Gözəl ayrılıq" şeirində tam şəkildə ötürülür. Nə yaralanmış qürur var, nə ittiham, nə istifadə olunmuş olmaq hissi, nə də anlaşılmamaq duyğusu. Yalnız işıq!

Alman şairəsi Sarah Kirsch`i tanıyırsanmı? Mən düşünürəm ki, onun şeirləri sənin xoşuna gələrdi. O, tez-tez diqqətini gündəlik həyatın adi məqamlarına yönəldir, amma eyni zamanda, şeirlərində güclü yumor hissi (məsələn, o gözəl "Nyuton" şeirində olduğu kimi) və cəmiyyətin quruluşuna tənqidi baxış da var. O, Almaniya Demokratik Respublikasında (Şərqi Almaniyada) doğulub və 1960-cı illərin sonunda Qərbi Almaniyaya köç edib.

Onun ən sevdiyim şeirlərindən biri "Trauriger Tag" (Kədərli gün) şeiridir.

Səmimi salamlarla,
Regina

*** bell hooks (əsl adı Gloria Jean Watkins, 1952 – 2021). Amerikalı Afro-Amerikan feminist yazar, nəzəriyyəçi. "Feminizm hər kəs üçündür" əsəri ilə tanınmışdır (adında böyük hərf işlətməməsinin səbəbini belə izah edir: "Kim olduğundan ziyadə çalışmalarına diqqət çəkmək"**

****Morgan Scott Peck (1936 – 2005). Amerikalı psixoloq və yazar**

*****Erix Fromm (1900 – 1980). Alman əsilli Amerikan psixoloqu, sosioloqu və filosofu.**

Məktubu tərcümə etdi: Naz Budaqova

Qeydlər: Q.Əzizxanlınındır

TARİX MÜƏLLİMLİYİ TƏLƏBƏLƏRİ AZƏRBAYCAN MİLLİ TARİX MUZEYİNƏ SƏFƏR EDİBLƏR

HISTORY TEACHING STUDENTS VISIT AZERBAIJAN NATIONAL HISTORY MUSEUM



Xəzər Universitetinin Tarix müəllimliyi ixtisasının II kurs tələbələri "Qədim dünya tarixi" fənni üzrə seminar tapşırığına hazırlıq məqsədilə sentyabrın 22- də Azərbaycan Milli Tarix Muzeyində olublar. Səfəri "Qədim dünya tarixi" fənnini tədris edən müəllim Orxan Zamanov təşkil edib.

Səfərin əsas məqsədi müəllim tərəfindən verilmiş seminar tapşırığının hazırlanması üçün mövzu ilə bağlı əlavə materiallar toplamaq, qədim dövrlərə aid arxeoloji nümunələri yerində görmək və dərslərdə öyrənilən nəzəri bilikləri muzey materialları əsasında zənginləşdirmək olub.

Seminar mövzusuna uyğun olaraq, tələbələr muzeyin aşağı zalında yerləşən ekspozisiyalarla tanış olublar. Tanışlıq zamanı qədim dövrlərə aid əsas arxeoloji tapıntılara, o cümlədən saxsı qablar, əmək alətləri, silahlar, bəzək əşyaları və digər maddi-mədəniyyət nümunələrinə baxış keçirilib. Tələbələr qədim insanların gündəlik həyatı, təsərrüfat fəaliyyəti, sənətkarlığı və mədəniyyəti haqqında məlumat əldə edib, seminar üçün zəruri materialları qeydə alıblar.

Muzeydə nümayiş olunan arxeoloji tapıntılar tələbələrə qədim cəmiyyətlərin həyatını və maddi mədəniyyətini daha yaxından öyrənmək imkanı yaradır. Ekspozisiyalarla tanışlıq zamanı seminar tapşırığının mövzusuna uyğun nümunələrə xüsusi diqqət yetirilib və onların tarixi əhəmiyyəti nəzərdən keçirilib.

Bu cür muzey səfərləri tələbələrin tarixi mənbələrlə birbaşa tanış olması, nəzəri biliklərini praktik müşahidələrlə tamamlaması və seminar tapşırıqlarını daha əhatəli şəkildə hazırlaması baxımından əhəmiyyət daşıyır. Azərbaycan Milli Tarix Muzeyindəki arxeoloji materialların öyrənilməsi tələbələrə qədim dünya tarixinin müxtəlif aspektlərini daha əyani şəkildə mənimsəməyə imkan verir.

Səfərdən sonra tələbələr seminar tapşırığının hazırlanması üçün topladıqları materialları sistemləşdirib, muzeydə gördükləri arxeoloji nümunələr əsasında əldə etdikləri məlumatları gələcək təqdimat və müzakirələrdə istifadə etmək imkanı qazanıblar.

Second-year students majoring in History Teaching at Khazar University visited the Azerbaijan National History Museum on September 22, in preparation for a seminar assignment in the course "History of the Ancient World." The visit was organized by Orkhan Zamanov, the instructor teaching the course.

The main purpose of the visit was to gather additional materials related to the topic for the seminar assignment given by the instructor, to see archaeological artifacts from ancient times firsthand, and to enrich the theoretical knowledge learned in class with materials from the museum.

In line with the seminar topic, the students familiarized themselves with the exhibitions located on the museum's lower floor. During this visit, they examined key archaeological finds from ancient times, including pottery, tools, weapons, ornaments, and other examples of material culture. The students gained information about the daily life, economic activity, craftsmanship, and culture of ancient peoples, and recorded the materials necessary for the seminar.

The archaeological finds displayed at the museum give students the opportunity to study the life and material culture of ancient societies more closely. During the tour of the exhibitions, particular attention was paid to items relevant to the seminar assignment's topic, and their historical significance was reviewed.

Such museum visits are important for enabling students to become directly acquainted with historical sources, to complement their theoretical knowledge with practical observation, and to prepare their seminar assignments more comprehensively. Studying the archaeological materials at the Azerbaijan National History Museum allows students to grasp various aspects of ancient world history in a more tangible way.

After the visit, the students organized the materials they had gathered for the seminar assignment and gained the opportunity to use the information obtained from the archaeological artifacts they saw at the museum in future presentations and discussions.

MUZEY- SƏRGİ ZALINDA DƏRSLƏR
CLASSES HELD IN MUSEUM-EXHIBITION HALL

Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbələri üçün "Qədim dünya tarixi I" fənnindən, eləcə də Tarix-coğrafiya müəllimliyi ixtisası üzrə I kurs tələbələri üçün "Arxeologiya və Etnoqrafiyanın əsasları" fənnindən növbəti mühazirə dərsləri oktyabrın 1-də AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun Muzey-sərgi zalında keçirilib.

Fənn müəllimi Orxan Zamanovun təşkilatçılığı ilə keçirilən dərslər zamanı tələbələr muzeydə nümayiş etdirilən müxtəlif arxeoloji materiallar və maddi-mədəniyyət nümunələri ilə yaxından tanış olublar. Eksponatlar əsasında qədim insanların həyat tərzi, məişəti, təsərrüfat fəaliyyəti, əmək alətləri və mədəni inkişafı haqqında ətraflı məlumat verilib. Eyni zamanda, arxeoloji materialların qədim dünya tarixinin öyrənilməsində elmi və mənbəşünaslıq əhəmiyyəti xüsusi vurğulanıb.



Dərs çərçivəsində aparılan müzakirələr və əyani müşahidələr tələbələrə auditoriyada əldə etdikləri nəzəri bilikləri konkret arxeoloji materiallar və eksponatlarla əlaqələndirmək, eləcə də gələcək peşə fəaliyyətləri üçün praktik bilik və bacarıq formalaşdırmaq imkanı yaradıb.

Qeyd edək ki, Xəzər Universitetində tarix və tarix müəllimliyi ixtisasları üzrə təhsil alan tələbələrin muzey və sərgi zallarında təşkil olunan dərslərə cəlb edilməsi onların nəzəri biliklərinin praktik müşahidələrlə tamamlanmasına, tarix və arxeologiya elmlərinə daha yaxından bələd olmalarına və peşə hazırlığının gücləndirilməsinə xidmət edir.

The next lecture sessions in the course "History of the Ancient World I" for second-year students majoring in History Teaching, and in the course "Fundamentals of Archaeology and Ethnography" for first-year students majoring in History-Geography Teaching, both at Khazar University's Faculty of Humanities, Education and Social Sciences, were held on October 1, at the Museum-Exhibition Hall of ANAS's Institute of Archaeology and Anthropology.

Organized by course instructor Orkhan Zamanov, the classes gave students the opportunity to become closely familiar with the various archaeological materials and examples of material culture displayed at the museum. Based on the exhibits, detailed information was provided on the way of life, daily routines, economic activity, tools, and cultural development of ancient peoples. At the same time, particular emphasis was placed on the scientific and source-study significance of archaeological materials for studying the history of the ancient world.

The discussions and visual observations carried out as part of the class gave students the opportunity to connect the theoretical knowledge they had gained in the classroom with concrete archaeological materials and exhibits, as well as to develop practical knowledge and skills for their future professional activity.

It should be noted that involving students studying history and history teaching at Khazar University in classes organized in museums and exhibition halls serves to complement their theoretical knowledge with practical observation, to become more closely acquainted with the sciences of history and archaeology, and to strengthen their professional training.

XƏZƏR UNİVERSİTETİNİN REKTORU DR. RAZİYƏ İSAYEVA ADA UNİVERSİTETİNDƏ KEÇİRİLƏN SİMPOZİUMDA ÇIXIŞ EDİB



KHAZAR UNIVERSITY RECTOR DR. RAZIA ISAEVA SPEAKS AT SYMPOSIUM HELD AT ADA UNIVERSITY

Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva 1-2 oktyabrda ADA Universitetinin və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) birgə təşkilatçılığı ilə ali təhsildə keyfiyyətin təminatı üzrə üçüncü illik simpoziumda iştirak edib.

Simpozium çərçivəsində ali təhsildə keyfiyyət təminatı, proqramların hazırlanması və təkmilləşdirilməsi, akkreditasiya prosesləri, məzunların məşğulluğunun dəstəklənməsi, tələbə kompetensiyalarının inkişafı və süni intellektin tədris

Dr. Razia Isaeva, Rector of Khazar University, took part on October 1–2, in the third annual symposium on quality assurance in higher education, jointly organized by ADA University and the Education Quality Assurance Agency (EQAA).

The symposium discussed current issues such as quality assurance in higher education, the development and improvement of programs, accreditation processes, support for graduate employment, the development of student competencies, and the integration of





Zəfər Qurbanov, Raziyə İsayeva

və öyrənmə proseslərinə inteqrasiyası kimi aktual məsələlər müzakirə olunub.

"İnstitusional inkişaf üçün akkreditasiyadan sonrakı strategiyalar" mövzusunda yüksək səviyyəli interaktiv panel müzakirəsi təşkil olunub. Paneldə Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva, Sumqayıt Dövlət Universitetinin rektoru, professor Nuralı Yusifbəyli, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, dosent Rüfət Əzizov, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, dosent Zəfər Qurbanov iştirak ediblər.

Çıxışı zamanı Dr. Raziyə İsayeva akkreditasiya prosesinin yalnız qiymətləndirmə mərhələsi kimi deyil, ali təhsil müəssisəsinin davamlı inkişafını dəstəkləyən mühüm mexanizm kimi əhəmiyyətini vurğulayıb. O, akkreditasiyadan sonrakı dövrdə müəyyən edilmiş tövsiyələrin və inkişaf istiqamətlərinin institusional strategiyaya inteqrasiyasının, keyfiyyət təminatı mexanizmlərinin davamlı şəkildə təkmilləşdirilməsinin vacibliyinə diqqət çəkib.

Simpoziumun digər sessiyalarında ali təhsildə keyfiyyət təminatı sistemlərində yeni tendensiyalar, akkreditasiya prosesinin təkmilləşdirilməsi, daxili keyfiyyət təminatı və monitorinq mexanizmləri, məzunların məşğulluğunda karyera xidmətlərinin rolu, tələbə kompetensiyalarının inkişafı, təhsil proqramlarının hazırlanması və akkreditasiyası, eləcə də süni intellektin tədris və öyrənmədə istifadəsinin keyfiyyət təminatına təsiri ilə bağlı təqdimat və praktiki seminarlar keçirilib.

artificial intelligence into teaching and learning processes.

A high-level interactive panel discussion on "Post-Accreditation Strategies for Institutional Development" was organized. The panel featured Dr. Razia Isaeva, Rector of Khazar University; Professor Nurali Yusifbayli, Rector of Sumgayit State University; Associate Professor Rufat Azizov, Rector of Azerbaijan State Oil and Industry University; and Associate Professor Zafar Gurbanov, Rector of Azerbaijan State Agrarian University.

In her speech, Dr. Razia Isaeva emphasized the importance of the accreditation process not merely as an assessment stage, but as an important mechanism supporting the continuous development of a higher education institution. She drew attention to the importance of integrating the recommendations and development directions identified in the post-accreditation period into the institutional strategy, and of continuously improving quality assurance mechanisms.

In other sessions of the symposium, presentations and practical workshops were held on new trends in quality assurance systems in higher education, improving the accreditation process, internal quality assurance and monitoring mechanisms, the role of career services in graduate employment, the development of student competencies, the development and accreditation of educational programs, as well as the impact of the use of artificial intelligence in teaching and learning on quality assurance.

ANDİCAN FORUMUNDA ŞUŞANIN TÜRK-İSLAM MEMARLIQ İRSİ VƏ ŞƏHƏR KİMLİYİ MÜZAKİRƏ OLUNUB

15–18 sentyabr aralığında Özbəkistanın Andican şəhərində yerləşən Kokand Universitetində Türk dünyasının müxtəlif universitetlərinin əməkdaşlığı ilə Andican Forumu keçirilib.

Şəhərlər, şəhər kimliyi, şəhərçilik və şəhərlərin idarə olunması mövzularının əsas gündəm təşkil etdiyi forumda tarix, memarlıq, şəhərsalma, mədəni irs və müasir şəhər idarəçiliyi ilə bağlı müxtəlif məruzələr dinlənilib. Forumun açılış panelində Tarix və arxeologiya departamentinin müdiri, dosent Telman Nüsrətoğlu "Şuşanın Türk-İslam memarlıq irsi və mövcud durum" mövzusunda geniş məruzə ilə çıxış edib. Məruzədə Şuşanın şəhər-memarlıq kimliyi, şəhərin formalaşma və inşa prosesi, Qarabağ xanlığı dövründə şəhərin inkişafı və Şuşanın Türk-İslam şəhərçilik ənənələri içərisindəki yeri ətraflı şəkildə təhlil olunub.

Telman Nüsrətoğlu Şuşanın yalnız Azərbaycanın deyil, bütövlükdə Türk-İslam şəhər mədəniyyətinin mühüm nümunələrindən biri olduğunu vurğulayaraq, şəhərin tarixi məhəlləsi, memarlıq abidələri, qalaları, məscidləri və digər mədəni irs nümunələrinin Şuşanın özünəməxsus şəhər kimliyinin formalaşmasındakı rolundan bəhs edib. Məruzədə Ermənistanın işğalı dövründə Şuşanın Türk-İslam mədəni irsinə qarşı həyata keçirilən dağıntılar, tarixi və dini abidələrin zədələnməsi, məhv edilməsi və şəhərin tarixi-mədəni simasının dəyişdirilməsinə yönəlmiş müdaxilələr də diqqətə çatdırılıb. Dosent T. Nüsrətoğlu Şuşanın işğaldan azad edilməsindən sonra həyata keçirilən bərpa və yenidənqurma prosesinə də xüsusi diqqət çəkib. Bildirilib ki, şəhərin yenidən qurulması yalnız fiziki tikinti prosesi kimi deyil, həm də Şuşanın öz tarixi, milli və Türk-İslam şəhər kimliyinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

TURKIC-ISLAMIC ARCHITECTURAL HERITAGE AND URBAN IDENTITY OF SHUSHA DISCUSSED AT ANDIJAN FORUM

The Andijan Forum is being held from September 15-18, at Kokand University, located in the city of Andijan, Uzbekistan, in cooperation with various universities of the Turkic world.

At the forum, whose main agenda covers the topics of cities, urban identity, urbanism, and urban governance, various presentations on history, architecture, urban planning, cultural heritage, and modern urban governance were heard. At the forum's opening panel, Telman Nusratoglu, Assoc.Prof. and Head of the Department of History and Archaeology, delivered an extensive presentation titled "The Turkic-Islamic Architectural Heritage of Shusha and Its Current State." The presentation provided a detailed analysis of Shusha's urban-architectural identity, the city's formation and construction process, the city's development during the Karabakh Khanate period, and Shusha's place within Turkic-Islamic urban traditions.

Emphasizing that Shusha is one of the important examples not only of Azerbaijani but of Turkic-Islamic urban culture as a whole, Telman Nusratoglu discussed the role of the city's historic neighborhoods, architectural monuments, fortresses, mosques, and other examples of cultural heritage in the formation of Shusha's distinctive urban identity. The presentation also drew attention to the destruction carried out against Shusha's Turkic-Islamic cultural heritage during the Armenian occupation, the damage and destruction of historical and religious monuments, and interventions aimed at altering the city's historical-cultural character. Assoc. Prof. Nusratoglu also paid special attention to the restoration and reconstruction process carried out after Shusha's liberation from occupation. It was noted that the city's reconstruction holds significant importance not merely as a physical construction process, but also in terms of preserving Shusha's own historical, national, and Turkic-Islamic urban identity and passing it on to future generations.

DEPARTAMENT MÜDİRİ ÖZBƏKİSTANDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRİB

DEPARTMENT HEAD HOLDS SERIES OF MEETINGS IN UZBEKISTAN

Səfər çərçivəsində T. Nüsrətoğlu Andican şəhərində yerləşən Kokand Universitetində forumda məruzə ilə çıxış edib. Məruzənin təqdimatından sonra Özbəkistanın müxtəlif ali təhsil müəssisələri ilə görüşlər davam etdirilib.

Səfərin növbəti mərhələsində Telman Nüsrətoğlu

As part of the visit, Nusratoglu delivered a presentation at a forum held at Kokand University in Andijan. Following the presentation, meetings continued with various higher education institutions in Uzbekistan.

In the next stage of the visit, Telman Nusratoglu

İqtisadiyyat və Pedaqogika Universitetini ziyarət edib. Görüş zamanı universitetin müəllim və tələbələri ilə fikir mübadiləsi aparılıb. Görüşlərdə Azərbaycan–Özbəkistan qardaşlığı, Türk dünyasının birliyi, xalqlarımızın ortaq tarixi, milli kökləri, Azərbaycan və Özbəkistanı bir-birinə bağlayan mənəvi dəyərlər haqqında geniş müzakirələr aparılıb. Görüş zamanı Özbəkistanda gənc nəslin Türk dünyasının ortaq tarixinə, milli-mənəvi dəyərlərə və qardaş xalqlar arasındakı əlaqələrə göstərdiyi marağın əhəmiyyəti xüsusi vurğulanıb.



Telman Nüsrətoğlu, Jamiliddin Kambarov

Telman Nüsrətoğlu göstərilən səmimi qəbula və görüşün yüksək səviyyədə təşkilinə görə, universitet rəhbərliyinə təşəkkürünü bildirib.

Səfər çərçivəsində keçirilən görüşlərin Azərbaycan və Özbəkistan, eləcə də iki ölkənin ali təhsil və elmi ictimaiyyəti arasında əlaqələrin inkişafına töhfə verəcəyi qeyd olunub.



Otkir Mirziyev

visited the University of Economics and Pedagogy. During the meeting, an exchange of views was held with the university's faculty and students. The meetings included wide-ranging discussions on Azerbaijani–Uzbek brotherhood, the unity of the Turkic world, the shared history and national roots of our peoples, and the spiritual values connecting Azerbaijan and Uzbekistan. During the meeting, particular emphasis was placed on the importance of the interest shown by the younger generation in Uzbekistan toward the shared history of the Turkic world, national-spiritual values, and the ties between brotherly peoples.



Nusratoglu expressed his gratitude to the university's leadership for the warm reception and the high level of organization of the meeting.

It was noted that the meetings held during the visit would contribute to the development of relations between Azerbaijan and Uzbekistan, as well as between the higher education and scientific communities of the two countries.

DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev sentyabrın 16-da Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) aparıcı milli analitik mərkəzlərinin II beynəlxalq konfransında iştirak edib. "Türk Dövlətləri Təşkilatı çərçivəsində davamlı məsləhətləşmələr və birgə tədqiqatlar vasitəsilə iqtisadi əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunan konfrans İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən təşkil olunub. Konfransın əsas məqsədi Türk Dövlətləri Təşkilatına üzv dövlətlər arasında davamlı məsləhətləşmələrin, birgə tədqiqatların və əlaqələndirilmiş siyasət fəaliyyətinin təşviqi, iqtisadi əməkdaşlığın və regional inteqrasiyanın gücləndirilməsi olub. Tədbirdə həmçinin, ticarət, investisiya, nəqliyyat və logistika, enerji, rəqəmsal transformasiya, innovasiya, ərzaq təhlükəsizliyi və davamlı inkişaf kimi strateji istiqamətlər müzakirə edilib.

Konfransın açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi-Prezident Administrasiyasının Xa-

HEAD OF DEPARTMENT AT INTERNATIONAL CONFERENCE

Dr. Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy, participated in the Second International Conference of Leading National Analytical Centers of the Organization of Turkic States (OTS), held in Baku on September 16. The conference, titled "Enhancing Economic Cooperation across the Organization of Turkic States through Continuous Consultations and Joint Research," was organized by the Center for Analysis of Economic Reforms and Communication of the Republic of Azerbaijan.



The conference focused on strengthening economic cooperation among the member states of the Organization of Turkic States through continuous consultations, joint research, and coordinated policy action. Key areas of discussion included trade and investment, transport and logistics, energy cooperation, digital transformation, innovation, food security, sustainable development, and institutional coordination.

The opening ceremony featured Hikmet Hajiyev, Assistant to the President of the Republic of

rici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Omuralıyev, Milli Məclis sədrinin müavini Musa Qasımlı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlı və Türkiyə Böyük Millət Məclisinin deputatı, Ədalət və İnkişaf Partiyasının türk dövlətləri ilə əlaqələr üzrə sədr müavini Kürşad Zorlu çıxış ediblər.

Tədbir çərçivəsində "Orta Dəhliz regional inteqrasiya və infrastruktura əsaslanan inkişaf üçün katalizator kimi", "TDT dövlətləri arasında ticarət və iqtisadi əlaqələrin qiymətləndirilməsi: tendensiyalar və istifadə olunmamış imkanlar" və "Davamlı inkişaf üçün innovasiya: siyasət çərçivələri və iqtisadi transformasiya" mövzularında panel müzakirələri keçirilib.

Beynəlxalq konfrans siyasətçiləri, alimləri, analitik mərkəzlərin nümayəndələrini, beynəlxalq təşkilatları, maliyyə institutlarını və biznes nümayəndələrini bir araya gətirərək, Türk Dövlətləri Təşkilatı çərçivəsində iqtisadi əməkdaşlığın gələcək istiqamətlərinin müzakirəsi üçün platforma yaradıb.

Link: https://xalqqazeti.az/az/last-news/279789-turk-dovletleri-teskilatinin-aparici-milli

Azerbaijan and Head of the Department of Foreign Policy Affairs of the Presidential Administration; Kubanychbek Omuraliyev, Secretary General of the Organization of Turkic States; Musa Gasimli, Deputy Speaker of the Milli Majlis of the Republic of Azerbaijan; Vusal Gasimli, Executive Director of the Center for Analysis of Economic Reforms and Communication; and Kurshad Zorlu, Member of the Grand National Assembly of Turkiye and Vice Chairman of the Justice and Development Party responsible for relations with the Turkic States.

The discussions addressed a wide range of issues, including deeper economic integration across the Turkic world, the strategic role of the Middle Corridor, trade and investment cooperation, digital transformation, artificial intelligence, innovation ecosystems, human capital development, and institutional cooperation.

Bringing together policymakers, academics, representatives of analytical centers, international organizations, financial institutions, and the business community, the conference provided a platform for exchanging expertise and discussing future directions for economic cooperation within the Organization of Turkic States.

RDL - RAW DATA LIBRARY SİSTEMLƏRİNİN TƏQDİMATI

Xəzər Universitetində akademik rəqəmsallaşma və tədqiqat nəticələrinin beynəlxalq görünürlüyünün artırılması istiqamətində görüş keçirilib.

Görüş çərçivəsində Türkiyənin Erzincan Binali Yıldırım Universitetinin Prof. Dr. Hakan Yalçıner tərəfindən Raw Data Library platformasının imkanlarına dair təqdimatı olub. Təqdimatda akademik məlumatların idarə edilməsi, elmi resurslara çıxış və Crossref DOI infrastrukturu barədə məlumat verilib.

Görüş zamanı RDLopen, RDLsis və RDLthesis sistemlərinin universitetin rəqəmsal transformasiyasına və beynəlxalq akademik görünürlüyünə verə biləcəyi töhfələr müzakirə olunub.

Görüş Xəzər Universitetində rəqəmsal inkişaf və beynəlxalq akademik əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində fikir mübadiləsi üçün platforma yaradıb.

PRESENTATION OF RDL – RAW DATA LIBRARY SYSTEMS

A meeting on academic digitalization and increasing the international visibility of research results was held at Khazar University.

As part of the meeting, Prof. Dr. Hakan Yalçıner of Türkiye's Erzincan Binali Yıldırım University gave a presentation on the capabilities of the Raw Data Library platform. The presentation provided information on the management of academic data, access to scientific resources, and the Crossref DOI infrastructure.


During the meeting, the contributions that the RDLopen, RDLsis, and RDLthesis systems could make to the university's digital transformation and international academic visibility were discussed.

The meeting created a platform for an exchange of views on expanding opportunities for digital development and international academic cooperation at Khazar University.

PAKİSTANIN NORTHERN UNİVERSİTETİNİN REKTORU "XƏZƏR"DƏ
RECTOR OF PAKISTAN'S NORTHERN UNIVERSITY AT KHAZAR



Taha Sawar, Fidan Cəfərova



Fəxrəndə Əfəndiyeva, Raziyə İsayeva

Xəzər Universitetində sentyabrın 28-də Pakistanın Northern Universitetinin rektoru Taha Sawar ilə görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva, Keyfiyyət Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, fakültə dekanları və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları iştirak ediblər.

Görüş zamanı iki universitet arasında əməkdaşlıq imkanları, Anlaşma Memorandumunun (MoU) imzalanması perspektivləri, eləcə də gələcək akademik və institusional əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Tərəflər universitetlərarası əlaqələrin inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın qurulması imkanları barədə fikir mübadiləsi aparıblar.

A meeting with Taha Sawar, Rector of Pakistan's Northern University, was held at Khazar University on September 28.


The meeting was attended by Dr. Razia Isaeva, Rector of Khazar University; Lyudmila Sotova, Director of the Quality Assurance Center; faculty deans; and staff of the International Relations Department.

During the meeting, opportunities for cooperation between the two universities, prospects for signing a Memorandum of Understanding (MoU), as well as future directions of academic and institutional cooperation were discussed.

The parties exchanged views on developing inter-university relations and establishing cooperation in areas of mutual interest.



Lyudmila Sotova



Günel Bahəddinova



Seyran Əliyeva

FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN UNİVERSİTET VƏ ELMİ ƏMƏKDAŞLIQ ÜZRƏ ATTAŞESİ İLƏ GÖRÜŞ

MEETING WITH FRANCE'S ATTACHÉ FOR UNIVERSITY AND SCIENTIFIC COOPERATION IN AZERBAIJAN



Thibault Monbailly, Seyran Əliyeva

Sentyabrın 30-da Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Seyran Əliyeva Fransa Respublikasının Azərbaycandakı səfirliyinin universitet və elmi əməkdaşlıq üzrə attaşesi Thibault Monbailly ilə görüşüb.

Görüşdə Xəzər Universiteti ilə Fransa ali təhsil müəssisələri arasında akademik əməkdaşlığın inkişaf etdirilməsi, yeni tərəfdaşlıqların qurulması və birgə fəaliyyət imkanlarının genişləndirilməsi məsələləri müzakirə olunub.

Tərəflər həmçinin, Erasmus+ KA171 proqramı çərçivəsində mümkün əməkdaşlıq imkanları, tələbə və akademik heyət mobilliyinin təşviqi, ikili diplom proqramlarının yaradılması, eləcə də universitetlər arasında beynəlxalq əlaqələrin gücləndirilməsi barədə fikir mübadiləsi aparıblar.

Görüş Xəzər Universiteti ilə Fransa ali təhsil müəssisələri arasında gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi və yeni tərəfdaşlıqların inkişaf etdirilməsi baxımından əhəmiyyət daşıyır.

On September 30, Seyran Aliyeva, Coordinator of Khazar University's International Relations Department, met with Thibault Monbailly, Attaché for University and Scientific Cooperation of the French Republic in Azerbaijan.

At the meeting, issues related to developing academic cooperation between Khazar University and French higher education institutions, establishing new partnerships, and expanding opportunities for joint activity were discussed.

The parties also exchanged views on possible cooperation opportunities within the framework of the Erasmus+ KA171 program, promoting student and academic staff mobility, establishing dual diploma programs, as well as strengthening international ties between universities.

The meeting is significant in terms of identifying future directions of cooperation between Khazar University and French higher education institutions and developing new partnerships.

VYETNAMDA KEÇİRİLƏN FESTİVALDA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ TƏQDİM OLUNUB

Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın həyat yoldaşı xanım Nqo Fıın Linin təşəbbüsü ilə paytaxt Hanoyda "İrsin qovuşması-gələcəyin qurulması" mövzusunda 2-ci Dünya Mədəniyyətləri Festivalı keçirilib.

AZƏRTAC xəbər verir ki, Vyetnamın UNESCO-ya üzvlüyünün 50 illiyinə həsr edilən festivalın əsas məqsədi müxtəlif ölkələrin mədəni irsinin təqdim edilməsi, xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun gücləndirilməsi, habelə Hanoyun beynəlxalq mədəniyyət və mədəni diplomatiya mərkəzi kimi mövqeyinin möhkəmləndirilməsidir. Dörd gün davam edən festivalda 50 ölkə və beynəlxalq təşkilat iştirak edib, 35 milli mətbəx pavilyonu, 18 ölkənin film proqramı və 19 dövlətin milli geyimlərinin təqdimatı olub. Həmçinin, 5 qitədən 220-yə yaxın sənətçinin iştirakı ilə beynəlxalq incəsənət proqramları gerçəkləşdirilib.

Festivalın açılış mərasimində Vyetnamın Baş nazir müavini xanım Pham Thi Thanh Tra, mədəniyyət, id-

AZERBAIJANI CULTURE PRESENTED AT FESTIVAL HELD IN VIETNAM

The 2nd World Cultures Festival, themed "Convergence of Heritage - Building the Future," was held in the capital Hanoi at the initiative of Ms. Ngo Phuong Ly, wife of General Secretary of the Central Committee of the Communist Party of Vietnam To Lam.

AZERTAC reports that the festival, dedicated to the 50th anniversary of Vietnam's membership in UNESCO, aimed to present the cultural heritage of various countries, strengthen mutual understanding and friendship among peoples, and consolidate Hanoi's position as an international center of culture and cultural diplomacy. The four-day festival brought together 50 countries and international organizations, and featured 35 national cuisine pavilions, a film program from 18 countries, and presentations of national costumes from 19 states. International art programs were also held with the participation of nearly 220 artists from five continents.

The opening ceremony was attended by Vietnam's Deputy Prime Minister Ms. Pham Thi Thanh Tra, Mi-



Ramin Qarayev



man və turizm naziri xanım Lam Thi Phuonq Thanh, Hanoy Xalq Komitəsinin sədri Vu Dai Thanq və digər rəsmi şəxslər, habelə UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru Lazare Eloundou Assomo və diplomatik nümayəndəliklərin rəhbərləri iştirak ediblər. Açılış mərasiminin bədii proqramında Vyetnamın tanınmış sənətçiləri, həmçinin, ənənəvi Vyetnam sənət kollektivləri, beynəlxalq proqramda isə müxtəlif ölkələrin musiqi, rəqs və döyüş sənəti nümunələri təqdim olunub, Azərbaycan, Çin, İndoneziya, İsrail, Cənubi Koreya, Laos, Pakistan, Banqladeş, Peru və Ukraynadan incəsənət kollektivləri çıxış ediblər.

Tanınmış saz ifaçısı, Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müəllimi aşıq Ramin Qarayevin ifası Azərbaycanın zəngin aşıq musiqisi irsinin Vyetnamda və festivalın beynəlxalq auditoriyası arasında geniş şəkildə tanıdılmasına və təbliğinə mühüm töhfə olub. İfa tamaşaçılar və tədbirdə iştirak edən mədəniyyət və incəsənət sahəsinin nümayəndələri tərəfindən böyük maraqla qarşılanıb, Azərbaycan milli musiqi irsinin özünəməxsusluğu və saz sənətinin ifaçılıq xüsusiyyətləri auditoriyanın diqqətini cəlb edib.

Daha ətraflı aşağıdakı linkdə:


nister of Culture, Sports and Tourism Ms. Lam Thi Phuong Thanh, Chairman of the Hanoi People's Committee Vu Dai Thang, and other officials, as well as Lazare Eloundou Assomo, Director of the UNESCO World Heritage Centre, and heads of diplomatic missions. The artistic program of the opening ceremony featured well-known Vietnamese artists and traditional Vietnamese art ensembles, while the international program presented examples of music, dance, and martial arts from various countries, with art ensembles from Azerbaijan, China, Indonesia, Israel, South Korea, Laos, Pakistan, Bangladesh, Peru, and Ukraine performing.

The performance by renowned saz player and Khazar University Department of Music and Arts lecturer ashug Ramin Garayev made an important contribution to promoting Azerbaijan's rich ashug music heritage in Vietnam and among the festival's international audience. The performance was received with great interest by spectators and by representatives of the culture and arts sector attending the event, and the uniqueness of Azerbaijan's national musical heritage and the performance characteristics of the saz art drew the audience's attention.

More details at the link below:

https://azertag.az/xeber/vyetnamda_kechirilen_festivalda_azerbaycan_medeniyyeti_teqdim_olunub-4447104

DÜNYANIN ƏN MARAQLI DİLİ - HEÇ BİR SÖZ YOXDUR



İspaniyanın Kanar adalarına daxil olan La Qomera adasında əsrlərdir istifadə edilən qeyri-adi ünsiyyət sistemi diqqət çəkir. "Silbo Qomero" adlanan bu sistemdə sözlərin yerini fit səsləri tutur və mürəkkəb mesajları kilometrlərlə uzağa çatdırmaq mümkün olur.

Musavat.com xəbər verir ki, La Qomeranın sıldırım dağları və dərin dərələri keçmişdə adanın yaşayış məntəqələri arasında ünsiyyəti çətinləşdirib. İnsan səsinin uzağa çatmadığı ərazilərdə sakinlər daha geniş məsafədən eşidilən fit səslərindən istifadə etməyə başlayıblar. Beləliklə, dodaq, dil və nəfəs hərəkətləri ilə yaradılan xüsusi fit sistemi formalaşıb.

Silbo təsadüfi fit səslərindən ibarət deyil. Danışıq dilindəki səslər müxtəlif ton və ritmlərlə fitə çevrilir. Bu üsulu yaxşı bilən insanlar gündəlik söhbətləri, xəbərləri və uzun cümlələri qarşı tərəfə ötürə bilirlər.

Uyğun şəraitdə fit səsləri kilometrlərlə məsafəyə yayıla bildiyindən Silbo vaxtilə La Qomera sakinləri üçün təbii rabitə şəbəkəsi rolunu oynayıb.

Telefon və digər müasir rabitə vasitələrinin yayılması ilə Silbo tədricən əhəmiyyətini itirib və yox olmaq təhlükəsi ilə üzləşib. Lakin La Qomera sakinləri bu ənənəni qorumaq üçün xüsusi tədbirlər görüblər.

1999-cu ildən etibarən Silbo adadakı məktəblərdə tədris olunmağa başlanıb.

Silbo Qomero 2009-cu ildə UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib. Bu gün adada uşaqlar da fitlə ünsiyyət sistemini öyrənir və əsrlər əvvəl yaranmış ənənənin yaşadılmasına töhfə verirlər.

Silbo Qomero insanın yaşadığı coğrafiyanın ünsiyyət formasını necə dəyişdirə biləcəyinin ən maraqlı nümunələrindən biridir. La Qomeranın dağlıq relyefi sakinləri sözləri fit səslərinə çevirərək kilometrlərlə məsafədən əlaqə saxlamağa imkan verən unikal sistem yaratmağa vadar edib.

QƏBUL QAYDALARI

DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. htt://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seç!

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Fizika müəllimliyi
- Riyaziyyat və informatika (rəqəmsal bacarıqlar) müəllimliyi
- Elektrik və elektronika mühəndisliyi
- Memarlıq
- İnformasiya təhlükəsizliyi

2 QRUP

- Biznesin idarə edilməsi
- İqtisadiyyat
- Maliyyə
- Marketinq
- Menecment
- Mühasibat
- Turizm işinin təşkili
- Coğrafiya müəllimliyi
- Tarix-coğrafiya müəllimliyi

3 QRUP

- Filologiya (ingilis dili və ədəbiyyatı)
- Tərcümə (ingilis, ərəb, fars və Çin dilləri)
- Xarici dil müəllimliyi (ingilis dili üzrə)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Politologiya
- Beynəlxalq münasibətlər
- Regionşünaslıq

4 QRUP

- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti
- Biotexnologiya

5 QRUP

- Dizayn (qrafik dizayn, interyer dizaynı və landşaft dizaynı)
- Təsviri incəsənət müəllimliyi